Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

# UŞAQLAR VƏ HÜQUQ

(Uşaqlar üçün maarifləndirici vəsait)



2025

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

# UŞAQLAR VƏ HÜQUQ

**(Uşaqlar üçün maarifləndirici vəsait)**

**BAKI – 2025**

## Redaksiya heyəti:

*Bahar Muradova*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*

*Anar Bağırov*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri*

*Samir Mahmudov*
*Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru*

## Tərtibatçı heyət:

*Asif Mustafayev*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin böyük məsləhətçisi*

*Xəyalə Abbaslı-Əsgərli*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin aparıcı məsləhətçisi*

*Bahar Həsənli*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin məsləhətçisi*

## Müəllif:

*Abil Bayramov*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü*

# MÜNDƏRİCAT


- **GİRİŞ** .................................................................................................... 4

- **I FƏSİL**
  - **Hüquq və vəzifələr Konstitusiyada** .............................. 5
- **II FƏSİL**
  - **Yol hərəkəti qaydaları** ................................................. 33
- **III FƏSİL**
  - **Təhsil hüququ** ............................................................. 61
- **IV FƏSİL**
  - **Sağlamlığın mühafizəsi hüququ** .................................. 79
- **V FƏSİL**
  - **Mülki hüquqlar** ........................................................... 97
- **VI FƏSİL**
  - **Ailə hüququ** ................................................................. 121
- **VII FƏSİL**
  - **Əmək hüquqları** ........................................................... 135
- **VIII FƏSİL**
  - **Kibertəhlükəsizlik** ....................................................... 155
- **IX FƏSİL**
  - **Hüquqi məsuliyyət** ...................................................... 175

- **TAPŞIRIQLARIN CAVABLARI** ........................................................ 198

# GİRİŞ

Əziz uşaqlar!

Əminik ki, bəzən sizi "mənim hansı hüquqlarım var", "niyə bəzi şeyləri etməyə icazə verilmir", "vəzifələrim nədən ibarətdir" kimi suallar düşündürür. Əslində bu suallara düzgün cavab tapmağınız çox vacibdir, çünki hüquqlarınızı bilib onlara əməl etməyiniz, həmçinin başqalarının hüquqlarına hörmətlə yanaşmağınız həm sizin şəxsiyyət kimi formalaşmağınız, həm də ədalətli, qaydalara əsaslanan bir cəmiyyətin qurulması üçün böyük əhəmiyyət kəsb edir.

Bu kitabın da hazırlanmasında əsas məqsəd sizi hüquq və vəzifələriniz barədə məlumatlandırmaq, hüquqlarınızın təmin olunmasında ailənin, məktəbin və dövlətin üzərinə düşən öhdəliklərlə sizi tanış etmək, sizi hüquqlarınızdan daha səmərəli istifadəyə və vəzifələrinizə məsuliyyətlə yanaşmağa sövq etməkdir.

Kitab hazırlanarkən sizin yaş xüsusiyyətləriniz, maraqlarınız və anlama səviyyəniz nəzərə alınmış, hüquqi biliklər bədii və həyatla bağlı kiçik hekayələr (kazuslar) vasitəsilə təqdim olunmuşdur.

Bu kitabda uşaqlara aid bütün hüquq və vəzifələr yer almır. Biz çalışmışıq ki, gündəlik həyatda daha çox rast gəlinən və sizin üçün daha aktual olan hüquq və vəzifələrə üstünlük verək. Məqsəd sizə çoxlu qanun maddələri öyrətmək deyil, sizin gündəlik həyatdakı davranışlarınızda ədalətli, məsuliyyətli və hüquqlarına sahib çıxmağı bacaran fərdlər kimi formalaşmanıza kömək etməkdir.

Kitab doqquz fəsildən ibarətdir. Fəsillər hüquq və vəzifələrinizi maraqlı və qısa hekayələr (kazuslar) vasitəsilə izah edən ayrı-ayrı dərslərə bölünüb. Hər bir kazusda əks olunmuş mövzuya aid tapşırıqlar öyrəndiyiniz bilikləri yenidən nəzərdən keçirmək imkanı verəcək. Tapşırıqların cavabları ilə kitabın sonunda tanış ola və onları düzgün həl edib-etmədiyinizi yoxlaya biləcəksiniz.

Tapşırıqlardan əlavə, hər bir dərsə mövzu ilə bağlı düşündürücü və situativ suallar da daxil edilib. Əsas məqsəd sizdə tənqidi düşünmə, qərar qəbuletmə, düzgün seçim etmə bacarıqlarını inkişaf etdirmək, empatiya, sosial ədalət, hörmət, məsuliyyət, vətəndaşlıq hisslərini gücləndirməkdir.

Ümid edirik ki, bu kitab sizə həm öz hüquqlarınızı qorumağı, həm də başqalarının hüquqlarına hörmət etməyi öyrədəcək. Çünki hüququ bilən və ədaləti sevən uşaqlar gələcəyin savadlı, məsuliyyətli və güclü vətəndaşları deməkdir.

Gəlin, hüququ birlikdə öyrənək və dünyanı bir az da ədalətli edək!

# I FƏSİL

## Hüquq və vəzifələr Konstitusiyada

## 1-ci dərs

## Ədalətli seçim

Məktəbdə yeni futbol komandası yaradılırdı. Uşaqlar həyətə toplaşıb müzakirəyə başladılar.

Ayxan dedi:

- Məncə, Markı müdafiəyə götürək. O, çox yaxşı top saxlayır.

Amma Tərlan etiraz etdi:

- Yox, onu komandaya götürməyək, o qaradərilidir.

Söhbətə Alina qarışdı:

- Nə fərqi var ki? Onun dərisinin rəngi oyununa təsir etmir. Əsas odur ki, yaxşı oynasın.

Bu dəfə Mikayıl söz aldı:

- Mən də Əkbəri təklif edirəm. O, yaxşı hücumçudur.

Amma başqa bir uşaq yenə etiraz etdi:

- Yox, Əkbəri götürməyək. O, ateistdir. Onun bizim aramızda yeri yoxdur.

Sinif rəhbəri Sara müəllim bu sözləri eşidib uşaqları yanına çağırdı:

- Uşaqlar, yadınızda saxlayın: hamı qanun və məhkəmə qarşısında bərabərdir. Heç kimin hüququ dini inancına, dərisinin rənginə, dilinə, fikirlərinə görə məhdudlaşdırıla bilməz. Futbol komandası da bir cəmiyyət kimidir. Burada yalnız bacarıq və səy əsasdır.



Mark utana-utana gülümsədi:

- Mən komandada olmaq istəyirəm, amma qəbul edilməyəcəyimdən qorxurdum.

Əkbər də əlavə etdi:

- Mənim inancım fərqli ola bilər, amma futbolu çox sevirəm. Mən də öz bacarığımla komandaya faydalı ola bilərəm.

Uşaqlar bir-birinə baxdılar və başları ilə təsdiqləyərək dedilər:

- Ən yaxşısı, bacarığına görə seçim etməkdir. Komandamızda hamıya yer var!

Beləliklə, yeni komanda ədalət və bərabərlik üzərində quruldu.

***1-ci dərsdən nələri öyrəndik?***

• Bütün uşaqlar bərabər hüquqlara malikdirlər.
• Milli, dini mənsubiyyətə, geyimə, valideynlərin vəziyyətinə, sağlamlığa və s. görə ayrı-seçkilik yolverilməzdir.
• Əsas olan birlik, dostluq və bacarıqdır.
• Uşaqlar başqalarının hisslərini nəzərə almalı və bir-birlərinə hörmətlə yanaşmalıdırlar.

### TAPŞIRIQ

***1.1. Hansı halda ayrı-seçkilikdən söhbət gedir?***

A) Şagirdlərin hamısına imtahan sualları eyni qaydada verilir.

B) Uşaqların birinə valideyninin kasıb olduğuna görə dərnəyə qəbuldan imtina edilir.

C) Sinifdə bütün şagirdlər eyni hüquqlara malikdirlər.

D) Müəllim hər kəsə bacarığına uyğun tapşırıq verir.

***1.2. Aşağıdakı fikirləri oxu və hansının doğru ✓, hansının yanlış ✗ olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Uşaqların geyiminə, milliyyətinə və ya dininə görə fərqləndirilməsi ayrı-seçkilikdir. | |
| 2 | Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. | |
| 3 | Ayrı-seçkilik yalnız məktəbdə ola bilər. | |
| 4 | Dostluq və əməkdaşlıq uşaqlar arasında bərabərliyi möhkəmləndirir. | |

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səncə, Tərlanın Markı komandaya qəbul etməmək üçün gətirdiyi səbəb nə üçün yanlışdır? Bu düşüncə hansı nəticələrə gətirib çıxara bilər?
2. Əgər Sara müəllim söhbətə qarışmasaydı, hadisələr necə davam edə bilərdi? Komandada hansı problemlər yarana bilərdi?
3. Əkbərin futbol komandasında iştirakına qarşı çıxan uşağın düşüncəsi cəmiyyət üçün hansı təhlükələri yaradır?
4. Mark və Əkbərin yerində olsaydın, nə hiss edərdin?
5. Komandada seçimin yalnız bacarıq və oyun keyfiyyətinə əsaslanması hansı dəyərlərə xidmət edir?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də həmin müzakirədə iştirak edən uşaqlardansan. Tərlan və digər uşaqlar ayrı-seçkilik edəndə sən nə deyərdin?

## 2-ci dərs

## Zəhra və təhlükəsiz yol

Zəhra hər gün səhər tezdən çantasını götürüb məktəbə gedirdi. Onun məktəb yolu bir az uzun olsa da, yol boyu səmaya boylanan ağaclar, quşların səsi və sərin səhər havası bu yolu daha maraqlı edirdi.

Bir dəfə o, yolda işıqforun işləmədiyini gördü. Uşaqlar qaça-qaça yolu keçməyə çalışır, sürücülər isə bəzən tormozlayır, bəzən də əsəbi siqnal verirdilər. Maşınlar həmin yerdən sürətlə şütüyür, bəzən yolun kənarından keçən uşaqlara çox yaxınlaşırdı.

Zəhra içində bir narahatlıq hiss etdi. Öz-özünə düşündü: “Əgər kimsə diqqətsizlik etsə, burada pis bir hadisə baş verə bilər”.

O, məktəbə çatar-çatmaz bu məsələni Aygün müəllimə danışdı:

- Müəllim, yolda işıqfor işləmir, sürücülər maşını sürətlə sürürlər. Biz yolun o hissəsindən keçəndə çox qorxuruq.

Aygün müəllim diqqətlə dinlədikdən sonra dedi:

- Zəhra, çox sağ ol ki, bu barədə mənə dedin. Mən mütləq məktəb rəhbərliyinə məlumat verəcəm ki, təcili tədbir görülsün, çünki Konstitusiyaya əsasən, sizin yaşamaq və təhlükəsiz şəraitdə böyümək hüququnuz var. Dövlət məktəblərin, yolların, parkların təhlükəsiz olmasını təmin etməyə borcludur.



Aygün müəllimin məlumatından sonra məktəbin direktoru şəhər icra hakimiyyəti və yol polisi ilə əlaqə saxladı. Onlar problemin qısa zamanda həll olunacağını bildirdilər.

Aradan bir neçə gün keçdi. Səhər Zəhra məktəbə gedəndə gözlərinə inanmadı. Yolun həmin təhlükəli hissəsində yeni piyada keçidi zolağı çəkilmişdi. İşıqfor artıq işləyirdi. Şagirdlərin keçdiyi yolun qarşısına sürətazaldıcı nişanlar qoyulmuşdu, hətta yolda “Diqqət! Məktəb zonası!” lövhəsi də vardı.

Sürücülər həmin yerdə avtomobillərinin sürətini azaldır, uşaqlara yol verirdilər. Zəhra dayanıb yol boyu baxdı və ürəyi sevincdən doldu. Piyada keçidindən birinci sinif uşaqları keçirdilər. Artıq onlar yolu qaçaraq yox, sakit və inamla keçirdilər.

Zəhra düşündü: “İndi heç bir uşaq məktəbə gedəndə qorxmayacaq. Deməli, yaşamaq hüququ həm də təhlükəsiz mühitdə yaşamaq deməkdir”.

***2-ci dərsdən nələri öyrəndik?***

- Hər bir insanın yaşamaq hüququ var .
- Yaşamaq hüququ yalnız mövcud olmaq deyil, həm də təhlükəsiz mühitdə böyümək deməkdir.
- Bu hüququ qorumaq üçün lazımi tədbirlər görmək dövlətin borcudur.
- Uşaqlar da qaydalara əməl etməklə öz təhlükəsizliklərini qorumalıdırlar.

### TAPŞIRIQ

***2.1. Zəhra müəlliminə məlumat verməklə hansı davranışı göstərdi?***

A) Qorxaqlıq.
B) Məsuliyyətlilik.
C) Etinasızlıq.
D) Səbrsizlik.

***2.2. Yaşamaq hüququ nə deməkdir?***

A) Hər bir insanın, o cümlədən uşaqların həyatının qorunması və təhlükəsiz şəraitdə yaşaması hüququdur.
B) İstədiyin qədər yatmaq hüququdur.
C) Yalnız böyüklərə aid bir hüquqdur.
D) İstədiyin yerdə yaşayış yeri seçmək hüququdur.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Zəhranın gördüyü təhlükəni başqaları da görürdü, amma niyə məhz o, bunu müəllimə deməyi lazım bildi? Səncə, bu davranış niyə vacibdir?
2. Əgər Zəhra susub heç kimə deməsəydi, nə baş verə bilərdi? Bu vəziyyətin gələcəkdə doğura biləcəyi təhlükələri izah et.
3. "Dövlət təhlükəsiz şərait yaratmağa borcludur" ifadəsinin mənasını hekayəyə əsaslanaraq necə izah edərdin? Başqa hansı nümunələri göstərə bilərsən?
4. Zəhranın yaşadığı sevincin səbəbi təkcə öz təhlükəsizliyi ilə bağlı idi, yoxsa başqa səbəbi də var idi? Sən necə düşünürsən?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sənin məktəb yolunda da təhlükəsiz keçid üçün yer yoxdur, amma heç kim buna fikir vermir. Sən nə edərdin? Bu problemi kimə və necə çatdırardın?

## 3-cü dərs

## Fidanın seçimi

Fidan rəsm dərsini çox sevirdi. Bir gün sinif yoldaşı Tahirə ona əlində tutduğu portreti göstərərək dedi:

- Sən mənim üçün bu rəsmi çəkməlisən.
- Mən indi başqa rəsm üzərində işləyirəm, - Fidan cavab verdi.
- Yox, istəsən də, istəməsən də çəkəcəksən! - sinif yoldaşı Fidanı itələyərək təkid etdi.

Fidan əvvəlcə çaşdı, amma sonra cəsarətlə cavab verdi:

- Mənim öz seçimim var. Mən rəsm çəkməyi sevirəm, amma heç kim məni məcbur edə bilməz.

Bu söhbəti müəllim eşitdi və dərhal müdaxilə etdi:



- Uşaqlar, Konstitusiyamıza görə, hər birinizin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Bu o deməkdir ki, heç kəs sizi istəmədiyiniz işə məcbur edə bilməz. Hər kəsin fikrinə, şəxsi toxunulmazlığına hörmət olunmalıdır. Tahirə, sənin davranışın yanlışdır.

Tahirə öz hərəkətindən utanaraq başını aşağı saldı.

Sonra müəllim əlavə etdi:

- Əgər kimsə sizə zor tətbiq etsə və ya sizi istəmədiyiniz işə məcbur etsə, dərhal bizə və ya valideynlərinizə məlumat verməlisiniz.

Fidan özünü rahat hiss etdi. O anladı ki, azadlıq və şəxsi toxunulmazlıq hüququna hər kəsin hörmətlə yanaşmasını tələb etmək onun haqqıdır. Tahirə isə anladı ki, başqalarına hörmətlə yanaşmalı, kimisə onun istəmədiyi halda hansısa işə məcbur etməməlidir.

***3-cü dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.
- Heç kəs uşağı istəmədiyi işə məcbur edə bilməz.
- Başqalarının azadlıq və şəxsi toxunulmazlıq hüququna hörmət etmək vacibdir.

**TAPŞIRIQ**

***3.1. Müəllimin izahından sonra Tahirə nəyi anladı?***

A) Öz istəyini zorla yerinə yetirmək olar.
B) Müəllimə heç nə deməməli idi.
C) Rəsm çəkmək düzgün deyil.
D) Başqasının seçiminə hörmətlə yanaşmaq lazımdır.

***3.2. Bu hüquqlardan hansı uşağın əsas hüquqlarından biri hesab olunur?***

A) Azadlıq və şəxsi toxunulmazlıq hüququ.
B) Həmişə oyun oynamaq hüququ.
C) İstədiyi zaman dərsə getməmək hüququ.
D) Müəllimlərə qulaq asmamaq hüququ.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Tahirənin Fidanı məcbur etməsi onun hansı hüququnu pozurdu? Səncə, niyə birini istəmədiyi işə zorla məcbur etmək düzgün deyil?
2. Fidan əvvəl çaşsa da, sonra cəsarətlə öz hüququnu müdafiə etdi. Onun bu davranışı sənə nə öyrədir?
3. Müəllimin müdaxiləsi situasiyanı necə dəyişdirdi? Əgər müəllim eşitməsəydi, hadisələr necə inkişaf edə bilərdi?
4. Səncə, Tahirənin öz hərəkətinə görə utanması nəyi göstərir? İnsan davranışını dəyişə bilərmi?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sinif yoldaşın səni də istəmədiyin bir işi görməyə məcbur etmək istəyir. Sən necə reaksiya verərdin? Kimə müraciət edərdin və niyə?

## 4-cü dərs

## Ləmanın üzgüçülük dərsi

Ləman dostları ilə üzgüçülük dərnəyinə yazılmışdı. Bir gün onlar dərnəyə gəldikdə hovuzun bağlı olduğunu gördülər. Müəllimə yaxınlaşıb hovuzun niyə bağlı olduğunu soruşdular. Müəllim dedi:

- Uşaqlar, bu gün hovuzda təmizlik işləri aparılır. Hovuz xüsusi dərmanla yuyulduqdan sonra suyu dəyişdiriləcək və siz tam təhlükəsiz şəraitdə üzməyə davam edəcəksiniz. Bir qədər səbrli olmanızı xahiş edirəm. Sizin hər birinizin həyat və sağlamlığınızın mühafizə olunması hüququ var. Bu o deməkdir ki, dövlət sizin təhlükəsiz yaşamağınız, təmiz su içməyiniz, sağlam yeməklə qidalanmağınız və təmiz havada böyüməyiniz üçün tədbirlər görür.

Ləman maraqla soruşdu:

- Müəllim, bəs biz öz sağlamlığımız üçün nə edə bilərik?

Müəllim cavab verdi:

- Siz də öz növbənizdə qaydalara əməl etməlisiniz. Məsələn, ətrafa zibil atmamaq, sağlam yeməkləri seçmək, idmanla məşğul olmaq və təmiz su içmək vacibdir.

Axşam evdə Ləman anasından soruşdu:

- Ana, görürəm ki, parkda yeni ağaclar əkilib. Bu da bizim sağlamlığımız üçündürmü?




Anası gülümsəyərək cavab verdi:

- Bəli, qızım. Dövlət ekoloji təhlükəsizliyi təmin etmək üçün ağaclar əkir, parklar salır, əhalni içməli təmiz su ilə təmin edir. Bütün bunlar sizin sağlam və xoşbəxt böyüməyiniz üçündür.

Ləman başa düşdü ki, həyat və sağlamlığın qorunması hüququ təkcə həkimə getmək deyil, həm də təhlükəsiz, təmiz və sağlam mühitdə yaşamaq deməkdir.

***4-cü dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın həyat və sağlamlığının qorunması hüququ vardır.
- Dövlət uşaqlar üçün təmiz su, sağlam yemək, ekoloji təhlükəsizlik və tibbi xidmət təmin edir.
- Uşaqlar da öz növbəsində sağlam həyat tərzi seçməli və ətraf mühiti qorumalıdırlar.
- Sağlamlıq həm ailənin, həm dövlətin, həm də uşağın öz məsuliyyətidir.

## TAPŞIRIQ

***4.1. Sağlamlığın mühafizəsi hüququna aşağıdakılardan hansı daxil deyil?***

A) Təmiz havada yaşamaq.
B) Keyfiyyətli qidalanmaq.
C) Təhlükəli oyun oynamaq.
D) Təmiz su içmək.

***4.2. "Sağlam yaşamaq üçün hər kəs məsuliyyət daşıyır" fikri nəyi ifadə edir?***

A) Hər kəs öz sağlamlığına diqqət etməlidir.
B) Yalnız müəllimlər məsuliyyət daşıyır.
C) Məsuliyyət yalnız dövlətə aiddir.
D) Uşaqların heç bir məsuliyyəti yoxdur.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Müəllim hovuzun bağlı olduğunu izah edərkən hansı hüquqdan danışdı? Səncə, bu hüquq niyə bu qədər vacibdir?
2. Hovuzda təmizlik işlərinin aparılması uşaqların sağlamlığı ilə necə əlaqəlidir? Burada dövlətin rolu nədən ibarətdir?
3. Ləmanın anasının dediyi kimi, parkda ağacların əkilməsi sağlam həyat hüququ ilə necə bağlıdır? Bu cür tədbirlər bizə nə qazandırır?
4. Sağlam və təhlükəsiz mühitdə yaşamaq üçün uşaqların üzərinə hansı məsuliyyətlər düşür? Hekayədə hansı nümunələr çəkilib?
5. Ləman bu hadisədən sonra nə öyrəndi? Səncə, o, daha çox nəyə diqqət etməyə başladı?

## SİTUATİV SUAL

Təsəvvür et ki, məktəbin yaxınlığındakı parka yenicə ağaclar əkilib, amma bəzi uşaqlar ağaclara zərər vurur, torpağa zibil atır. Sən bu vəziyyətdə nə edərdin? Səncə, hansı davranış sağlamlıq hüququna hörmət göstərməyin nümunəsidir?

## 5-ci dərs

# Rəvanın söz azadlığı

Beşinci sinif şagirdlərinə "Mənim arzularım" mövzusunda inşa yazmaq tapşırılmışdı. Rəvan inşaya bu cümlə ilə başladı:

- Mən böyüyəndə mühəndis olmaq istəyirəm və insanlara faydalı ixtiralar etmək arzusundayam.

Növbəti gün müəllim şagirdlərin yazdıqlarını oxudu. Bəziləri həkim, bəziləri müəllim olmaq istəyirdi. Amma Rəvanın dostlarından biri zarafatla dedi:

- Bu nə arzudur ki? Məncə, sən başqa bir şey yazmalı idin.

Rəvanın bu zarafatdan bir qədər pərt olduğunu görən müəllim gülümsəyərək izah etdi:

- Uşaqlar, hər birinizin fikir və söz azadlığı var. Hər kəs öz arzusunu, düşüncəsini sərbəst şəkildə ifadə edə bilər. Heç kim başqasının fikrinə görə onu məsxərəyə qoya bilməz.



Sonra müəllim əlavə etdi:

- Eyni zamanda sizin vicdan azadlığınız da var. Konstitusiyaya görə, hər kəsin hər hansı dinə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Yəni hər kəs öz inancına hörmət edilməsini tələb edə bilər. Amma uşaqların səhhətinə zərərli təsir göstərən dini ayinlərə və ya ziyanlı hərəkətlərə cəlb edilməsi qadağandır.

Rəvan sevinclə dedi:

- Deməli, mən öz fikrimi sərbəst deyə bilərəm və buna görə məni heç kim incidə bilməz.

Müəllim başı ilə təsdiqlədi:

- Bəli, Rəvan. Sizin vicdan, fikir və söz azadlığınız var. Əsas odur ki, bu azadlıqdan başqasına zərər vermədən istifadə edəsiniz.

***5-ci dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın vicdan, fikir və söz azadlığı var.
- Uşaqlar öz arzularını, düşüncələrini sərbəst ifadə edə bilərlər.
- Heç kim uşağın fikrinə görə onu incitməməlidir.
- Hər kəsin hər hansı dinə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.
- Uşaqların sağlamlığına zərər verən dini və ya digər fəaliyyətlərə cəlb olunması qadağandır.

**TAPŞIRIQ**

***5.1. Fikir və söz azadlığı nə deməkdir?***

A) Uşaqlar yalnız müəllimin dediyini yaza bilər.
B) Uşaqlar başqalarının fikirlərinə gülməlidirlər.
C) Uşaqlar öz arzularını və düşüncələrini sərbəst ifadə edə bilərlər.
D) Uşaqlar yalnız evdə danışa bilərlər.

***5.2. Vicdan azadlığı nəyi ifadə edir?***

A) Özünü istədiyi kimi adlandırmaq hüququnu.
B) Heç vaxt məktəbə getməmək hüququnu.
C) İstədiyi qədər oyun oynamaq hüququnu.
D) Hər kəsin hər hansı dinə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək hüququnu.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Rəvanın arzusu ilə bağlı edilən zarafat nəyə görə düzgün deyildi? Belə münasibət insanlarda hansı hisslər yarada bilər?
2. Müəllim "hər kəsin fikir və söz azadlığı var" deyəndə nəyi nəzərdə tuturdu? Bu hüququn məktəb həyatında tətbiqinə misal gətir.
3. Vicdan azadlığı nə deməkdir? Müəllimin verdiyi izahla yanaşı, bunu öz sözlərinlə necə izah edərdin?
4. Səncə, niyə başqasının fikrinə gülmək və ya onu aşağılamaq hüquqları pozan davranış sayılır? Bunun nəticələri nə ola bilər?
5. "Azadlıqdan başqasına zərər vermədən istifadə etmək" ifadəsini necə başa düşürsən? Bu cümlədəki əsas fikir nədir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sinif yoldaşlarından kimsə gələcəkdə çox qeyri-adi bir peşə seçmək istədiyini deyir (məsələn, kosmosda kənd təsərrüfatı imkanlarını araşdıran mütəxəssis olmaq). Bəzi uşaqlar ona gülür. Sən bu vəziyyətdə nə edərdin və niyə məhz o cür davranardın?

## 6-cı dərs

## Ayanın təqdimatı

Ayan məktəbdə elm klubuna qoşulmuşdu. Klubun rəhbəri uşaqlara maraqlı bir tapşırıq verdi:

- Uşaqlar, gələn həftəyə qədər "Yer kürəsinin qorunması" mövzusunda kiçik təqdimat hazırlayın.

Ayan bu mövzunu çox sevdi və evə qayıdan kimi internetdən, kitabxanadan və müəllimlərindən məlumat toplamağa başladı. Anası ona kömək edərək dedi:

- Afərin, qızım! Sən bu tapşırığa həvəslə yanaşırsan. Qanunla hər bir uşağın əqli və fiziki inkişafı üçün lazım olan məlumatı axtarmaq, əldə etmək və yaymaq hüququ var.

Ayan maraqla soruşdu:

- Deməli, mən kitabxanadan kitab götürməkdə, müəllimlərdən soruşmaqda və internetdən məlumat toplamaqda düz etmişəm?

Anası gülümsəyərək cavab verdi:



- Bəli, amma əsas odur ki, etibarlı mənbələrdən istifadə edəsən və düzgün məlumatı öyrənəsən.

Bir həftə sonra Ayan topladığı məlumatlarla dostlarının qarşısında təqdimat etdi. O, həm kitabxanadan, həm internetdən, həm də müəllimlərindən öyrəndiklərini birləşdirmişdi. Uşaqlar heyranlıqla qulaq asdılar və müəllim dedi:

- Afərin, Ayan! Sən öz hüququndan düzgün istifadə etdin. Bu, sənə həm öyrənməkdə, həm də bacarıqlarını inkişaf etdirməkdə kömək etdi.

Ayan sevinərək düşündü:

- Mənim məlumat əldə etmək hüququm var və bundan düzgün istifadə etsəm, həm özüm, həm də başqaları faydalana bilər.

***6-cı dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın məlumat axtarmaq, əldə etmək və yaymaq hüququ vardır.
- Bu hüquq uşağın əqli və fiziki inkişafına kömək edir.
- Məlumat etibarlı mənbələrdən alınmalı və düzgün istifadə olunmalıdır.
- Uşaqlar öz biliklərini başqaları ilə bölüşərək cəmiyyətə fayda verə bilərlər.

TAPŞIRIQ

***6.1. Ayan tapşırığı yerinə yetirmək üçün haradan məlumat topladı?***

A) Yalnız internetdən.
B) Yalnız kitabxanadan.
C) İnternetdən, kitabxanadan və müəllimlərindən.
D) Yalnız dostlarından.

***6.2. Ayanın topladığı məlumatlar nəyə xidmət edirdi?***

A) Yalnız qiymət almağa.
B) Onun bilik və bacarıqlarını artırmağa.
C) Vaxt keçirməyə.
D) Dostları ilə müzakirə etməyə.

***6.3. Hər bir uşağın məlumat əldə etmək hüququ nəyi nəzərdə tutur?***

A) Yalnız oyun oynamaq üçün məlumat toplamağı.
B) Yalnız televizora baxmağı.
C) İnternetdə istənilən məlumatı sorğusuz paylaşmağı.
D) Ona lazım olan məlumatı axtarmaq, əldə etmək və yaymağı.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Ayanın anasının "etibarlı mənbələrdən istifadə etmək lazımdır" deməsi səncə nəyi ifadə edir? Niyə bütün məlumatlar doğru olmaya bilər?

2. Əgər Ayan yalnız internetdən məlumat toplasaydı, təqdimatı eyni dərəcədə faydalı olardımı? Niyə bir mövzunu öyrənərkən bir neçə mənbəyə müraciət etmək daha yaxşıdır?

3. Ayanın topladığı məlumatı dostları ilə bölüşməsinin əhəmiyyəti nədir?

4. Məlumat əldə etmək hüququnun pozulması uşaqların inkişafına necə təsir edə bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də təqdimat hazırlayırsan və internetdə mövzu barədə çox sayda müxtəlif məlumatlar var, onların bəziləri doğru, bəziləri isə səhvdir. Sən məlumatın düzgünlüyünü necə yoxlayardın? Kimdən və ya haradan dəstək alardın?

## 7-ci dərs

## Elvinin seçimi

Elvin dərslərini yaxşı oxuyur, amma boş vaxtlarında da müxtəlif fəaliyyətlərlə maraqlanırdı, lakin heç bir dərnəyin üzvü deyildi. Bir gün məktəbdə İbrahim müəllim uşaqlara dedi:

- Uşaqlar, hər birinizin istirahət və asudə vaxt hüququ var. Bu o deməkdir ki, dərslərdən sonra siz maraqlarınıza uyğun fəaliyyətlə məşğul ola bilərsiniz. Siz boş vaxtlarınızı necə keçirirsiniz?

Elvinin dostları müxtəlif fikirlər söylədilər:

- Mən futbol oynamağı sevirəm!
- Mən isə rəsm dərnəyinə gedirəm.
- Mən də musiqi ilə məşğul oluram...

Elvin dərsdən evə qayıtdıqdan sonra valideynlərinə dedi:

- Mən gitarada ifa etməyi öyrənmək istəyirəm.

Atası gülümsəyərək cavab verdi:

- Oğlum, sən maraqlarına uyğun məşğuliyyət seçməkdə müstəqilsən. Əsas odur ki, bu, faydalı olsun, sənin həm istirahətinə, həm də inkişafına kömək etsin.



Anası isə əlavə etdi:

- Bizim borcumuz odur ki, sənin istirahət və məşğuliyyətin zamanı mənfi təsirlərə məruz qalmağının qarşısını alaq. Ona görə də səni etibarlı musiqi kursuna yazdıracağıq.

Beləcə, Elvin həm dərslərini oxuyur, həm də gitara çalmağı öyrənirdi. O, başa düşdü ki, istirahət və asudə vaxt təkcə dincəlmək deyil, həm də sevdiyi fəaliyyətlə məşğul olmaq və özünü inkişaf etdirməkdir.

***7-ci dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın istirahət və asudə vaxt hüququ vardır.
- Uşaqlar maraqlarına və qabiliyyətlərinə uyğun məşğuliyyət seçməkdə müstəqildirlər.
- Valideynlər və dövlət orqanları uşaqları mənfi təsirlərdən qorumağa borcludurlar.
- Boş vaxtdan həm əyləncə, həm də inkişaf üçün faydalı şəkildə istifadə olunmalıdır.

TAPŞIRIQ

***7.1. Elvinin atasına görə, uşaqların asudə vaxtı necə olmalıdır?***

A) Faydalı və inkişafetdirici olmalıdır.
B) Boş və məqsədsiz olmalıdır.
C) Uşaq evdən kənara çıxmamalıdır.
D) Vaxtını oyun oynamaqla keçirməlidir.

***7.2. Hər bir uşağın istirahət və asudə vaxt hüququ nə deməkdir?***

A) Uşaqların yalnız evdə yatmaq hüququ var.
B) Uşaqlar dərsdənkənar maraqlarına uyğun məşğuliyyət seçə bilərlər.
C) Uşaqlar istirahət edə bilməzlər.
D) Uşaqlar yalnız dərs oxumalıdırlar.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səncə, istirahət və asudə vaxt hüququnun uşaqlar üçün əhəmiyyəti nədən ibarətdir?
2. Elvin uzun müddət heç bir dərnəyə getmirdi. Səncə, nə üçün sonradan gitara öyrənmək qərarına gəldi? Bu seçimin ona hansı faydaları ola bilər?
3. Səncə, asudə vaxt yalnız əylənmək üçündür, yoxsa öyrənmək və inkişaf etmək də bu vaxta daxildir? Misallarla izah et.
4. Sən öz asudə vaxtını ən faydalı şəkildə necə keçirirsən?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də dərnəklərdən birinə yazılmaq istəyirsən, amma dostların “o dərnəyə getmə, mənasızdır” deyir. Sən necə qərar verərdin? Qərar verərkən nəyə əsaslanardın: öz maraqlarına, yoxsa başqalarının fikrinə? Niyə?

## 8-ci dərs

## Yanlış davranış

Səid 13 yaşında idi. O, dərslərdə çox çalışırdı, amma bəzən tapşırıqları tam yerinə yetirə bilmirdi. Bir gün riyaziyyat dərsində müəllim Səidə sual verdi, o isə cavabı səhv dedi. Sinifdəki bir neçə uşaq gülməyə başladı:

- Sən kütsən, heç vaxt düz deyə bilmirsən! - deyə biri səsləndi.

Səid çox kədərləndi. Özünü sanki hamı qarşısında alçaldılmış kimi hiss etdi. Bu vaxt müəllim dərhal uşaqları dayandırdı:

- Dayanın! Sizin davranışınız yanlışdır. Heç kimin başqasını təhqir etməyə haqqı yoxdur. Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ var.

Müəllim davam etdi:



- Məktəbdə intizam qaydaları ədalətə əsaslanmalıdır. Burada hörmət, qarşılıqlı dəstək və tərbiyə olmalıdır. Əgər kiminsə şəxsiyyətinə toxunmaqla onu alçaldırıqsa, bu, qanuna ziddir və məsuliyyət doğurur.

Uşaqlar başlarını aşağı saldılar. Onlar üzr istədilər:

- Bağışla, Səid. Bizim etdiyimiz düzgün deyildi.

Səid də gülümsəyərək dedi:

- Mən də bundan sonra daha çox çalışacağam.

Müəllim dərsi yekunlaşdıraraq dedi:

- Hörmət və ləyaqət hər bir insan üçün vacibdir. Siz bir-birinizə hörmət etdikcə, nəinki bilikləriniz artacaq, həm də dostluğunuz güclənəcək.

***8-ci dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.
- Məktəbdə intizam qaydaları ədalət və qarşılıqlı hörmətə əsaslanmalıdır.
- Uşaqların təhqir edilməsi və alçaldılması yolverilməzdir.
- Uşaqların şərəf və ləyaqətinə qəsd edilməsi qanunvericiliklə məsuliyyətə səbəb olur.

**TAPŞIRIQ**

***8.1. Müəllim Səidə gülən uşaqlara nəyi izah etdi?***

A) Tapşırığı düzgün cavablandırmağı.
B) Heç kimin başqasını təhqir etməyə haqqının olmadığını.
C) Ev tapşırığının vacibliyini.
D) Riyaziyyat qaydalarını.

***8.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Hər bir uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ vardır. | |
| 2 | Uşaqların bir-birini məsxərəyə qoyması məktəbin intizam qaydalarına uyğundur. | |
| 3 | Uşaqların təhqir olunması və şəxsiyyətlərinin alçaldılması yolverilməzdir. | |
| 4 | Uşaqların şərəf və ləyaqətinə qəsd edilməsi qanunla məsuliyyət doğurmur. | |
| 5 | Hörmət və qarşılıqlı dəstək həm dostluğu gücləndirir, həm də biliklərin daha yaxşı mənimsənilməsinə kömək edir. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Sinif yoldaşlarının Səidə gülməsi və onu təhqir etməsi onun hansı hüququnu pozdu? Bu davranışın Səidə psixoloji təsiri necə ola bilərdi?
2. Müəllimin müdaxiləsi situasiyanı necə dəyişdi? Əgər müəllim buna reaksiya verməsəydi, nə baş verə bilərdi?
3. "Hər bir uşağın şərəf və ləyaqətini qorumaq hüququ var" cümləsini öz sözlərinlə necə izah edərdin? Bu hüquq gündəlik həyatda necə qorunmalıdır?
4. Səidin səhv cavab verməsi onun təhqir olunmasına haqq qazandırırmı?
5. Hadisədən sonra uşaqlar niyə üzr istədilər? İnsan səhv etdikdə üzr istəməyin əhəmiyyəti nədir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sinifdə başqa bir uşaq da Səid kimi səhv cavab verir və bəziləri yenə ona gülür. Bu zaman sən orada olsaydın, nə edərdin? Müdaxilə edərdinmi? Niyə?

## 9-cu dərs

# Muradın evi

Murad 10 yaşında idi. O, valideynləri, bacısı və nənəsi ilə birlikdə bir mənzildə yaşayırdı. Evin hər küncü ona əziz idi - otağında kitabları, bacısı ilə paylaşdığı oyuncaq qutusu və nənəsinin hazırladığı şirniyyatın qoxusu evini daha da sevimli edirdi.

Bir gün dostu ona dedi:

- Murad, ev sizin valideynlərinizindir, sən sadəcə qonaqsan.

Murad bir anlıq düşündü və evdə özünü yad hiss etdi. Axşam bu sözü anasına danışdı. Anası gülümsəyərək izah etdi:

- Oğlum, sən heç də qonaq deyilsən. Hər bir uşağın mənzil hüququ var. Bu o deməkdir ki, sən yaşadığımız evdə bizimlə bərabər hüquqlara maliksən. Mənzil yalnız böyüklərin deyil, uşaqların da evidir.



Atası da əlavə etdi:

- Qanuna görə, uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları tanınır. Yəni bu ev həm də sənin evindir, burada sənin də söz haqqın var.

Murad sevincək dedi:

- Deməli, mən də öz evimdə yaşayıram və bu, mənim də haqqımdır!

Həmin gündən Murad başa düşdü ki, ev sadəcə divarlar və otaqlardan ibarət deyil, həm də onun hüquqlarının qorunduğu bir yerdir.

***9-cu dərsdən nələri öyrəndik?***

- Hər bir uşağın mənzil hüququ vardır.
- Uşaqlar yaşadıqları mənzildə ailənin digər üzvləri ilə bərabər hüquqlara malikdirlər.
- Ev yalnız böyüklərin deyil, uşaqların da evidir.
- Mənzil hüququ uşağın təhlükəsiz və xoşbəxt mühitdə böyüməsini təmin edir.

**TAPŞIRIQ**

***9.1. Hekayənin əsas ideyası nədir?***

A) Uşaqlar evdə böyüklərə tabe olmalıdırlar.
B) Hər bir uşağın mənzil hüququ var.
C) Ev yalnız valideynlərə aiddir.
D) Uşaqlar evdə qərar verməməlidirlər.

***9.2. Hər bir uşağın mənzil hüququ nə deməkdir?***

A) Uşaqlar evdə yalnız qonaq kimi qala bilərlər.
B) Mənzil yalnız valideynlərə aiddir.
C) Uşaqlar evdə yalnız oyuncaqlarına sahib ola bilərlər.
D) Uşaqlar yaşadıqları evdə ailə üzvləri ilə bərabər hüquqlara malikdirlər.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Murad niyə dostunun "sən sadəcə qonaqsan" sözündən sonra özünü yad hiss etdi? Bu cümlə onun emosiyalarına necə təsir edə bilərdi?
2. Muradın anasının "sənin də mənzil hüququn var" deməsi nəyi izah edir? Bu hüququn uşaqlar üçün əhəmiyyəti nədir?
3. Muradın valideynlərinin cavabı olmasaydı, o, öz evinə dair hansı yanlış fikirləri düşünməyə davam edə bilərdi? Bu, onun özgüvəninə necə təsir edərdi?
4. "Ev sadəcə divarlar və otaqlardan ibarət deyil, həm də hüquqların qorunduğu yerdir" fikrini öz sözlərinlə izah et. Səncə, bu cümlə ev anlayışına hansı mənanı verir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sənin də dostun eyni sözləri deyir: "Sən evdə sadəcə qonaqsan, həqiqi sahiblər böyüklərdir." Sən bu zaman ona nə cavab verərdin? Öz hüququnu necə izah edərdin?

## 10-cu dərs

## Elgizin vergi dərsi

Elgiz 16 yaşında idi. Yay tətilində öz cib xərcliyini qazanmaq üçün yaxınlıqdakı kitab mağazasında işləməyə başladı. O, kitabları rəflərə düzür, müştərilərə kömək edirdi. İlk əməkhaqqısını alanda çox sevinmişdi. Evə gələn kimi anasına göstərdi:

- Ana, bax, mən artıq öz pulumu qazanıram!

Anası gülümsəyərək dedi:

- Təbrik edirəm, oğlum. Amma bil ki, qazanılan pulun bir hissəsi vergiyə gedir.

Elgiz təəccübləndi:

- Mən də vergi ödəməliyəm? Mən hələ uşaq deyiləmmi?

Atası izah etdi:

- Qanuna görə, işləyən hər kəs, hətta uşaq da olsa, vergiləri ödəməlidir. Onların hesabına məktəblər tikilir, yollar salınır, xəstəxanalar fəaliyyət göstərir. Yəni sənin verdiyin vergidən həm özün, həm də dostların fayda görürsünüz.



Bir neçə gün sonra mağazanın müdiri Elgizə maaş vərəqəsini göstərdi. Orada əməkhaqqından kiçik bir məbləğin vergi kimi tutulduğu yazılmışdı. Müdir mehribanlıqla izah etdi:

- Bu vergilər hesabına dövlət kitabxanaları və məktəblər də dəstəklənir. Sən də bu işin bir parçasısan.

Elgiz başını tərpədərək təsdiqlədi:

- Deməli, mənim vergim də başqalarının təhsilinə, sağlamlığına kömək edir. Mən buna görə fəxr edirəm.

Həmin gündən Elgiz anladı ki, vergi ödəmək sadəcə bir vəzifə deyil, həm də cəmiyyət qarşısında məsuliyyətdir.

***10-cu dərsdən nələri öyrəndik?***

• Qanuna görə işləyən hər bir şəxs vergiləri ödəməlidir.
• Vergilər dövlətin əsas gəlir mənbəyidir.
• Dövlət vergilər hesabına məktəblər, xəstəxanalar, yollar tikir və digər xidmətləri təmin edir.
• Vergi ödəmək yalnız borc deyil, həm də cəmiyyət qarşısında məsuliyyətdir.

TAPŞIRIQ

***10.1. Hekayənin əsas ideyası nədir?***

A) Uşaqlar işləməməlidirlər.
B) Vergi ödəmək həm vəzifə, həm də məsuliyyətdir.
C) Vergiləri ödəmək yalnız dövlət qulluqçularının vəzifəsidir.
D) Pul xərcləmək əyləncəlidir.

***10.2. Vergilərin əsas əhəmiyyəti nədən ibarətdir?***

A) Yalnız dövlət məmurlarına maaş vermək üçündür.
B) Uşaqların cib xərcliyini azaltmaq üçündür.
C) İnsanların istədiyi qədər pul qazanmasının qarşısını almaq üçündür.
D) Məktəblərin, xəstəxanaların tikilməsinə, yolların çəkilməsinə və digər ictimai xidmətlərin təmin olunmasına sərf olunur.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Elgiz vergi ödəməli olduğunu eşidəndə niyə təəccübləndi? Onun “mən hələ uşaq deyiləmmi?” sualı hansı yanlış düşüncəni göstərirdi?
2. Atasının “vergilər hesabına məktəblər, yollar, xəstəxanalar tikilir” deməsi nəyi izah edir? Vergi niyə təkcə pul ödəmək deyil, həm də cəmiyyətə töhfə verməkdir?
3. Səncə, Elgizin vergiyə münasibəti necə dəyişdi? Bu dəyişiklik nəyin nəticəsi idi?
4. Vergi ödəməkdən yayınmaq cəmiyyətə necə zərər verə bilər? Bir neçə nümunə gətir.
5. Hekayədə “vergi həm borc, həm də məsuliyyətdir” deyilir. Səncə, bu cümlənin mənası nədir?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostlarından biri sənə deyir: “mən böyüyəndə vergi ödəmək istəmirəm, çünki öz pulumun hamısını özüm xərcləmək istəyirəm.” Sən ona nə cavab verərdin? Verginin cəmiyyət üçün faydasını necə izah edərdin?

## 11-ci dərs

## Çinarənin etirazı

Müəllim tarix dərsini daha maraqlı etmək üçün şagirdləri şəhərin qədim qala divarlarına ekskursiyaya apardı. Uşaqlar həyəcanla əllərində bloknotlar gəzib qeydlər aparırdılar.

Bəzi şagirdlər divarın üzərinə adlarını yazmaq istədilər. Onlardan biri dedi:

- Baxın, mənim adım həmişəlik burda qalacaq!

Çinarə dərhal etiraz etdi:

- Xeyr! Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur. Əgər onları korlasaq, gələcək nəsillər bizim tariximizi necə tanıyacaq?

Müəllim də bunu təsdiqlədi:

- Çinarə çox düzgün dedi. Abidələr bizim milli sərvətimizdir. Onların qorunması yalnız dövlətin yox, hər birimizin borcudur. Əgər kimsə abidələrə zərər yetirsə, qanuna görə məsuliyyət daşıyacaq.

Uşaqlar başa düşdülər ki, tarix yalnız dərsliklərdə deyil, ətraflarında da yaşayır, tarixi abidələri qorumaq onların da vəzifəsidir.



***11-ci dərsdən nələri öyrəndik?***

- Tarix və mədəniyyət abidələri milli sərvətimizdir.
- Onların qorunması yalnız dövlətin deyil, hər bir şəxsin borcudur.
- Abidələrə zərər vurmaq qanunla məsuliyyət doğurur.
- Abidələri qorumaq gələcək nəsillərə tariximizi ötürmək deməkdir.

TAPŞIRIQ

***11.1. Şagirdlər divarın üzərinə adlarını yazmaq istədikdə Çinarə niyə etiraz etdi?***

A) Çünki o, yazı yazmağı sevmirdi.
B) Çünki tarix və mədəniyyət abidələrini qorumaq vacibdir.
C) Çünki müəllim ona tapşırmışdı.
D) Çünki qorxdu.

***11.2. Müəllim uşaqlara nəyi xatırlatdı?***

A) Abidələr dövlətin mülkiyyətidir, bizə aid deyil.
B) Divarlara yazmaq olar.
C) Abidələrə zərər vurmaq qanuna görə məsuliyyət yaradır.
D) Tarix keçmişdə qalır.

***11.3. Tarix və mədəniyyət abidələrini qorumaq kimin borcudur?***

A) Yalnız dövlətin.
B) Yalnız müəllimlərin.
C) Hər bir şəxsin.
D) Yalnız tarixçilərin.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Bəzi uşaqların qala divarına adlarını yazmaq istəməsi niyə doğru davranış deyildi? Bu hərəkət tarixi hansı cəhətdən zədələyə bilərdi?
2. Çinarənin davranışı hansı dəyəri təmsil edir?
3. Müəllim “abidələr milli sərvətdir” deyəndə nəyi nəzərdə tuturdu? Səncə, niyə bu sərvəti qorumaq yalnız dövlətin deyil, həm də vətəndaşların məsuliyyətidir?
4. Tarixi abidələr korlansa, gələcək nəsillər nə itirə bilər?
5. Çinarənin “böyüyəndə də tariximizi qoruyacağam” sözlərini necə qiymətləndirirsən? Bu düşüncə cəmiyyət üçün niyə dəyərlidir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də tarixi bir yerdəsən və bir qrup insan abidəni cızır, sındırır və ya üzərinə yazılar yazır. Sən nə edərdin? Sadəcə baxıb susardın, yoxsa müdaxilə edərdin? Niyə?

## 12-ci dərs

## "Vətənpərvərlik həftəsi"

Məktəbdə "Vətənpərvərlik həftəsi" keçirilirdi. Hər zaman olduğu kimi dövlət himni oxunurdu. Himn səslənəndə bəzi uşaqlar diqqətsiz davranaraq söhbət edirdilər. Əli isə dərhal irəli çıxaraq dedi:

- Dostlar, belə olmaz. Bayrağımız və himnimiz bizim dövlətimizin rəmzləridir. Biz onlara hörmət etməliyik.

Müəllim də Əlini dəstəkləyərək əlavə etdi:

- Tamamilə doğrudur. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bu, təkcə qanunun tələbi deyil, həm də vətəndaşlıq borcumuzdur.

Uşaqlar başa düşdülər ki, bayrağa, gerbə və himnə hörmət etmək sadəcə mərasim qaydası deyil, həm də dövlətə, xalqa və öz kimliklərinə hörmət deməkdir.

O gündən sonra himn səslənəndə uşaqlar düz dayanır, bayrağa baxaraq iftixar hissi keçirirdilər. Əli öz həmyaşıdlarına örnək oldu və onlarda dövlət rəmzlərinə hörmət daha da gücləndi.



***12-ci dərsdən nələri öyrəndik?***

• Bayraq, gerb və himn - dövlət rəmzləridir.
• Hər bir vətəndaş bu rəmzlərə hörmət etməlidir.
• Dövlət rəmzlərinə hörmət etmək həm qanunun tələbi, həm də vətəndaşlıq borcudur.
• Hörmət nümunəvi davranışla - düz dayanmaq, diqqət göstərmək və məsuliyyət hissi ilə özünü göstərir.

TAPŞIRIQ

***12.1. Dövlətin rəmzləri hansılardır?***

A) Pul, məktəb, stadion.
B) Bayraq, gerb, himn.
C) Məktəb, xəstəxana, yol.
D) Qanun, konstitusiya, məhkəmə.

***12.2. Dövlət rəmzlərinə hörmət etmək kimin vəzifəsidir?***

A) Hər bir vətəndaşın.
B) Yalnız şagirdlərin.
C) Yalnız vəzifəli şəxslərin.
D) Yalnız vəzifəli şəxslərin və müəllimlərin.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Bəzi uşaqlar himn oxunarkən niyə diqqətsiz davrandılar? Bu davranış dövlət rəmzlərinə münasibətdə hansı səhvi göstərir?
2. Əlinin müdaxiləsi nəyə görə vacib idi? Onun davranışı sinif yoldaşlarına nə öyrətdi?
3. Müəllim "bu yalnız qanunun tələbi deyil, vətəndaşlıq borcudur" deyəndə nəyi nəzərdə tuturdu? Bu ifadəni öz sözlərinlə izah et.
4. Dövlət rəmzlərinə hörmət etmək niyə təkcə mərasim qaydası deyil? Bu hörmət insanın öz kimliyinə münasibətinə necə təsir edir?
5. Hekayədən sonra uşaqların davranışı dəyişdi. Səncə, bu dəyişiklik təkcə qorxuya görə idi, yoxsa dövlət rəmzlərinə hörmət etməyin vacibliyini dərk etməklə baş verdi?

SİTUATİV SUAL

Təsəvvür et ki, başqa bir tədbirdə yenə himn səslənir və bəziləri laqeyd davranır. Sən bu halda nə edərdin? Əli kimi reaksiya verərdinmi? Niyə?

## 13-cü dərs

## Tural və küçəyə atılan kağız



Tural dostları ilə dondurma yeyib gəzirdi. O, dondurmanın kağızını küçəyə atdı və yoluna davam etdi. Yaxınlıqda çalışan sahə müvəkkili bunu gördü və ona yaxınlaşdı:

- Oğlum, küçəni çirkləndirmək olmaz. Bu, qayda pozuntusudur və qanuna görə məsuliyyət yaradır. Çünki təmizlik yalnız evdə deyil, küçədə də vacibdir.

Tural bir anlıq çaşdı:

- Məncə, bir kiçik kağızdan heç nə olmaz...

Sahə müvəkkili gülümsəyərək dedi:

- Əgər hamı belə fikirləşsəydi, küçələrimiz zibilliyə dönərdi. Belə hallara görə cərimə də tətbiq olunur. Amma ən əsası, sən başa düşməlisən ki, ətraf mühitin qorunması hamının borcudur.

Tural utanaraq kağızı qaldırdı və zibil qabına atdı. Sonra dostlarına dedi:

- Doğrudan da, təmizlik bizim hamımızın borcudur. Mən bir daha belə etməyəcəyəm.

***13-cü dərsdən nələri öyrəndik?***

• Ətraf mühitin qorunması hər bir insanın borcudur.
• Küçəni və ictimai yerləri çirkləndirmək məsuliyyət yaradır.
• Kiçik bir zibil belə, böyük çirklənməyə səbəb ola bilər.
• Qaydalara əməl etməklə şəhərimizi və kəndimizi daha təmiz saxlaya bilərik.
• Təmizlik mədəniyyəti cəmiyyətin ümumi mədəniyyətinin göstəricilərindən biridir.

**TAPŞIRIQ**

***13.1. Ətraf mühiti qorumaq kimin borcudur?***

A) Yalnız böyüklərin.
B) Yalnız məktəblərin.
C) Yalnız dövlət qurumlarının.
D) Hamının, o cümlədən uşaqların.

***13.2. Küçəyə zibil atmaq necə qiymətləndirilir?***

A) Oyunun bir hissəsi kimi.
B) Qayda pozuntusu və məsuliyyət yaradan hərəkət kimi.
C) Əhəmiyyətsiz bir iş kimi.
D) Dostlarla zarafat kimi.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Turalın “bir kiçik kağızdan heç nə olmaz” deməsi hansı səhv düşüncəni göstərir? Bu yanaşma cəmiyyətdə geniş yayılsa, nə baş verər?
2. Sahə müvəkkilinin davranışı təkcə qanunun izahı idi, yoxsa tərbiyəvi məna da daşıyırdı? Onun sözlərində hansı iki mühüm mesaj var?
3. Ətraf mühitin qorunması niyə yalnız dövlət qurumlarının deyil, hər bir vətəndaşın borcudur? Bu məsuliyyət uşaqlar üçün də keçərlidirmi?
4. Turalın davranışının dəyişməsinə nə səbəb oldu: cərimə qorxusu, yoxsa məsələni anlaması?

## SİTUATİV SUAL

Təsəvvür et ki, bir dostun küçəyə konfet kağızı atır və “nə olacaq ki” deyir. Sən bu vəziyyətdə ona nə deyərdin? Onun düşüncəsində dəyişiklik yaratmaq üçün ən təsirli söz və ya davranış nə ola bilər?

# II FƏSİL

## Yol hərəkəti qaydaları

## 14-cü dərs

## Məryəm və işıqfor

Məryəm bu gün məktəbə bir az gecikmişdi. Ayaqqabılarını tez geyindi, çantasını çiyninə atıb qapını çəkdi. Küçənin başındakı işıqfora çatanda çox düşünmədən yola addım atdı. Yaşıl işıq yanmışdı axı... Amma gözləmədiyi halda qarşısından sürətlə bir maşın keçdi.

Elə bu an bir səs eşitdi:

- Qızım, dayan! Sən əmin oldunmu ki, maşınlar dayanıb?

Məryəm diksinərək geri çəkildi. Səsin sahibi səliqəli formada olan bir yol polisi idi. Yol polisi gülümsəyərək dedi:




- Mən Kamal dayıyam. Sənin məktəbinin yaxınlığında xidmət edirəm. Səni tez-tez buradan keçən görürəm. Amma bu gün bir az tələsik davrandın, hə?

Məryəm başını aşağı saldı:

- Yaşıl yanmışdı axı...

- Bəli, yaşıl işıq "keçə bilərsən" deməkdir. Amma "heç nəyə baxmadan qaç" demək deyil.

Kamal dayı Məryəmlə yanaşı dayanıb sözünə davam etdi:

- Gəl, yoxlayaq. Əvvəl sola bax. Hərəkətdə olan avtomobil varmı?

- Bəli.

- Sonra sağa bax. Maşını görürsən?

Məryəm başı ilə təsdiqlədi. Maşın sürətlə keçib getdi.

- Bax, hüququn var ki, piyada keçidindən istifadə edəsən. Amma bu zaman ehtiyatlı davranmağı unutmamalısan.

- Mən indi keçim? - Məryəm soruşdu.

- Bu dəfə birlikdə keçək, təhlükəsizliyimiz üçün bir daha sola-sağa baxaq. Amma "Zebra"nın (piyada keçidinin) üstünə çıxaq, çünki bu bizim üçün təhlükəsizlik cizgisidir.

Onlar birlikdə keçib səkidə dayandılar.

- Sən piyada olaraq yolun şahzadəsisən, - Kamal dayı dedi, - amma şahzadə də öz tacını daşımağı bacarmalıdır.

Məryəm gülümsədi:

- Sağ olun, Kamal dayı! Bu gün bir az qorxdum, amma çox şey öyrəndim.

- Qorxu bəzən yaxşı müəllimdir. Amma bilgi daha yaxşısıdır. Yolu keçəndə diqqətli ol. Hər iki tərəfə diqqətlə bax, təhlükəsizliyinə tam əmin olduqdan sonra yolu keç.

Məryəm başı ilə "bəli" dedi. İçində qəribə bir arxayınlıq var idi. Kamal dayıdan öyrəndikləri sayəsində öz təhlükəsizliyini qazanmışdı.

***14-cü dərsdən nələri öyrəndik?***

- Yaşıl işıq keçmək üçündür, amma əvvəlcə sola-sağa baxıb, təhlükəsizliyimə tam əmin olduqdan sonra yolu keçməliyəm.
- "Zebra" piyada üçün təhlükəsiz yerdir, oradan keçməliyəm.
- Maşınlar dayanmayıbsa, keçmək olmaz. Hüquqla bərabər məsuliyyət də var.

### TAPŞIRIQ

***14.1 Piyada keçidi ("Zebra") nə üçün nəzərdə tutulub?***

A) Maşınların dayanması üçün.
B) Yalnız uşaqlar üçün ayrılıb.
C) Yol polisi üçün dayanacaq yeri kimi.
D) Piyadaların təhlükəsiz keçməsi üçün.

***14.2. Kamal dayının Məryəmə öyrətdiyi əsas qayda nə idi?***

A) Yol polisi həmişə yanında olmalıdır.
B) Yalnız maşın az olanda yolu keçmək olar.
C) Yolu keçərkən əvvəl sola, sonra sağa baxmaq lazımdır.
D) Qırmızı işıq yananda da keçmək olar.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Məryəm niyə "yaşıl işıq yandı" deyə düşünərək tələsik yola çıxmışdı? Bu davranışda hansı təhlükəli yanlışlıq var idi?
2. Yol polisinin "yaşıl işıq heç nəyə baxmadan qaç demək deyil" sözünü necə başa düşürsən? Səncə, bu cümlədən hansı nəticə çıxarılmalıdır?
3. Kamal dayının "hüququn var, amma məsuliyyətin də var" deməsi nəyi ifadə edir? Yol təhlükəsizliyi yalnız qanuna əsaslanır, yoxsa şəxsi diqqət də tələb edir?
4. Hekayədə piyada keçidi ("zebra") hansı mənada təqdim olunur? Onun "təhlükəsizlik cizgisi" adlandırılması nəyə işarə edir?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də məktəbə tələsirsən, işıqforun yaşıl işığı yanır və sən yaxınlaşan maşını görürsən. Dostların "keç, vaxt itirmə" deyirlər. Sən hansı qərarı verərdin və niyə?

## 15-ci dərs

## Fəridə və dayanacaqdakı səhv

Yay tətilinin isti günlərindən biri idi. Fəridə nənəsigilə getmək üçün şəhərdaxili avtobusa mindi. O, pəncərədən baxa-baxa kitab oxuyurdu.

Bir neçə dayanacaqdan sonra nənəsinin yaşadığı küçəyə çatdılar. Avtobusun arxa qapısından düşən kimi Fəridə qarşı tərəfə keçmək istədi. Tələskənliklə avtobusun önündən keçmək üçün bir addım atmışdı ki:

- Dayan, bala! - yaxınlıqda dayanan bir qadın onun qolundan tutdu.

- Nə oldu? Mən keçirdim axı, - Fəridə çaşqınlıqla soruşdu.

Qadın mehribanlıqla izah etdi:



- Yolu belə keçmək təhlükəlidir. Bilirsən niyə? Avtobusun önündən keçsən, maşınlar səni görməyə bilər. Bəlkə də sürətlə gələn bir avtomobil var və o, səni ya son anda görəcək, ya da heç görməyəcək. Piyada zolağı varsa, yolun hərəkət hissəsindən keçmək üçün yalnız oradan istifadə etməlisən. Zolaq yoxdursa, gözləməlisən ki, avtobus dayanacaqdan ayrılsın, o zaman həm sən yolu yaxşı görəcəksən, həm də səni görəcəklər. Bu, sənin həyatını qoruya bilər.

Fəridə başını tərpədib təşəkkür etdi. Geri çəkilib dayanacaqda gözlədi. Avtobus hərəkətə başladı, onun qarşısı açıldı və Fəridə piyada zolağını axtarmağa başladı. Az aralıda ağ zolaqlı keçid var idi. Oraya qədər getdi və əvvəl sola, sonra sağa baxaraq yolu diqqətlə keçdi.

Nənəsinin həyətinə çatanda nəfəsini dərdi. Çantasında kitab, yaddaşında isə yeni bir təhlükəsizlik dərsi vardı.

***15-ci dərsdən nələri öyrəndik?***

- Avtobusdan düşən kimi heç vaxt önündən və ya arxasından keçməməliyik. Bu, çox təhlükəlidir.
- Yolun hərəkət hissəsindən yalnız piyada keçidi (zolaq) varsa istifadə etməliyik.
- Əgər zolaq yoxdursa, avtobusun dayanacaqdan tam ayrılmasını gözləməli, sonra yolu keçməliyik.
- Yol keçərkən sola və sağa baxmaq, görünmək və görmək həyatı xilas edir.

TAPŞIRIQ

***15.1. Avtobusun ön hissəsindən keçmək niyə təhlükəlidir?***

A) Çünki orada yol nişanı yoxdur.
B) Çünki sürücülər piyadaları görməyə bilər.
C) Çünki orada piyada keçidi yoxdur.
D) Çünki avtobuslar çox böyükdür.

***15.2. Avtobusdan düşdükdən sonra etdiyin hansı hərəkət səhvdir?***

A) Yolun hərəkət hissəsindən yalnız piyada keçidi (zolaq) varsa istifadə etmək.
B) Əgər zolaq yoxdursa, avtobusun dayanacaqdan tam ayrılmasını gözləmək, sonra yolu keçmək.
C) Kitab oxuyaraq yolu keçmək.
D) Yol keçərkən sola və sağa baxmaq.

***15.3. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Avtobusdan düşən kimi yola çıxmaq olar.
B) Piyada zolağından istifadə etmək vacib deyil.
C) Təhlükəsizlik qaydalarına əməl etmək həyatı qoruyur.
D) Avtobusun önündən keçmək daha təhlükəsizdir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Fəridə avtobusdan düşən kimi tələskənliklə avtobusun önündən keçmək istədi. Onun bu davranışında hansı təhlükə gizlənirdi?
2. Qadının “avtobusun önündən keçsən, maşınlar səni görməyə bilər” sözünün arxasında hansı məntiq dayanır? Səncə, insanlar niyə bəzən yolu belə təhlükəli şəkildə keçməyə çalışırlar?
3. Hekayədə piyada zolağının (zebra) niyə vacib olduğu necə izah edilir? Sən bu fikri öz sözlərinlə necə ifadə edərdin?
4. Əgər yaxınlıqda dayanan qadın müdaxilə etməsəydi, nə ola bilərdi? Qadının Fərideni xəbərdar etməsi bizə nəyi öyrədir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də avtobusdan düşmüsən, tələsirsən və qarşıya keçmək üçün insanların əksəriyyəti avtobusun önünə istiqamətlənir. Sən necə davranardın? Özünü təhlükəyə atmamaq üçün hansı qərarı verərdin və niyə?

## 16-cı dərs

## Gülayın tələsik addımı

Bilik yarışında qalib olduğu üçün Gülaya kubok və diplom vermişdilər. Həmin gün o, çox sevincli idi.

Anası ilə məktəbdən evə qayıdarkən Gülay əlində kuboku saxlayaraq həyəcanla danışırdı. Küçənin qarşı tərəfinə keçmək üçün səkidə dayanmışdılar. Yolun o üzündə Gülayın sinif yoldaşı Sərxan əl yelləyirdi.

- Ana, bax, Sərxandır! - deyib birdən-birə yola qaçmaq istədi.

Amma anası onun qolundan tutub saxladı:

- Dayan, Gülay! Sən nə edirsən?

O anda bir avtomobil sürətlə keçdi. Gülayın sifəti bir anda ağardı.

- Ana... az qala... - deyə pıçıltıyla danışdı.

- Qızım, yolda qəfil qaçmaq olmaz, hətta yol boş görünsə belə. Avtomobil səni görməyə bilər. Dayanmaq, baxmaq, sonra keçmək lazımdır.




Gülay başını tərpədib razılaşdı.

- Həm də səkidən uzaqlaşıb yol kənarı ilə getməyin özü də təhlükəlidir, - anası əlavə etdi, - piyadalar üçün səkilər tikilib ki, biz təhlükəsiz gedək.

Sonra onlar birgə piyada keçidinə doğru getdilər. Gülay yolun hər iki tərəfinə baxdı, anası ilə əl-ələ verib keçdilər.

Sərxan gülümsədi:

- Oy, nə gözəl kubokdur!

Gülay isə cavab verdi:

- Bunu bilik yarışında qazanmışam. Heyf ki, sən gəlmədin. Amma az qala ehtiyatsız davranıb onu itirəcəkdim. Yolda qəfil qaçmaq çox təhlükəlidir.

- Doğru deyirsən. Bu, mənim üçün də dərs oldu.

***16-cı dərsdən nələri öyrəndik?***

- Yolda qəfil qaçmaq və ya dayanmaq çox təhlükəlidir, çünki sürücülər bunu öncədən görüb reaksiya verə bilməzlər.
- Yolun kənarı ilə deyil, səki ilə getmək lazımdır.
- Hətta sevincli və ya tələsik anlarda da təhlükəsizlik birinci yerdədir.

**TAPŞIRIQ**

***16.1. Gülayın anası onu niyə saxladı?***

A) Çünki işıqforun qırmızı işığı yanırdı.
B) Çünki Sərxanla danışmaq olmazdı.
C) Çünki avtomobil gəlirdi və Gülay təhlükədə idi.
D) Çünki kubok yerə düşə bilərdi.

***16.2 Anası Gülaydan nəyi yadda saxlamasını istədi?***

A) Yolun kənarı ilə getmək təhlükəlidir.
B) Səkidə dayanmaq olmaz.
C) Əl hərəkəti ilə maşınları saxlamaq olar.
D) Piyada keçidindən istifadə etmək vacib deyil.

***16.3. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| **1** | Yolda dostunu görəndə dərhal yola qaçmaq olar. | |
| **2** | Piyadalar səkidən istifadə etməlidirlər. | |
| **3** | Yolu istədiyin vaxt keçə bilərsən. | |
| **4** | Qəfil qaçmaq təhlükəli ola bilər. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Gülay niyə qəfil yola qaçmaq istədi? Onun bu ani qərarı hansı duyğularla bağlı ola bilərdi və bu duyğular bəzən insanları necə təhlükəyə atır?
2. Ananın vaxtında müdaxiləsi nəyi dəyişdi? Valideynin tövsiyəsi və müdaxiləsi uşaqların təhlükəsizliyi üçün niyə vacibdir?
3. Hekayədə səkidən uzaqlaşmağın təhlükəsi barədə nə deyildi? Səkilərin və piyada keçidlərinin olması nə üçün vacibdir?
4. Sərxanın “bu mənim üçün də dərs oldu” deməsi nəyi göstərir? Başqasının səhvindən dərs çıxarmaq niyə önəmlidir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də kubok və ya qiymətli bir əşya ilə səkidəsən və uzaqdan dostun səni çağırır, amma yolda avtomobillər çoxdur. Dostunla görüşmək üçün nə edərdin?

## 17-ci dərs

## İmranın təhlükəli oyunu

İmran yay tətilini çox sevirdi. Hər gün səhər yeməyindən sonra həyətə çıxar, dostları ilə oynayardı. Onların evi dar bir küçənin kənarında yerləşirdi. Küçənin ortasından az-az olsa da, avtomobillər keçirdi. Ancaq uşaqlar buna çox da fikir vermirdilər.

Bir gün İmranın ad günü idi. Ən sevdiyi dostları - Tunar, Rəhim və Samir də gəlmişdilər. Onlar yeni futbol topunu götürüb binanın qarşısında oynamağa başladılar. Top bir neçə dəfə yola yuvarlandı, amma uşaqlar tez götürüb oyuna davam etdilər.

Anidən top çox uzağa vuruldu və düz yolun ortasında dayandı. İmran düşünmədən topun dalınca qaçdı. Elə bu anda onlarla qonşu olan yol polisi Əkbər dayı yaxınlaşırdı. O, İmranın dalınca səsləndi:




- İmran, dayan!

İmran topu götürüb geri qayıtdı. Əkbər dayı ona yaxınlaşdı:

- Oğlum, sən top üçün öz həyatını təhlükəyə atdın. Bura oyun yeri deyil.

- Amma biz yalnız bir az oynayırdıq, - İmran dedi.

- Yolda oynamaq, topu ora-bura vurmaq çox təhlükəlidir. Sürücü səni görməyə bilər. Həm sən, həm də o, təhlükəyə düşə bilərsiniz.

Bir qədər aralıda dayanan Tunar, Rəhim və Samir də yaxınlaşdıqdan sonra Əkbər dayı uşaqlara izah etdi:

- Oyun oynamaq gözəldir, amma hər yerdə oynamaq olmaz, həyətdə, parkda və ya stadionda oynamaq lazımdır. Yol və yol kənarları isə oyun oynamaq üçün uyğun yer deyil.

Uşaqlar başlarını aşağı salıb dinlədilər. İmran utana-utana:

- Bağışlayın, Əkbər dayı. Biz bilmirdik ki, bu qədər təhlükəlidir.

Əkbər dayı gülümsədi:

- Əsas odur ki, indi bildiniz. Gəlin, mən sizə yaxınlıqdakı uşaq meydançasını göstərim. Orada rahat və təhlükəsiz oynaya bilərsiniz.

O gündən sonra İmran və dostları bir daha heç vaxt yolun kənarında oynamadılar.

***17-ci dərsdən nələri öyrəndik?***

- Yol və yol kənarı oyun yeri deyil, orada topla oynamaq həyat üçün təhlükəlidir.
- Velosiped sürmək, topla oynamaq, qaçmaq kimi fəaliyyətlər üçün park, stadion və ya həyətyanı sahələr daha uyğundur.
- Hətta sakit küçədə belə qəfil təhlükə yarana bilər.

TAPŞIRIQ

***17.1. Əkbər dayı uşaqlara nəyi izah etdi?***

A) Yolda oynamağın təhlükəli olduğunu.
B) Avtomobillərin sürətlə hərəkət etmədiyini.
C) Uşaq meydançasının bağlandığını.
D) Küçədə oynamağın əyləncəli olduğunu.

***17.2. Yolda və ya yol kənarında topla oynamaq niyə düzgün deyil?***

A) Çünki top itə bilər.
B) Çünki yol oyun oynamaq üçün çox dar olur.
C) Çünki bu təhlükəlidir və qəza baş verə bilər.
D) Çünki top deşilə bilər.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. İmran və dostları küçədə oynamağı niyə təhlükəli hesab etmirdilər? Səncə, uşaqlar bəzən real təhlükəni niyə hiss etmirlər?
2. Topun yola düşməsi və İmranın onun ardınca qaçması hansı riski yaratdı? Bu davranışın nəticəsi nə ola bilərdi?
3. Əkbər dayının "bura oyun yeri deyil" deməsi nəyi izah edir? Yolda oynamaq piyadalarla yanaşı, sürücülər üçün də təhlükə yaradırmı?
4. Niyə uşaqlar üçün xüsusi oyun meydançalarının, parkların və stadionların olması vacibdir? Bu, onların hansı hüququ ilə əlaqəlidir?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostlarınla oynayarkən top yola düşür. Sən nə edərdin? Dərhal qaçıb götürərdin, yoxsa əvvəl ətrafı yoxlayardın? Sənin üçün ən təhlükəsiz davranış hansı olardı və niyə?

## 18-ci dərs

## Aysu və yola düşən kukla

Aysu nənəsigildən evə qayıdırdı. Hava çox gözəl idi. Yol boyu quşların səsinə qulaq asır, çiçəkləri seyr edirdi. Əlində sevimli kuklası vardı, ona ad da qoymuşdu: Zümrüd.

Yolu keçərkən kuklanın paltarı əlindən sürüşdü və kukla asfaltın ortasına - yolun hərəkət hissəsinə düşdü. Aysu tələsik onu götürmək istədi. Bir ayağını artıq səkiyə yox, yola qoymuşdu ki...



- Aysu, dayan! - bu, qarşı küçədə dayanmış Mətləb müəllimin səsi idi. O, hər şeyi görmüş, bir anda səsini ucaltmışdı.

Aysu diksinərək geri çəkildi. Eyni anda yoldan bir maşın sürətlə keçdi.

- Sən çox təhlükəli bir iş gördün, - Mətləb müəllim Aysunun yanına gəlib izah etməyə başladı, - yolun ortasında düşən əşyaları götürmək üçün heç vaxt tələsib əyilmək olmaz.

- Amma bu mənim sevimli kuklam idi, - Aysu pıçıltı ilə dedi.

- Bəli, ancaq canından dəyərli deyil, elə deyilmi? Əşyalar tapılar, alınıb dəyişilər. Amma bircə anlıq səhlənkarlıq həyatımıza təhlükə yarada bilər.

Aysu başını aşağı saldı və pıçıldadı:

- Bağışlayın. Düşünmədim ki, bu qədər təhlükəlidir.

Mətləb müəllim yoldan ötən maşınları göstərərək dedi:

- Sürücülər səni görməyə bilər. Yola əyiləndə onlar üçün gözlənilməz ola bilərsən. Belə hallarda böyüklərdən kömək istəmək və gözləmək lazımdır.

Aysu razılaşaraq gülümsədi. Onlar birlikdə yol kənarında dayanıb maşınların səngiməsini gözlədilər. Mətləb müəllim ətrafa baxıb təhlükəsizliyə əmin olduqdan sonra kuklanı özü götürüb Aysuya verdi.

- Buyur, Zümrüdün yenə səninlədir - amma bu dəfə bir dərslə birlikdə.

O gündən sonra Aysu yolda heç vaxt tələsik davranmadı. Hər dəfə yola baxanda Mətləb müəllimin sözlərini xatırlayırdı:

“ Əşyalar tapılar, amma bircə anlıq səhlənkarlıq həyatımıza təhlükə yarada bilər.”

***18-ci dərsdən nələri öyrəndik?***

- Yolun ortasına düşən əşyaları özbaşına götürmək olmaz.
- Əvvəlcə təhlükəsizliyi təmin etmək, sonra böyüklərdən kömək istəmək lazımdır.
- Yol oyun və tələsik hərəkətlər üçün uyğun yer deyil.

## TAPŞIRIQ

***18.1. Hekayənin əsas ideyası nədir?***

A) Yol hərəkəti qaydaları yalnız böyüklər üçündür.
B) Yolda tələsik davranmaq təhlükəlidir.
C) Kukla uşaqlar üçün zərərlidir.
D) Uşaqlar hər şeyi təkbaşına etməlidirlər.

***18.2. Yolda hərəkət edərkən sevdiyin bir əşya yolun ortasına düşərsə, nə etməlisən?***

A) Dərhal əyilib götürməlisən, çünki o sənindir.
B) Kömək üçün müraciət etmədən çıxıb getməlisən.
C) Tez qaçıb maşınlardan əvvəl götürməlisən.
D) Böyüklərdən və ya yol polisi əməkdaşından kömək istəməlisən.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Aysu niyə səkiyə yox, yola addım atdı? Onun qərarına hansı duyğu təsir etmişdi və bu duyğu niyə təhlükəli ola bilər?
2. Mətləb müəllimin “əşyalar tapılar, amma bircə anlıq səhlənkarlıq həyatımıza təhlükə yarada bilər” fikrini necə başa düşürsən?
3. Aysunun davranışının təhlükəli olmasının əsas səbəbi nə idi? Sürücülərin onu görə bilməməsi hansı nəticəyə gətirib çıxara bilərdi?
4. Hekayədə “böyüklərdən kömək istəmək və gözləmək lazımdır” məsləhəti verilmişdi. Səncə, niyə bəzi uşaqlar tələsir və kömək istəməyi ağıllarına gətirmirlər?
5. Aysu həmin anda öz kuklasını itirməkdən qorxurdu, amma sonra nəyi başa düşdü? Bu hadisə onun gələcək davranışlarını necə dəyişə bilər?

## SİTUATİV SUAL

Təsəvvür et ki, sənin də sevdiyin bir əşya - telefon, oyuncaq, kitab avtomobil yolunun ortasına düşür. Sən nə edərdin? Özünü təhlükəyə atardın, yoxsa başqa bir həll yolu seçərdin? Niyə?

## 19-cu dərs

# Pəncərədən əyilməyin təhlükəsi

Nərgiz və ailəsi qohumlarını ziyarət etməyə gedirdilər. Onlar Nərgizin atasının idarə etdiyi maşınla yola çıxmışdılar. Hava açıq və günəşli idi. Nərgiz arxa oturacaqda oturmuşdu, yanında da sevimli ayısı - Fındıqburun.



Bir az getdikdən sonra Nərgiz darıxmağa başladı. Ayısını əyləndirmək üçün onunla danışır, gülürdü. Birdən gözü yoldakı güllü-çiçəkli çəmənliyə sataşdı və maraqla başını maşının pəncərəsindən çölə çıxardı.

- Ana, bax, necə gözəldir! - deyə ucadan səsləndi və əli ilə çəmənliyi göstərmək istədi.

Bu an atası səsini qaldırdı:

- Nərgiz, başını dərhal içəri çək!

Anası da çevrilərək ciddi şəkildə dedi:

- Yolda maşının içində oturarkən heç vaxt pəncərədən əyilmək olmaz. Bu çox təhlükəlidir!

Nərgiz diksinərək başını içəri çəkdi. Atası avtomobili yolun kənarında saxladı. Onlar bir neçə dəqiqəlik dayanıb bu barədə söhbət etdilər.

- Qızım, maşın hərəkətdə olarkən pəncərədən başını və ya əlini çıxarmaq, hətta ayaq üstə durmaq belə çox təhlükəlidir, - atası izah etdi, - ani bir əyləc və ya qəfil manevr zamanı sən yıxıla bilərsən, başın və ya qolun hansısa səthə çırpıla bilər. Bu, çox ciddi xəsarətlərə səbəb ola bilər.

Nərgiz pərt olmuşdu, amma eyni zamanda təşəkkür dolu gözlərlə atasına baxdı:

- Bağışlayın, bir daha etməyəcəyəm.

Anası gülümsədi:

- Əsas odur ki, indi başa düşdün. Maşın hərəkətdə olarkən pəncərədən başını və ya əlini çıxarmaq, ayaq üstə durmaq həm özün, həm də başqaları üçün təhlükə yarada bilər.

Səfər davam etdi. Bu dəfə Nərgiz ayısını qucaqladı və maşının içində sakitcə oturdu. O, başa düşdü ki, nə qədər maraqlı mənzərə olsa belə, ilk növbədə təhlükəsizlik qaydalarına riayət etməlidir.

***19-cu dərsdən nələri öyrəndik?***

- Maşın hərəkətdə olarkən ayaq üstə durmaq və ya pəncərədən əyilmək olmaz.
- Kəməri bağlayaraq, sakit oturmaq təhlükəsizlik üçün vacibdir.
- Ani hərəkətlər qəza və zədələnməyə səbəb ola bilər.

TAPŞIRIQ

***19.1. Nərgizin atası avtomobili niyə saxladı?***

A) Benzin bitmişdi.
B) Yol nişanlarına baxmaq üçün.
C) Nərgizə təhlükəsiz davranış qaydalarını izah etmək üçün.
D) Çiçəklərə baxmaq üçün.

***19.2. Aşağıdakılardan hansı avtomobil hərəkətdə olarkən düzgün davranış sayılır?***

A) Kəməri bağlayıb sakitcə oturmaq.
B) Pəncərədən başını və ya əllərini çıxarmaq.
C) Arxa oturacaqda ayaq üstə durmaq.
D) Qapını hər an aça biləcək şəkildə əyləşmək.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nərgiz niyə pəncərədən başını çıxardı? Onun bu davranışında hansı duyğu üstünlük təşkil edirdi və bu duyğu niyə təhlükəli nəticələrə səbəb ola bilər?
2. Atasının “başını dərhal içəri çək!” sözləri hansı təhlükəni önləmək üçündür? Maşın hərəkətdə olarkən pəncərədən əyilmək hansı riskləri yaradır?
3. Valideynlərin maşını saxlayıb vəziyyəti izah etməsi sadəcə qınaq idi, yoxsa maarifləndirici davranış? Səncə, bu, uşağın davranışına necə təsir göstərdi?
4. Hekayədə “özünə təhlükə yaratmaqla yanaşı, başqalarına da təhlükə yarada bilərsən” deyilir. Bu fikri necə başa düşürsən? Uşaq səhv davranış etdikdə təkcə özü risk altına düşür, yoxsa başqalarını da təhlükəyə sala bilər?
5. Nərgizin davranışı nəyin nəticəsində dəyişdi: qorxunun, yoxsa təhlükəni başa düşməsinin?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostunla maşındasan, yol boyu gözəl təbiət mənzərələri var və dostun pəncərədən çölə boylanıb əli ilə sanki ətrafdakı gözəlliyə toxunmağa çalışır. Sən nə edərdin? Ona necə izah edərdin ki, bu davranış təhlükəlidir?

## 20-ci dərs

## Avtobus dayanacağında

Yay məktəbi erkən bitmişdi. Humay və sinif yoldaşları avtobus dayanacağına doğru gedirdilər. Günəşli və isti bir gün idi. Dayanacaqda çoxlu insan vardı. Uşaqlar da bir az yorulmuşdular, tez avtobusa minmək istəyirdilər.

Humay avtobusun hələ gəlmədiyini görüb gözləməyə başladı. Amma bəzi uşaqlar qabağa keçməyə çalışır, bir-birini itələyirdilər. Süleyman isə zarafatla dedi:

- Kim birinci minərsə, o, şokolad qazanır!



Bu sözlərlə birlikdə bir neçə uşaq önə qaçdı və bir-birini itələməyə başladı. Elə bu an yaşlı bir qadın az qala yıxılacaqdı. Humay tez onun qolundan tutdu:

- Nənə, ehtiyatlı olun...

Qadın təşəkkürlə gülümsədi:

- Sağ ol, qızım. Bəzən uşaqlar səbrsiz olurlar...

Humay geri çəkilib dostlarına səsləndi:

- Dayanın! Gəlin sıraya düzülək. İtələmək düzgün deyil. Hamımız minəcəyik.

Amma dostları onu dinləmədilər. Avtobus yaxınlaşanda bir neçə nəfər itələndi, bir oğlan ayağını tutub yerə oturdu.

Bu an avtobusun qapısından sürücü səsini ucaltdı:

- Uşaqlar, bu nə davranışdır? Bura oyun yeri deyil. Hər kəs sıraya düzülməlidir. Yaşlılar, qadınlar, uşaqlar öncə minməlidir. İtələmək təhlükəlidir və qəza baş verə bilər.

Uşaqlar pərt oldular. Humay isə sakitcə sırada dayanaraq yaşlı qadına yol verdi. Sonra özü avtobusa mindi və pəncərənin yanındakı yerə keçdi.

Bir qədər sonra sürücü onun yanından keçərkən yavaşca dedi:

- Afərin sənə, balaca! Sən həqiqi bir mədəniyyət nümunəsi göstərdin.

Humay gülümsədi. O əmin oldu ki, sinif yoldaşları da avtobusa minərkən necə davranmalı olduqlarını öyrəndilər: nəqliyyat vasitəsinə minərkən hər kəsə hörmətlə yanaşmaq, sıraya düzülmək və başqalarının təhlükəsizliyini düşünmək vacibdir.

***20-ci dərsdən nələri öyrəndik?***

- Avtobusa minərkən sıraya düzülmək həm təhlükəsizlik, həm də mədəni davranış baxımından vacibdir.
- İtələmək və qabağa keçmək başqalarına zərər verə, hətta qəzalara səbəb ola bilər.
- Yaşlılara, qadınlara və uşaqlara öncə yol vermək nəqliyyatda ədəblilik və hörmət əlamətidir.
- Təhlükəsiz və səliqəli davranış təkcə səni yox, ətrafındakı insanları da qoruyur.
- Mədəniyyət və qayda-qanun yalnız məktəbdə deyil, gündəlik həyatda da vacibdir.

**TAPŞIRIQ**

***20.1. Sürücü uşaqlara hansı qaydanı xatırlatdı?***

A) ) Sıraya düzülmək və əvvəlcə yaşlılara, uşaqlara yer vermək lazımdır.
B) Hamı öz yerini özü tapsın.
C Avtobusa qaçaraq minmək lazımdır.
D) Uşaqlar öncə, böyüklər sonra minsin.

***20.2. Aşağıdakılardan hansı avtobusa minərkən düzgün davranışdır?***




**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Uşaqlar niyə avtobusa minmək üçün itələşirdilər? Bu davranış hansı təhlükələri yaradırdı və kimləri risk altına sala bilərdi?
2. Humayın yaşlı qadına kömək etməsi hansı dəyəri göstərir? Bu davranış digər uşaqlara hansı nümunəni verir?
3. Hekayədə göstərilən "yaşlılar, qadınlar, uşaqlar öncə minməlidir" qaydasının mahiyyəti nədir? Bu, sadəcə ədəb qaydasıdır, yoxsa hüquqi-mədəni normadır?
4. Humayın davranışının dostlarından fərqli olması onun hansı xüsusiyyətlərini göstərir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, dayanacaqdasan və yenə insanlar itələşir, sıranı pozur, yaşlılara yer vermirlər. Sən nə edərdin? Onlara sözlə təsir etməyə çalışardın, yoxsa sadəcə öz növbəndə gözləyərdin? Niyə?

## 21-ci dərs

## Zümrüd və boş oturacaq

Yay tətili günlərindən biri idi. Zümrüd kitab mağazasındakı işini bitirib evə qayıdırdı. Avtobusa minəndə gördü ki, yalnız bir boş yer qalıb. Tez yaxınlaşıb əyləşdi. Pəncərədən baxa-baxa yolda gördükləri haqqında düşünürdü.

Bir neçə dayanacaqdan sonra qapı açıldı və içəriyə bir yaşlı nənə daxil oldu. Nənənin əlində çanta, başında yaylıq vardı. O, çətinliklə dayanıb ətrafa baxdı. Zümrüd də onu görən kimi ayağa qalxdı:

- Buyurun, nənə, əyləşin!

Nənə gülümsədi:

- Çox sağ ol, qızım. Allah səni qorusun.



Zümrüd oturacaqdan qalxıb bir az irəli keçdi və sakitcə dayandı. Az sonra avtobusa bir ana ilə balaca uşaq mindi. Yaxındakı oturacaqda əyləşən oğlan telefonu ilə oynayır, başını belə qaldırmırdı. Zümrüd ona yaxınlaşıb mehribanlıqla dedi:

- Salam. Bəlkə yerinizi bu ana və uşağa verəsiniz? Uşaq çox yorğun görünür.

Oğlan bir anlıq fikrə getdi, sonra utancaq bir təbəssümlə yerindən qalxdı.

Ana təşəkkür etdi, uşaq isə mürgüləməyə başladı. Avtobusda sakitlik yaranmışdı. İnsanlar bir-birinə baxıb gülümsəyirdilər.

Sürücü də güzgüdən baxıb dedi:

- Afərin, uşaqlar! Belə davranmaq lazımdır! Əsl nümunəvi davranış budur!

Zümrüd gülümsədi. O bilirdi ki, ictimai nəqliyyatda sakit dayanmaq, ehtiyacı olanlara yer vermək təkcə qayda deyil, həm də böyük mədəniyyətdir.

***21-ci dərsdən nələri öyrəndik?***

- İctimai nəqliyyatda sakit dayanmaq və başqalarını narahat etməmək hər kəsin rahatlığı və təhlükəsizliyi üçün vacibdir.
- Yaşlılara, uşaqlara və fiziki cəhətdən çətinlik çəkən insanlara yer vermək qayğıkeşliyin və mədəni davranışın göstəricisidir.
- Mədəniyyət təkcə məktəbdə yox, gündəlik həyatda da vacibdir.

TAPŞIRIQ

***21.1. Zümrüd yaşlı nənəni görəndə necə davrandı?***

A) Öz yerində oturmağa davam etdi.
B) Onu görməzlikdən gəldi.
C) Ayağa qalxıb yerini verdi.
D) Başqalarından nənəyə yer vermələrini xahiş etdi.

***21.2. Avtobusda tək boş yer var və sən oturursan. Bu zaman içəriyə əlində zənbil yaşlı bir nənə daxil olur. Sən nə etməlisən?***

A) Nənəyə baxmamağa çalışıb oturmağa davam etməliyəm.
B) Nənəyə yer verməli, özüm ayaq üstə dayanmalıyam.
C) Özümü yuxulu göstərib heç nə etməməliyəm.
D) Nənənin əvəzinə başqa bir uşağa yer təklif etməliyəm.

***21.3. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Avtobusda oturmaq vacibdir, kim birinci boş yer tapdısa, o əyləşməlidir.
B) Ehtiyacı olanlara yer vermək mədəniyyət və hörmət əlamətidir.
C) Uşaqlar yer verməməlidirlər.
D) Avtobusda danışmaq olmaz.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Zümrüd niyə oturduğu yerdən qalxıb yaşlı nənəyə yer verdi? Bu davranış hansı dəyərə əsaslanır və niyə vacibdir?
2. Zümrüd yaxındakı oturacaqda əyləşib telefonla oynayan oğlana uşaqlı anaya yer verməsini təklif edir. Səncə, Zümrüd bu təklifi verməklə düz davrandımı? Niyə?
3. Telefonla oynayan oğlan öz yerini uşaqlı anaya verdi. Onun bu davranışında Zümrüdün sözləri necə rol oynadı?
4. Sürücünün "əsl tərbiyə budur" deməsinin mənası nədir? İctimai nəqliyyatda yer vermək yalnız nəzakət qaydasıdır, yoxsa ictimai mədəniyyətin vacib hissəsidir?
5. Uşaqların davranışını avtobusdakılar necə qarşıladı? Digərlərinin davranışı niyə bəzən başqalarına nümunə olur?

SİTUATİV SUAL

Təsəvvür et ki, avtobusda oturmusan, amma yanında ayaq üstə dayananlar arasında yaşlı bir kişi, hamilə qadın və çantası ağır olan bir şəxs var. Sən nə edərdin? Niyə məhz o cür davranardın?

## 22-ci dərs

## Ülvi və Gülnarın velosiped macərası

Yay tətili idi. Gülnar hər gün qonşuluqdakı parkda velosiped sürürdü. Bu gün isə o, dostu Ülvi ilə velosiped sürmək istədi.

- Ülvi, gəl birlikdə sürək! - deyə Gülnar onu səslədi.

Ülvi gülümsədi:

- Mənim velosipedim yeni alınıb. Hələ qaydaları yaxşı bilmirəm, amma sürməyi çox istəyirəm.

- Narahat olma, ehtiyatla sürərik,- Gülnar dedi.

Onlar birlikdə evlərinin yaxınlığındakı küçəyə çıxdılar. Gülnar baxıb dedi:

- Bax, bu yerdə velosiped zolağı çəkilib. Gəl burada sürək.

Ülvi başı ilə razılaşdı.



Amma bir qədər getdikdən sonra velosiped zolağı qurtardı. Küçədə avtomobillər də hərəkət edirdi. Ülvi bir az qorxdu:

- İndi nə edək? Yola çıxaq?

Gülnar dərhal atasına zəng etdi. Atası onlara izah etdi:

- Əgər velosiped zolağı yoxdursa, onda velosipedi yolun ən sağ kənarı ilə sürmək lazımdır. Həmişə sağa yaxın olun və diqqətli olun. Əgər yol çox sıxdırsa və təhlükə varsa, velosipedi sürmək əvəzinə əl ilə aparmaq daha doğrudur.

Onlar Gülnarın atasının dediyi kimi etdilər. Yolun sağ kənarı ilə ehtiyatla hərəkət etdilər və hər kəsi təəccübləndirəcək qədər diqqətli davrandılar.

Parka yaxınlaşanda Ülvi gülümsədi:

- Qaydaları bilmək insana cəsarət verir. İndi özümü daha inamlı və sakit hiss edirəm.

***22-ci dərsdən nələri öyrəndik?***

- Velosiped və mopedlər üçün əvvəlcə xüsusi zolaqlardan istifadə edilməlidir.
- Belə zolaq yoxdursa, yalnız yolun ən sağ kənarı ilə hərəkət etmək olar.
- Avtomobillərin çox olduğu yerdə velosiped sürmək təhlükəlidir. Belə hallarda velosipedi əl ilə aparmaq daha düzgündür.
- Hərəkət zamanı həmişə diqqətli olmaq və qaydalara əməl etmək vacibdir.

TAPŞIRIQ

***22.1. Velosiped sürərkən hansı halda avtomobillərin hərəkət etdiyi yol hissəsindən istifadə etmək olar?***

A) Yol tamamilə boş olanda.
B) Heç bir halda olmaz.
C) Əgər xüsusi velosiped zolağı yoxdursa və yolun ən sağ kənarı ilə hərəkət edilirsə.
D) Velosiped sürmək üçün icazə almaq şərti ilə.

***22.2. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Velosiped sürərkən qaydaları bilməyə ehtiyac yoxdur.
B) Təhlükə olanda velosipedi sürmək əvəzinə əl ilə aparmaq lazımdır.
C) Velosiped zolağına fikir verməmək olar.
D) Velosipedi istənilən yerdə sürmək olar.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Ülvi velosiped sürməkdən niyə ehtiyat edirdi? Səncə, qaydaları bilmək uşaqlarda özünəinamı necə artırır?
2. Gülnarın "velosiped zolağı var, gəl burada sürək" deməsi hansı qaydaya əsaslanırdı? Velosiped zolaqları niyə yaradılır?
3. Gülnarın atası "yolun sağ kənarı ilə sürmək olar, amma təhlükə varsa əl ilə aparmaq daha yaxşıdır" dedi. Bu məsləhəti həm hüquq, həm də təhlükəsizlik baxımından necə qiymətləndirə bilərsən?
4. Hekayənin sonunda Ülvinin "artıq qaydaları bilirəm" deməsi nəyi göstərir: sadəcə velosiped sürməyi öyrənməsini, yoxsa həm də məsuliyyətli davranmağın vacibliyini?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən dostunla velosiped sürürsən və yolun daraldığı bir yerə çatmısınız. Avtomobillər çoxdur və ətraf səs-küylüdür. Dostun "tez sürək, keçək" deyir. Sən hansı qərarı verərdin - sürətlənib yolu keçməyə çalışardın, yoxsa dayanıb təhlükəsiz yolu seçərdin? Niyə?

## 23-cü dərs

# Yunis və uçan dəbilqə

Yay səhəri idi. Günəş parlayır, quşlar cəh-cəhlə ötürdü. Aynur həyətə düşüb yeni aldığı velosipedi sınaqdan keçirmək istəyirdi. Velosiped parlaq qırmızı rəngdə idi və onun ad günü hədiyyəsi olmuşdu.

- Ana, mən bir az sürüb gəlirəm! - deyib sürətlə pillələri endi.

Velosipedini həyətə çıxaranda qonşu binadakı dostu Yunis də öz velosipedi ilə gəlmişdi. Amma Yunisin başında heç nə yox idi.

- Yunis, dəbilqən hanı? - Aynur soruşdu.



- Eh, isti gündü, neynirəm dəbilqəni? Onsuz da yaxşı sürürəm, - deyə Yunis cavab verdi.

- Mən dəbilqəsiz çıxmıram, dəbilqə başımızı qoruyan əsas vasitədir, - Aynur dedi və parıldayan göy dəbilqəsini başına taxdı.

Onlar birgə sakit məhəllə yolunda velosiped sürməyə başladılar. Qısa müddət sonra Yunis qəfildən sükanı əlindən qaçırdı və yüngülcə kənardakı beton haşiyəyə dəydi. Velosiped çevrildi və Yunis yerə yıxıldı. Xoşbəxtlikdən ciddi bir şey olmadı. Üzünün dərisi azca cızılmışdı.

Aynur dərhal ona yaxınlaşıb soruşdu:

- Ağrıyır?

- Bir az, - Yunis dedi və utandı, - dəbilqə olsaydı, üzüm çapılmazdı...

Elə bu vaxt Yunisin anası da yaxınlaşdı. Onun əllərində Yunisin unudulmuş dəbilqəsi var idi.

- Oğlum, bu sənin təhlükəsizliyin üçündür. Bunu unutma, - deyə o, mehribanlıqla söylədi.

Yunis utanaraq dəbilqəni başına taxdı.

- Aynur, sən haqlı idin. Bundan sonra həmişə taxacağam.

Aynur gülümsədi. Onlar bir az dincəlib yenidən velosiped sürməyə davam etdilər, amma bu dəfə hər ikisinin başında dəbilqə var idi.

***23-cü dərsdən nələri öyrəndik?***

- Velosiped idmanı əyləncəlidir, amma təhlükəsizlik vacibdir. Əylənmək istəyərkən sağlamlığımızı təhlükəyə atmamalıyıq.
- Dəbilqə başımızı qoruyan əsas vasitədir. Baş zədələri çox təhlükəli ola bilər. Dəbilqə taxmaq bu riski ciddi şəkildə azaldır.
- Qəzalar gözlənilmədən baş verir. Dostlarımızı da təhlükəsizliyə təşviq etməliyik.
- Uşaqlar üçün qaydalara əməl etmək təkcə özlərini deyil, ətrafdakıları da qoruyur.

**TAPŞIRIQ**

***23.1. Hekayənin əsas ideyası nədir?***

A) Dəbilqə taxmaq vacib deyil.
B) Hava isti olsa da, velosiped sürərəkən təhlükəsizlik qaydalarına əməl etmək vacibdir.
C) Uşaqlar təkbaşına velosiped sürməlidirlər.
D) Velosiped sürmək təhlükəsiz deyil.

***23.2. Velosiped sürərkən başımıza dəbilqə taxmaq nəyə görə vacibdir?***

A) Günəşdən qorunmaq üçün.
B) Daha sürətli sürmək üçün.
C) Gözəl görünmək üçün.
D) Başımızı zədələrdən qorumaq üçün.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Yunis niyə əvvəlcə dəbilqə taxmaq istəmədi? Onun “onsuz da yaxşı sürürəm” fikri hansı səhv düşüncəni göstərir?
2. Aynurun dəbilqə taxması sadəcə qorxudan doğmuş davranışdır, yoxsa məsuliyyətli yanaşmadır? Bu iki davranış arasındakı fərqi necə izah edərdin?
3. Velosiped sürmək bacarığı ilə təhlükəsizlik qaydalarına əməl etmək arasında hansı əlaqə var? “Mən yaxşı sürürəm, qəzaya düşmərəm” fikri niyə doğru deyil?
4. Yunisin davranışının dəyişməsinə nə səbəb oldu: cəzalandırılmaq qorxusu, yoxsa başına gələnləri anlaması?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, dostlarınla velosiped sürməyə çıxırsan, hamı dəbilqəsizdir, amma sən dəbilqə taxmısan. Onlar “qorxaqsan” deyə səninlə zarafat edirlər. Sən necə reaksiya verərdin? Dəbilqəni çıxarmadan sürərdin, yoxsa onlara qoşulardın? Niyə?

## 24-cü dərs

## Velosiped və sirli dönmə

Yay tətili idi. Cəmilə hər səhər sevimli velosipedi ilə evlərinin yaxınlığındakı parkda gəzirdi. Bir gün o, parka doğru gedərkən yol ayrıcında qəfil arxadan bir səs eşitdi:

- Diqqət elə! Az qala sənə dəyəcəkdim!

Cəmilə dönüb baxdı. Onun sinif yoldaşı Turqut idi. Velosipedi sürətlə sürdüyündən dönərkən siqnal və ya hər hansı bir işarə verməmişdi.

- Bağışla, mən dönmək istədim, amma... yəni, bir az tələsdim, - Turqut üzr istədi.

Cəmilə gülümsədi:



- Turqut, sən dönəcəyini heç kimə bildirmədin. Sürücülər və digər velosipedçilər sənin hara gedəcəyini bilməlidirlər. Ona görə də biz əllərimizlə işarə verməliyik.

- Necə işarə?

- Göstərim sənə, - deyə Cəmilə velosipedinə əyləşdi və izah etməyə başladı:

- Sağa dönmək istəyirsənsə, sağ əlini yan tərəfə düz açmalısan.

- Sola dönmək istəyirsənsə, sol əlini düz açmalısan.

- Əgər dayanmaq istəyirsənsə, sol əlinlə yuxarıya doğru 90 dərəcə bucaqla əlinin içi qabağa baxacaq şəkildə işarə verməlisən.

Turqut maraqla onun dediklərini izləyirdi. Sonra öz velosipedinə mindi və Cəmilə ilə birlikdə dönmə məşqləri etməyə başladı. Hər dönməzdən əvvəl uyğun əlini uzadaraq siqnal verdi.

Onlar bir qədər məşq etdikdən sonra Cəmilə dedi:

- Görürsən, bu, həm təhlükəsizdir, həm də çox mədəni davranışdır. Ətrafdakı hər kəs sənin hara dönəcəyini əvvəlcədən bilir və qəza riski azalır.

Turqut başı ilə təsdiqləyərək dedi:

- Bunu əvvəllər heç düşünməmişdim. İndi hər dəfə dönəndə əllə işarə verəcəyəm.

Axşam evə dönərkən Turqut artıq dönməzdən əvvəl sağ əlini açıb yolunu dəyişdi. Qarşıdan gələn velosipedçi də onun bu işarəsinə baxaraq yavaşladı və yol verdi.

Cəmilə isə sevinərək fikirləşdi:

“Bilgi paylaşmaq gözəldir. Amma onu tətbiq etmək daha gözəldir.”

***24-cü dərsdən nələri öyrəndik?***

- Velosiped sürərkən digər yol hərəkəti iştirakçılarına hansı istiqamətə dönəcəyimizi öncədən bildirmək vacibdir. Bunun üçün xüsusi əl işarələrindən istifadə olunur.
- Sağa dönmək istədikdə - sağ əli yana uzatmaq lazımdır.
- Sola dönmək istədikdə - sol əli yana uzatmaq lazımdır.
- Bu işarələr sürücülərə və piyadalara velosipedçinin hərəkət niyyətini əvvəlcədən göstərir və qəza riskini azaldır.

TAPŞIRIQ

***24.1. Turqut nəyə görə üzr istədi?***

A) Velosipedi Cəmiləyə dəydi.
B) Dönərkən siqnal vermədi.
C) Parka gecikmişdi.
D) Velosipedini evdə unutmuşdu.

***24.2. Cəmilə dönərkən hansı qaydanı izah etdi?***

A) Velosipedi yavaş sürmək lazımdır.
B) Hər dəfə dönərkən və dayanarkən əl ilə işarə vermək lazımdır.
C) Sola dönmək olmaz.
D) Yolda tək hərəkət etmək lazımdır.

***24.3. Velosiped sürən bir uşaq sola dönmək istəyirsə, hansı hərəkəti etməlidir?***

A) Başını sola çevirməlidir.
B) Sol əlini yuxarı qaldırmalıdır.
C) Sol əlini yana doğru uzatmalıdır.
D) Sağ əlini yelləməlidir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Turqut velosipedlə dönərkən niyə problem yaşadı? Onun velosipedi sürətlə sürməsi hansı təhlükəni yaradırdı və başqa kimləri risk altına ata bilərdi?
2. Səncə, velosiped sürənlər niyə siqnal verməlidirlər?
3. Əllə dönmə işarələrindən istifadə etmək niyə həm təhlükəsizlik, həm də "yol mədəniyyəti" sayılır? Bu, velosipedçi ilə digər iştirakçılar arasında hansı anlaşmanı yaradır?
4. Cəmilənin "bilgi paylaşmaq gözəldir, amma onu tətbiq etmək daha gözəldir" fikrini necə başa düşürsən? Bu cümlə təkcə yol hərəkəti üçün keçərlidir, yoxsa həyatın digər sahələrinə də aiddir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də dostunla velosiped sürürsən və dostun dönməzdən əvvəl siqnal vermir. Ona necə izah edərdin ki, bu davranış həm təhlükəli, həm də qayda pozuntusudur? Sözlə xəbərdarlıq edərdin, yoxsa nümunə göstərərdin?

## 25-ci dərs

## İşarə və siqnallara diqqət dərsi

Yay tətilinin ortaları idi. Əsmər bu gün nənəsigilə baş çəkmək üçün anası ilə birlikdə şəhərin digər başına getməli idi. Avtobusdan düşüb bir neçə küçə keçməli oldular. Əsmər əlindəki yeni çantasını yellədərək irəliləyirdi. Havanın istisi, maşınların səsi və yoldakı gur hərəkət onu bir az yorub fikirini dağıtmışdı.

Yaxınlıqda bir işıqfor parıldayırdı. Yaşıl piyada işığı yanmağa başlamışdı. Əsmər təbii olaraq irəli addımlamaq istədi. Amma o anda anasının səsi onu saxladı:

- Dayan, qızım! Polis əli ilə "gözləyin" işarəsi verir!




Əsmər təəccüblə duruxdu. Doğrudan da, yolun ortasında dayanmış polis zabiti əlini qaldıraraq "dayanmaq" işarəsi göstərirdi. Halbuki işıqfor yaşıl işıqla "keç" deyirdi. Əsmər başını çevirib anasına baxdı:

- Ana, yaşıl işıq yanır axı. Niyə keçmirik?

Anası təmkinlə izah etdi:

- Bəzən işıqforla yanaşı polis əməkdaşı da hərəkəti tənzimləyir. Həmin an əsas onun göstərişidir. Ola bilər ki, qabaqda qəza olub, ya da təcili yardım gəlir.

Elə bu anda təcili yardım maşınının səsi eşidildi. Uzaqdan gələn səs küçəyə doldu. Əsmər diqqətlə qulaq asdı. Qırmızı və göy işıqları yanan təcili yardım yüksək səsli siqnal verərək kəsişməni keçdi. Polis əli ilə maşınlara və piyadalara istiqamət göstərir, onların təhlükəsizliyini təmin edirdi.

Əsmər heyranlıqla baxırdı. Qulağında hələ də təcili yardımın sirenası səslənirdi. Yol bir qədər açıldıqdan sonra polis əli ilə "keçmək olar" işarəsi verdi.

- İndi keçə bilərik, - anası gülümsəyərək dedi.

Yolun ortasında polisə yaxınlaşan Əsmər başını qaldırıb soruşdu:

- Salam, əmi. Bəs niyə yaşıl işıq yansa da, əvvəl keçmədik?

Polis gülümsədi:

- Çünki mən o an sənin təhlükəsizliyin üçün məsuliyyət daşıyırdım. Səsli siqnallar, nişanlar və mənim verdiyim işarə - hamısı bir yerdə işləyir. Amma hərdən biri digərindən daha vacib ola bilər. Sən isə çox ağıllı qızsan ki, qulaq asdın.

Əsmər sevinərək başını tərpətdi. Özünü bir az da böyümüş hiss etdi.

- Mən dərslərimdə birinci olmuşam. İndi isə yol qaydalarını da yaxşı bilirəm!

***25-ci dərsdən nələri öyrəndik?***

• İşıqforun yaşıl işığı yansa belə, polis işarəsi fərqli göstəriş verirsə, ona əməl edilməlidir.

• Təcili yardım və digər fövqəladə hallara görə polis yolda hərəkətin istiqamətini müvəqqəti dəyişə bilər.

• Səsli siqnallar - sirena, siqnal, xəbərdarlıq yolun təhlükəsizliyində mühüm rol oynayır.

• Qulaq asmaq, baxmaq və düşünmək təhlükəsizlik üçlüyüdür.

**TAPŞIRIQ**

***25.1. Anası Əsməri niyə saxladı?***

A) Çünki maşınlar çox idi.
B) Çünki qırmızı işıq yanırdı.
C) Çünki polis "gözləyin" işarəsi verirdi.
D) Çünki Əsmər çantasını salmışdı.

***25.2. Əsmər niyə təəccüblənmişdi?***

A) Çünki işıqforun yaşıl işığı yanırdı, amma keçmək olmazdı.
B) Çünki təcili yardım sakit gedirdi.
C) Çünki polis onu tanımışdı.
D) Çünki işıqfor sönmüşdü.

***25.3. Yolda hərəkət edərkən hansı halda dərhal dayanmalı və diqqətli olmalısan?***

A) Yalnız hava yağışlı olanda.
B) Səsli siqnal eşidəndə, yol nişanı və ya polis işarəsi görəndə.
C) Dostun səni çağıranda.
D) Hava çox isti olanda.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Əsmər niyə yaşıl işıq yanan kimi keçmək istədi? Onun bu davranışı yol hərəkəti qaydalarından hansını tam bilmədiyini göstərir?

2. Anasının "polis əl işarəsi verirsə, onu gözləmək lazımdır" deməsi nəyi ifadə edir? Niyə bəzən işıqforun deyil, polis əməkdaşının göstərişi əsas sayılır?

3. Hekayədə təcili yardım maşınının gəlişi nəyi göstərir? Ona yol verilməsi niyə adi keçid qaydasından daha vacib sayılır?

4. Əsmərin hadisədən sonra "özünü böyümüş hiss etməsi" nə deməkdir? Bu dəyişiklik təcrübədən öyrənmənin hansı gücünü göstərir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də piyada keçidindəsən, yaşıl işıq yanır, amma polis əl işarəsi ilə "dayan" deyir. Sən nə edərdin və bunu başqalarına necə izah edərdin? Hansı qaydanı əsas götürmək daha təhlükəsizdir və niyə?

## 26-cı dərs

## Parlayan jilet

Payız axşamı idi. Məktəbdən gələn Elxan dərs çantasını otağına qoyub futbol məşqinə tələsdi. Anası pəncərədən baxıb dedi:

- Elxan, hava artıq qaralır. Əyninə o sarı parlaq jileti geyin.

Elxan bir az tərəddüd etdi:

- Ana, jilet geyinməsəm də olar, mən yolu tanıyıram.

Anası gülümsədi:

- Yolu tanımağın yaxşıdır, amma sürücülər səni qaranlıqda görməyə bilərlər. Parlaq rənglər səni uzaqdan görünən edəcək.



Elxan jileti geyindi və çıxıb getdi. Yolda maşınların faraları yanırdı. Bir neçə dəfə hiss etdi ki, sürücülər ona yaxınlaşanda sürəti azaldır və diqqətlə ötürlər. Məşqə çatanda dostu Uğur soruşdu:

- Sən niyə bu jileti geyinmisən?

Elxan anasının dediklərini təkrar etdi. Uğur da düşündü ki, qaranlıq vaxtı parlaq geyinmək daha təhlükəsizdir.

O gündən sonra uşaqlar məşqə gedəndə hamısı Elxan kimi parlaq rəngli geyimlər geyinməyə qərar verdilər. Onlar başa düşdülər ki, belə geyinmək onları təhlükədən qoruya bilər.

***26-cı dərsdən nələri öyrəndik?***

- Qaranlıqda hərəkət edərkən piyadanın parlaq rəngli və ya işıq əks etdirən geyimlər geyinməsi vacibdir.
- Parlaq və görünən geyim sürücülərin piyadanı vaxtında görməsinə və qəza riskinin azalmasına kömək edir.
- Qaranlıq vaxtı yolda diqqətli olmaq və daha yaxşı görünməni təmin edən vasitələrdən (fənər, əksetdirici lent və s.) istifadə etmək təhlükəsizliyi artırır.

## TAPŞIRIQ

***26.1. Qaranlıq vaxtı yolda hərəkət edərkən piyadalar üçün ən təhlükəsiz seçim hansıdır?***

A) Tünd rəngli paltar geyinmək.
B) Yalnız avtomobil işıqlarına güvənmək.
C) Sürətlə qaçmaq.
D) Parlaq rəngli və işıq əks etdirən geyim geyinmək.

***26.2. Piyadanın parlaq jilet geyinməsi:***

A) Gözəl görünmək üçündür.
B) Sürücülərin piyadanı uzaqdan görməsini təmin edir.
C) İdman üçün nəzərdə tutulub.
D) Soyuqdan qoruyur.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Elxan əvvəlcə niyə jilet geyinmək istəmədi? Onun “mən yolu tanıyıram” fikri təhlükəsizlik baxımından nəyi nəzərə almırdı?
2. Anasının “sürücülər səni qaranlıqda görməyə bilərlər” deməsi nəyi izah edir? Səncə, yolda təhlükəsizlik yalnız piyada və ya velosipedçinin özündənmi asılıdır, yoxsa digər insanların görmə imkanlarından da?
3. Elxanın parlaq jilet geyinməsi nə ilə nəticələndi? Hekayədə sürücülərin davranışı bunun təhlükəsizlik baxımından təsirini necə göstərir?
4. Hekayədə “parlaq rəngli geyimlər təhlükədən qoruya bilər” fikri verilir. Səncə, bu qayda başqa hansı situasiyalarda faydalı ola bilər (məs: velosiped sürərkən, meşədə gəzərkən və s.)?

## SİTUATİV SUAL

Təsəvvür et ki, qaranlıqda evə gedirsən və dostun deyir: “Əşi, görünməsək də olar, maşınlar diqqət edir.” Sən ona nə cavab verərdin? Fikrini necə əsaslandırardın?

# III FƏSİL

## Təhsil hüququ

## 27-ci dərs

## İlqar dərsə tələsir

Səhər günəş hələ tam doğmamışdı. İlqar yorğun halda pəncərədən baxırdı. Həyətdə uşaqlar məktəb formalarında tələsik addımlayır, kimsə əlində kitab, kimsə çantasıyla qaçırdı. Amma İlqarın bu gün heç yerə tələsmək fikri yox idi.

O, yorğun səslə anasına dedi:

- Ana, bu gün məktəbə getmək istəmirəm. Onsuz da doqquzuncu sinifdə oxuyuram, dərslər çox çətindir. Hər gün test, imtahan söhbəti... Artıq bezmişəm.

Anası təəccüblə, amma sakitcə gülümsədi. O, İlqarın qarşısında oturub mehriban səslə dedi:



- Oğlum, səni başa düşürəm. Hamı kimi sən də yorulursan, bəzən çətinliklər çox olur. Amma unutma ki, qanuna görə, ümumi orta təhsil məcburidir. Hər bir uşaq doqquzuncu sinfi bitirməlidir. Bu, sadəcə bir qayda deyil - bu, sənin gələcəyin üçün vacib bir mərhələdir.

Sonra əlavə etdi:

- Məktəb yalnız dərs öyrənmək yeri deyil. Orada sən dost tapırsan, özünü tanıyırsan, gələcək arzularını formalaşdırırsan. Müəllimlərin səni sabaha hazırlayır. Sən orada təkcə kitab oxumursan, həm də həyatı öyrənirsən.

İlqar anasının dediklərini dinləyərkən fikrə getdi. Dərs zamanı müəllimi demişdi: "Bilik işıqlı gələcəyin açarıdır. Oxuyan insan həyatda öz yolunu tapa bilir."

Bu sözlər indi beynində səsləndi. O, pəncərədən bir daha baxdı - günəş artıq doğmuşdu.

İlqar sakitcə çantasını götürdü və anasına baxıb dedi:

- Yaxşı, ana. Mən gedirəm. Gecikmək istəmirəm.

Anası gülümsədi:

- Afərin, oğlum! Unutma, hər gün, bir addım da olsa, səni arzularına yaxınlaşdırır.

İlqar həyətə çıxarkən içində qəribə bir yüngüllük hiss etdi. İndi o bilirdi ki, məktəb sadəcə bir binadan ibarət deyil, orada xoşbəxt gələcəyinin təməli qoyulur.

***27-ci dərsdən nələri öyrəndik?***

- Azərbaycan Respublikasının qanunlarına görə, hər bir uşaq təhsil almaq hüququna malikdir və bu, dövlət tərəfindən qorunur.
- Ümumi orta təhsil (I-IX siniflər) icbaridir.
- Uşağın məktəbə davamiyyətinə valideyn və ya qanuni nümayəndə nəzarət etməlidir.
- Təhsilin məqsədi təkcə dərs öyrətmək deyil, məktəb həm də gələcəkdə lazım olacaq bilik və bacarıqları formalaşdırır.
- İcbari təhsildən yayınmaq valideyn üçün inzibati məsuliyyət yarada bilər.

TAPŞIRIQ

***27.1. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Hər iki valideyn uşağının məktəbə getməməsinə razıdırsa, bu, qanuni sayılır. | |
| 2 | Ümumi orta təhsil icbaridir. | |
| 3 | Valideynlərdən biri uşağının məktəbə getməməsinə razıdırsa, bu, qanuni sayılır. | |
| 4 | Ümumi orta təhsil könüllüdür. | |

***27. 2. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Məktəbə getmək yalnız böyüklərin istəyindən asılıdır.
B) Təhsil gələcək üçün vacibdir və hər bir uşaq oxumalıdır.
C) Məktəbə getmək əyləncə üçündür.
D) İcbari təhsil yalnız kiçik siniflər üçün keçərlidir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. İlqar məktəbə getmək istəmirdi. Səncə, onun yorğunluğu yalnız dərslərlə bağlı idi, yoxsa başqa səbəblər də ola bilərdi?
2. Anasının "ümumi orta təhsil məcburidir" deməsi nəyi izah edir? Bu qaydanın uşaqlar üçün faydası nədən ibarətdir?
3. "Məktəb yalnız dərs öyrənmək yeri deyil" fikrində hansı məna var? Məktəbin insan həyatındakı rolu sənin öz təcrübənə görə nədir?
4. İlqarın fikrinin dəyişməsinə nə səbəb oldu - anasının məcbur etməsi, yoxsa dediklərini dərk etməsi? Cavabını hekayənin hansı cümlələri ilə əsaslandıra bilərsən?
5. Müəllimin dediyi "bilik işıqlı gələcəyin açarıdır" fikrini necə başa düşürsən? Bu cümlə yalnız məktəb üçün keçərlidir, yoxsa ümumi həyat üçün də?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də yorulmusan və məktəbə getmək istəmirsən. Səni kim və ya nə motivasiya edə bilər? Özünü necə inandıra bilərsən ki, davam etmək vacibdir?

## 28-ci dərs

## Altayın dərsi

Altay dərs oxumağı sevirdi, amma bəzən dostları onu futbol oynamağa çağıranda tərəddüd edirdi. Bir gün tarix dərsindən əvvəl dostları yenə dedilər:

- Altay, gəl bu gün dərsə girməyək, gedək stadionda oynayaq.

Altay bir an tərəddüd etdi. Sonra “bir dərs buraxsam, nə olar ki?” deyə düşündü. Amma sonra müəlliminin dediyi söz yadına düşdü:

- Şagirdlərin dərsdən yayınmamaq və tapşırıqları vaxtında, keyfiyyətlə yerinə yetirmək vəzifəsi var. Bu, yalnız qanunun tələbi deyil, həm də gələcək uğurlarınız üçün vacibdir.




Altay dostlarına gülümsəyərək dedi:

- Mən dərsə hazırlaşıram. Bilirsiniz ki, tarix fənnini çox sevirəm, bu gün də yaxşı cavab vermək istəyirəm. Siz oynayın, mən sonra qoşularam.

O, dərsə getdi, verilən bütün sualları cavablandırdı və yüksək qiymət aldı.

Dərsin sonunda müəllim Altayı lövhənin qarşısına çağırdı və üzünü şagirdlərə tutaraq dedi:

- Altay hər zaman olduğu kimi, bu gün də dərsə çox yaxşı hazırlaşmışdı. Əgər hər biriniz dərslərinizə belə məsuliyyətlə yanaşsanız qarşıda sizi böyük uğurlar gözləyər.

Bu hadisədən sonra Altayın dostları da başa düşdü ki, uğur qazanmaq üçün dərsdən yayınmamaq və tapşırıqları vaxtında yerinə yetirmək lazımdır.

***28-ci dərsdən nələri öyrəndik?***

• Dərsdən üzrsüz səbəblərlə yayınmaq zəruri bilik və bacarıqlara yiyələnmək imkanlarını azaldır.

• Üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək şagirdin vəzifəsidir.

• Düzgün seçim etmək bəzən çətin olsa da, nəticəsi həmişə faydalı olur.

**TAPŞIRIQ**

***28.1. Altay niyə dərsə getməyə qərar verdi?***

A) Çünki müəllim onu çağırmışdı.
B) Çünki futbolu sevmirdi.
C) Çünki dostları da getdi.
D) Çünki dərsdən yayınmağın düzgün olmadığını bilirdi.

***28.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Üzrsüz səbəblə dərsdən yayınmaq yolverilməzdir. | |
| 2 | Tapşırıqları vaxtında yerinə yetirməmək məsuliyyətli davranışdır. | |
| 3 | Vaxtında və keyfiyyətli tapşırıq yerinə yetirmək şagirdin biliklərini möhkəmləndirir. | |
| 4 | Dərsdən yayınmaq gələcək bilik və bacarıqlara təsir etmir. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Altay əvvəlcə niyə tərəddüd etdi? Onun fikrindəki “bir dərs buraxsam, nə olar ki?” düşüncəsi, səncə, nəyi göstərir?
2. Müəllimin “şagirdlərin dərsdən yayınmamaq və tapşırıqları vaxtında yerinə yetirmək vəzifəsi var” sözlərini necə başa düşürsən? Bu, hüquqdur, vəzifədir, yoxsa hər ikisidir?
3. Dostlarının təklifini qəbul etməyərək dərsə getməsi Altayın hansı xüsusiyyətindən xəbər verir?
4. Dostlarının sonradan Altayın qərarını başa düşməsi nəyi göstərir - özləri dəyişdi, yoxsa Altayın davranışı onlara nümunə oldu?
5. Səncə, məsuliyyət insanı necə tanıdan bir xüsusiyyətdir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də oxumağı sevirsən, amma dostların səni dərsi buraxıb oyun oynamağa çağırır. Sən nə edərdin? Qərar verərkən nəyə əsaslanardın: dostluğa, yoxsa öz məqsədlərinə? Niyə?

## 29-cu dərs

## Vüqar və istehzalı sözlər

Vüqar məktəbin həyətində tənəffüs zamanı sakitcə kitab oxuyurdu. Bu vaxt iki sinif yoldaşı yanına gəldi.

- Sən yenə kitab oxuyursan?- deyə biri istehza ilə gülümsədi.

- Bəli, mən kitab oxumağı sevirəm, marağım budur, - Vüqar sakitcə cavab verdi.



- Bunun marağına bax. Onsuz da idmanda heç nə bacarmırsan. Kitab oxusan nə olacaq ki...

Bu sözlər Vüqarı narahat etsə də, o, əvvəlcə susdu. Dərsdən sonra məktəbin psixoloqu Aygün xanım onun üzgün olduğunu gördü.

- Vüqar, nə olub? Niyə kefsizsən?

- Aygün xanım, bəzi uşaqlar mənə lağ edir, özümü pis hiss edirəm. Deyirlər ki, heç nəyə yaramıram.

Aygün xanım mehribanlıqla izah etdi:

- Bax, Vüqar, qanuna görə, hər bir şagirdin şərəf və ləyaqətini qorumaq hüququ var. Heç kim səni alçalda, lağ edə və təhqir edə bilməz. Belə hallarda dərhal müəlliminə, psixoloqa və ya məktəb rəhbərliyinə xəbər verməlisən.

Vüqar başını tərpədərək dedi:

- Mən əvvəlcə utanırdım, amma indi bilirəm ki, bunu demək lazımdır.

Ertəsi gün məktəb rəhbərliyi həmin şagirdlərlə söhbət etdi və belə davranışların qarşısını aldı. Vüqar isə özünü daha güvənli hiss etməyə başladı.

***29-cu dərsdən nələri öyrəndik?***

- İnsanın, o cümlədən uşağın şərəf və ləyaqətini alçaldan sözlər və hərəkətlər yolverilməzdir.
- Əgər kiminsə sizə və ya başqasına qarşı ədəbsiz, təhqiramiz və ya lağlağı xarakterli davranışını görsəniz, susmamalı, məsələni böyüklərə çatdırmalısınız.
- Müəllim, məktəb psixoloqu və ya valideynlərdən dəstək almaq uşaqların haqqıdır.
- Özünüz də başqalarının hisslərinə toxunan sözlər deməməli, hər kəsə hörmətlə yanaşmalısınız.

TAPŞIRIQ

***29.1. Vüqar niyə özünü pis hiss edirdi?***

A) Müəllim onu danlamışdı.
B) Bəzi uşaqlar ona lağ edirdilər.
C) İmtahandan aşağı qiymət almışdı.
D) Dərsə gecikmişdi.

***29.2. Aşağıdakılardan hansılar bullinqə (bir şəxsin məqsədli şəkildə başqasını təhqir etməsi və ya ona zorakılıq göstərməsi) qarşı düzgün davranış nümunələridir?***

A) Məsələni müəllimə demək.
B) Sakitcə dözmək.
C) Məsələni valideynlərdən gizlətmək.
D) Öz növbəsində başqasını təhqir etmək.

***29.3. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Kiməsə lağ etmək olar.
B) Psixoloqa müraciət etmək mənasızdır.
C) Öz hisslərini demək düzgün deyil.
D) Heç kim başqasını təhqir edə və alçalda bilməz.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Vüqar niyə özünü pis hiss edirdi? Ona edilən istehza sadəcə söz idi, yoxsa hüquq pozuntusu?
2. "Heç kim səni alçalda, lağ edə və təhqir edə bilməz" cümləsini necə başa düşürsən? Bu, təkcə hüquqi tələbdir, yoxsa həm də mənəvi-əxlaqi prinsipdir?
3. Vüqar əvvəlcə niyə susdu? Səncə, niyə bəzi uşaqlar incidildikdə bunu deməyə çəkinirlər?
4. Psixoloqun müdaxiləsi vəziyyəti necə dəyişdi?
5. Hekayədə Vüqarın davranışı dəyişdi: əvvəl sussa da, sonra danışdı. Bu dəyişiklik nəyin sayəsində baş verdi? Özünə güvən necə formalaşdı?

SİTUATİV SUAL

Təsəvvür et ki, sinfində başqa bir uşağa Vüqara edildiyi kimi lağ edirlər. O, susur və özünü pis hiss edir. Sən nə edərdin: susardın, ona dəstək olardın, yoxsa müəllimə xəbər verərdin? Niyə?

## 30-cu dərs

## Yolverilməz davranış



Fuad hər gün məktəbə həvəslə gedirdi. Amma son zamanlar sinifdə iki şagird ona qarşı qəribə davranmağa başlamışdı. Onlar tənəffüsdə Fuadın çantasını gizlədirdilər, bəzən də kobud sözlər deyir, onu vururdular.

Bir gün məktəbin həyətində kitab oxuyan Fuada həmin uşaqlar yaxınlaşdılar.

- Niyə həmişə tək oturursan? - biri dedi.

- Sənin kitabların kimə lazımdır? - o biri Fuadı itələyərək əlavə etdi.

Fuad susdu, amma ürəyi sıxıldı. Bu sözlər ona psixoloji olaraq təsir edirdi. Elə bu anda sinif rəhbəri Məhluqə müəllim yanlarına gəldi.

- Uşaqlar, burda nə baş verir? - deyə ciddi səslə soruşdu.

Fuad tərəddüd etdi, amma müəllimin baxışında dəstək gördü.

- Onlar mənimlə lağ edirlər, kitabımı gizlədirlər, məni vururlar, - Fuad sakitcə dedi.

Məhluqə müəllim uşaqlara baxaraq:

- Uşaqlar, bu, zorakılıqdır. Siz Fuadı vurmaqla ona qarşı fiziki, lağ etməklə psixi zorakılığa yol verirsiniz. Unutmayın ki, hər bir şagirdin zorakılıqdan müdafiə olunmaq hüququ var. İnsan hüquqlarına zidd hərəkətlər yolverilməzdir. Siz belə hərəkətlərə yol verəndə yalnız qanunu pozmursunuz, həm də dostluğunuzu itirirsiniz.

Uşaqlar başlarını aşağı saldılar. Müəllim onlara qarşılıqlı hörmətin əhəmiyyətini izah etdi. Həmin gündən sonra Fuad məktəbə daha rahat gəlməyə başladı və iki yeni dost qazandı.

***30-cu dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq zorakılıqdan qorunmaq hüququna malikdir.
- İnsan hüquqlarına zidd hərəkətlər dostluğu, etibarı və birlik mühitini pozur.
- Problemi gizlətmək yox, güvəndiyiniz böyüklərlə paylaşmaq düzgün addımdır.

TAPŞIRIQ

***30.1. Məhluqə müəllim uşaqlara nəyi izah etdi?***

A) Sinifdə səs salmamaq lazımdır.
B) Hər bir şagirdin zorakılıqdan müdafiə olunmaq hüququ var.
C) Dərs vaxtı kitab oxumaq olmaz.
D) Oyun oynamaq dostluğu möhkəmləndirir.

***30.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Şagird zorakılıqla qarşılaşdıqda bu barədə susmalıdır. | |
| 2 | Psixoloji zorakılıq da fiziki zorakılıq qədər zərərlidir. | |
| 3 | Hər bir təhsil alan qarşılıqlı hörmət və təhlükəsizlik mühitində olmalıdır. | |
| 4 | İnsan hüquqlarına zidd hərəkətlər yolverilməzdir. | |

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Fuad niyə özünü pis hiss edirdi? Onun üzləşdiyi davranışlarda hansı zorakılıq formaları (fiziki, psixoloji) var idi?
2. Fuad əvvəlcə niyə susurdu? Uşaqların zorakılığa məruz qalmalarını deməkdə çətinlik çəkməsinin səbəbi nə ola bilər?
3. Məhluqə müəllimin “hər bir şagirdin zorakılıqdan müdafiə olunmaq hüququ var” sözlərini necə izah edərdin? Bu hüququn qorunması kimin öhdəliyidir - yalnız müəllimlərin, yoxsa bütün məktəbin?
4. Zorakılıq edən uşaqların davranışı dəyişdi. Bu dəyişiklik cəza qorxusundan, yoxsa zorakılığın yolverilməz olduğunu dərk etmələrindən sonra yarandı? Bu fərqi necə ayırd etmək olar?
5. Hekayənin sonundakı “Fuad iki yeni dost qazandı” cümləsini necə başa düşürsən? Hörmət və empatiya (özünü başqalarının yerinə qoymaq) insanlar arasındakı münasibətləri necə dəyişə bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, sənin sinfində də kimsə Fuad kimi zorakılığa məruz qalır, amma susur. Sən nə edərdin: onu danışıqlara cəlb edərdin, müəllimə xəbər verərdin, yoxsa laqeyd qalardın? Niyə?

## 31-ci dərs

## Elm klubu

Fatimə məktəbdə elmə böyük marağı ilə tanınırdı. O, xüsusilə robot texnologiyalarına həvəsli idi. Bir gün fizika dərsindən sonra müəllim dedi:

- Uşaqlar, Fatimə məktəbimizdə yeni elmi cəmiyyət yaratmağı təklif edir. Kim iştirak etmək istəyir?

Xədicənin gözləri parladı.

- Mən istəyirəm, - dedi.

Sonra daha üç sinif yoldaşı təşəbbüsə qoşulmaq istədiyini bildirdi.




Onlar birlikdə “Elm Klubu” adında bir cəmiyyət yaratdılar. Klubun məqsədi fizika və kimya sahələrində yeni ixtiralar haqqında araşdırmalar aparmaq, məktəbdə sərgilər təşkil etmək və başqa məktəblərlə əməkdaşlıq etmək idi.

Qısa zamanda klubun fəaliyyəti məktəbin mədəni həyatına rəng qatdı. Onlar elmi sərgi keçirdilər, məktəb kitabxanasında “Elm günü” təşkil etdilər. Hətta musiqi dərnəyi ilə birgə robotların ritm üzrə hərəkət etdiyi kiçik bir tamaşa göstərdilər.

Məktəb direktoru tədbirdə çıxış edərək dedi:

- Şagirdlərin yalnız dərslərdə deyil, elmi, ictimai, sosial və mədəni həyatda da iştirak etmək hüququ var. Fatimə və dostlarının yaratdığı “Elm Klubu” buna gözəl nümunədir.

Şagirdlər başa düşdülər ki, bu cür fəaliyyətlər yalnız bilikləri artırmır, həm də dostluqları möhkəmləndirir, yaradıcılığa yol açır.

***31-ci dərsdən nələri öyrəndik?***

- Təhsil alanlar yalnız dərs prosesində deyil, məktəbin ictimai və mədəni həyatında da fəal iştirak edə bilərlər.
- Elmi cəmiyyət və dərnəklərin yaradılması yaradıcılıq və əməkdaşlıq imkanlarını artırır.
- Belə fəaliyyətlər birlik, dostluq və qarşılıqlı hörməti gücləndirir.

**TAPŞIRIQ**

***31.1. Klubun fəaliyyəti məktəbdə nəyi dəyişdi?***

A) Dərsləri ləğv etdi.
B) Uşaqları dərsdən yayındırdı.
C) Mədəni və ictimai həyata rəng qatdı.
D) Müəllimləri dəyişdirdi.

***31.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Təhsil alan yalnız dərslərdə iştirak edə bilər, ictimai fəaliyyətlə məşğul ola bilməz. | |
| 2 | Elmi cəmiyyətlər və dərnəklər yaradaraq məktəb həyatını daha maraqlı etmək mümkündür. | |
| 3 | Təhsil müəssisəsində mədəni tədbirlərdə iştirak etmək şagirdin hüququdur. | |
| 4 | Sosial fəaliyyətlər yalnız müəllimlər üçün nəzərdə tutulub. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Fatimənin yeni elmi cəmiyyət yaratmaq istəyi onun hansı xüsusiyyətini göstərir? Səncə, niyə bəzi şagirdlər təşəbbüs göstərir, digərləri isə gözləməyi üstün tutur?

2. Məktəb direktorunun "şagirdlərin yalnız dərslərdə deyil, elmi, ictimai, sosial və mədəni həyatda da iştirak etmək hüququ var" deməsi nəyi ifadə edir? Bu hüquq məktəb həyatına hansı dəyəri əlavə edir?

3. "Elm Klubu"nun fəaliyyəti məktəbdə hansı dəyişikliklər yaratdı? Bu cür fəaliyyətlər yalnız bilik artırır, yoxsa onların başqa təsirləri də olur? Misal göstər.

4. Klubun robotların ritm üzrə hərəkət etdiyi tamaşa təşkil etməsi elmlə incəsənətin əlaqəsi barədə nə deyir? Səncə, elm yalnız texniki sahədir, yoxsa yaradıcılıqla da bağlıdır?

5. Bu hekayədəki fəaliyyətdən sonra şagirdlər nələri öyrəndilər: yalnız elmi bilikləri, yoxsa eyni zamanda sosial bacarıqları da? Səncə, bu cür işlər gələcək üçün hansı üstünlüklər yaradır?

**SİTUATİV SUAL ?**

Təsəvvür et ki, sən də məktəbdə yeni bir klub və ya dərnək yaratmaq istəyirsən (məsələn, "Kitabsevərlər Klubu", "Yaşıl Planet", "Gənc Jurnalistlər" dərnəkləri). İlkin addımın nə olardı? Kimlə danışardın və niyə?

## 32-ci dərs

# Məktəbdə təmizlik günü

Rüstəm yeddinci sinifdə oxuyurdu. Bu gün riyaziyyat dərsində olduqca vacib mövzu izah olunacaqdı və o, dərsi qaçırmaq istəmirdi. Səhər dərs başlamazdan əvvəl sinif rəhbəri Nuridə müəllim gəlib dedi:

- Uşaqlar, bu gün məktəbin həyətində təmizlik işləri olacaq. Sizdən bir neçənizi ora göndərmək istəyirəm. Rüstəm, Fərid və Samir, siz qalxın, bu gün dərslərdən azadsınız, təmizlik işindən sonra evə gedə bilərsiniz.

Rüstəm bir anlıq susdu. Xatırladı ki, ötən həftə sinifdə hüquqlar mövzusunda söhbət etmişdilər. Orada müəllim demişdi ki, şagirdlərin təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir. Bu o demək idi ki, dərs vaxtı onu dərsdənkənar işə göndərə bilməzlər.

O, cəsarətini toplayıb sakit səslə dedi:



- Nuridə müəllim, məncə bu iş təhsil prosesinə aid deyil. Qaydalara görə, dərs vaxtı biz dərsdə olmalıyıq. Mən dərs bitəndən sonra kömək edə bilərəm.

Müəllim əvvəlcə təəccübləndi, amma sonra gülümsəyərək başını tərpətdi:

- Düz deyirsən, Rüstəm. Sənin hüququnu bilib qorumağın xoşuma gəldi. Hamı öz hüquqlarını bilməli və onları qorumağı bacarmalıdır.

Beləcə, Rüstəm həm dərsini qaçırmadı, həm də özünün və sinif yoldaşlarının hüququnu müdafiə etdi.

***32-ci dərsdən nələri öyrəndik?***

- Dərs vaxtı şagirdlər yalnız təhsil prosesinə aid işlərə cəlb oluna bilərlər.
- Öz hüquqlarını bilən şagird haqsız tələblərlə üzləşəndə düzgün reaksiya verə bilər.
- Müəllim və ya rəhbərlə danışarkən sakit və hörmətli üslubdan istifadə etmək daha effektlidir.
- Qaydalara əməl etmək həm müəllim, həm də şagird üçün faydalıdır. Bu, həm dərsin keyfiyyətini artırır, həm də ədalətli mühit yaradır.

## TAPŞIRIQ

***32.1. Rüstəm müəllimin tapşırığına niyə etiraz etdi?***

A) Təmizlik işini sevmirdi.
B) Dərsdən yayınmaq istəmirdi və bunun qanuna zidd olduğunu bilirdi.
C) Xəstə idi.
D) Müəllimlə mübahisə etmək istəyirdi.

***32.2. Aşağıdakılardan hansı şagirdin hüquqlarına uyğundur?***

A) Dərs vaxtı məktəbin həyətində yarım gün təmizlik işində işləmək.
B) Riyaziyyat dərsində müəllimdən icazəsiz məktəb kitabxanasına getmək.
C) Müəllimin göstərişi ilə dərs vaxtı məktəbdən kənarda alış-veriş etmək.
D) Dərs bitdikdən sonra könüllü olaraq məktəb tədbirində iştirak etmək.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nuridə müəllimin uşaqları dərsdən ayırıb təmizlik işinə göndərməsi şagirdlərin hansı hüququ ilə ziddiyyət təşkil edirdi?
2. “Şagirdlərin təhsil prosesi ilə bağlı olmayan işlərə cəlb edilməsinə yol verilmir” fikrini öz sözlərinlə necə izah edərdin? Səncə, bu qayda niyə vacibdir?
3. Müəllimin Rüstəmə “sənin hüququnu bilib qorumağın xoşuma gəldi” deməsi nəyi göstərir? Hüququnu müdafiə edən uşaq cəzalandırılmalı, yoxsa dəstəklənməlidir?
4. Rüstəm yalnız özünü yox, sinif yoldaşlarını da müdafiə etmiş oldu. Səncə, hüququ bilən bir şagird məktəbdə hansı müsbət dəyişikliklər yarada bilər?

## SİTUATİV SUAL

Təsəvvür et ki, səni də dərs vaxtı “başqa işə kömək etməyə” göndərmək istəyirlər, amma sən dərsi qaçırmaq istəmirsən. Nə edərdin? Sakitcə etiraz edərdin, yoxsa susub gedərdin? Öz seçimini necə əsaslandırardın?

## 33-cü dərs

## Telefon səsi

Onur doqquzuncu sinifdə oxuyurdu. O, texnologiyaya çox maraq göstərirdi və dərs vaxtı da tez-tez telefonunu yoxlamaq istəyirdi. Bir gün ədəbiyyat dərsi gedərkən birdən cibindən zəng səsi gəldi. Müəllim dərhal dərsi saxladı və soruşdu:

- Onur, bu səs nədir?

Onur utana-utana telefonunu cibindən çıxardı. Müəllim sakit səslə izah etdi:

- Bax, məktəbimizin daxili intizam qaydalarında yazılıb ki, dərs vaxtı mobil telefonlardan istifadə etmək olmaz. Bu qaydalar məktəbin nizamnaməsinin bir hissəsidir və hamımız buna əməl etməliyik. Təhsil haqqında qanunda da yazılıb ki, məktəbin daxili intizam qaydalarına əməl etmək şagirdin vəzifəsidir.



Onur başını aşağı saldı:

- Bağışlayın, müəllim, istəmədən oldu, belə diqqətsizlik etməməli idim.

Müəllim gülümsəyərək dedi:

- Sən səhvini anladınsa, deməli öyrəndin. Məktəb qaydaları bizim hamımız üçündür, intizam isə uğurun açarıdır.

O gündən sonra Onur dərs vaxtı telefonunu səssiz rejimə qoyur və yalnız tənəffüs zamanı istifadə edirdi.

***33-cü dərsdən nələri öyrəndik?***

- Təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə, daxili intizam qaydalarına əməl etmək təhsilalanın (şagirdin) vəzifəsidir.
- Dərslərin daha səmərəli keçməsi üçün daxili intizam qaydalarına əməl etmək vacibdir.
- Səhvini anlayan və düzəldən şagird daha məsuliyyətli olur.

**TAPŞIRIQ**

***33.1. Müəllim Onura nəyi izah etdi?***

A) Dərs vaxtı telefondan istifadə etməyin düzgün olmadığını
B) Telefonu dərs mövzusu üçün istifadə edə biləcəyini
C) Qaydaların yalnız müəllimlər üçün keçərli olduğunu
D) Telefondan istənilən vaxt istifadə edə biləcəyini

***33.2. Məktəbin daxili intizam qaydalarına görə aşağıdakılardan hansı düzgün davranışdır?***

A) Dərs vaxtı telefonla sosial şəbəkələrdə yazışmaq.
B) Telefondan tənəffüsdə istifadə etmək.
C) Müəllimin icazəsi olmadan dərs vaxtı sinifdən çıxmaq.
D) Dərs zamanı dostlarla ucadan söhbət etmək.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Onurun telefonunun dərs zamanı zəng çalması niyə problem yaratdı?

2. Müəllimin “intizam uğurun açarıdır” sözünü necə başa düşürsən? Səncə, intizam yalnız cəza qorxusu ilə yaranır, yoxsa şagird özü onun vacibliyini anlamalıdır?

3. Onurun üzr istəməsi və səhvini qəbul etməsi onun hansı müsbət xüsusiyyətini göstərir? Hər kəs səhv edə bilər, amma səhvdən sonra insanın öz səhvinə münasibəti necə olmalıdır?

4. Məktəbdə telefon istifadəsini qadağan edən qaydalar niyə mövcuddur? Bu qadağa şagirdlərin hüquqlarını məhdudlaşdırır, yoxsa onların təhsil hüquqlarını qoruyur?

5. Dərs zamanı telefon istifadə etməklə tənəffüsdə istifadə etməyin fərqi nədir? Texnologiyanın faydalı və zərərli tərəfləri arasında necə balans yaratmaq olar?

## SİTUATİV SUAL

Təsəvvür et ki, sən də dərs zamanı telefondan istifadə etmək istəyirsən, amma bilirsən ki, bu qaydaya ziddir. Sən nə edərdin: gizlincə istifadə edərdin, yoxsa qaydaya əməl edərdin? Niyə? Öz seçimini necə əsaslandırardın?

## 34-cü dərs

# Raufun yeni vərdişi

Rauf altıncı sinifdə oxuyurdu. O, səhərlər tez-tez məktəbə gecikir, idman dərslərində isə tez yorulurdu. Bir gün biologiya müəllimi Sona xanım dərsdə "sağlam həyat tərzi" mövzusunu izah edərkən dedi:

- Uşaqlar, sağlam həyat tərzi keçirmək təkcə sizin sağlamlığınız üçün deyil, həm də dərslərdə uğurlu olmağınız üçün vacibdir. Bu, qanunla hər bir şagirdin vəzifəsidir.

Rauf dərsdən sonra düşündü ki, onun səhərlər yuxulu, gün ərzində halsız olmasının səbəbi gec yatması və səhər yeməyi yeməməsidir. O, dəyişməyə qərar verdi.



Həmin gündən Rauf axşamlar vaxtında yatmağa, səhərlər isə erkən durub yüngül idman hərəkətləri etməyə başladı. Anası hər gün ona sağlam səhər yeməyi hazırlayırdı. Bir neçə həftə sonra Rauf dərslərdə daha diqqətli, idman dərslərində isə daha fəal oldu.

Müəllimi bunu görüb gülümsədi:

- Afərin, Rauf! Sən sağlam həyat tərzinin faydasını hər kəsə göstərə bildin.

Rauf başa düşdü ki, sağlam həyat tərzi keçirmək faydalı olmaqla yanaşı, həm də bir şagird olaraq onun vəzifəsidir.

***34-cü dərsdən nələri öyrəndik?***

- Sağlam həyat tərzi keçirmək şagirdin borcudur. Bu, yalnız şəxsi sağlamlıq üçün deyil, həm də dərslərdə uğurlu olmaq üçün vacibdir.
- Pis vərdişlər məktəbdə yorğunluğa və diqqətsizliyə səbəb olur.
- Sağlam gündəlik rejim şagirdin həm fiziki, həm də zehni gücünü artırır.
- Səhər yeməyi günün enerjili keçməsi üçün əsasdır.

**TAPŞIRIQ**

***34.1. Rauf niyə tez-tez məktəbə gecikirdi?***

A) Çünki məktəb uzaqda idi.
B) Çünki axşamlar gec yatırdı.
C) Çünki idman etmirdi.
D) Çünki dərsləri çox idi.

***34.2. Aşağıdakılardan hansı sağlam həyat tərzinə aiddir?***

A) Gec yatıb səhər yeməyi yeməmək.
B) Tez-tez qazlı içkilər içmək.
C) Hər gün vaxtında yatmaq və yüngül idman etmək.
D) Uzun müddət hərəkətsiz oturmaq.

***34.3. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Sağlam həyat tərzi yalnız idmançılar üçün vacibdir.
B) Dərslərdə uğur sağlamlıqdan asılı deyil.
C) Sağlam həyat tərzi keçirmək şagirdin borcudur və uğura aparır.
D) Sağlamlıq üçün yalnız yemək yemək kifayətdir.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Raufun dərslərdə halsız olması və idman dərsində tez yorulması nədən qaynaqlanırdı? Bu, təkcə tənbəllik idi, yoxsa həyat tərzi ilə bağlı idi?
2. Müəllimin "sağlam həyat tərzi qanunla şagirdin vəzifəsidir" deməsi nəyi göstərir? Sağlamlıq yalnız şəxsi seçimdir, yoxsa həm də sosial məsuliyyətdir?
3. Rauf niyə dəyişməyə qərar verdi? Onu dəyişdirən məcburiyyət idi, yoxsa sağlam həyat tərzinin vacibliyini anlaması?
4. Raufun həyatında etdiyi kiçik dəyişikliklər hansı böyük nəticələrə səbəb oldu?
5. Sağlam həyat tərzi ilə təhsil uğuru arasında necə əlaqə var?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də bəzən yuxusuz qalırsan, səhər yeməyini yemirsən və dərsdə özünü yorğun hiss edirsən. Özünü yaxşı hiss etmək üçün ilk növbədə hansı dəyişikliyi edərdin?

# IV FƏSİL

## Sağlamlığın mühafizəsi hüququ

## 35-ci dərs

## Mədinənin yıxılması

Mədinə beşinci sinifdə oxuyurdu. O, idman dərslərini çox sevirdi. Bir gün məktəbin həyətində estafet yarışı təşkil olunmuşdu. Yarış başlamazdan əvvəl müəllim hamıya dedi:

- Uşaqlar, diqqətli olun, qaçarkən bir-birinizə dəyməyin.

Mədinə sırada dayanıb öz növbəsini gözləyirdi. Növbə ona çatanda bütün sürəti ilə qaçmağa başladı. Son dönüşdə ayağı ilişdi və o, yerə yıxıldı. Ayağında kəskin ağrı hiss etdi və yerə oturaraq ayağını tutdu.



İdman müəllimi dərhal yanına gəldi:

- Tərpənmə, Mədinə!

Müəllim tez təcili tibbi yardım çağırdı. Bir neçə dəqiqə sonra həkim və tibb bacısı gəldi. Həkim Mədinənin ayağını diqqətlə yoxladı:

- Sümüyündə problem yoxdur, amma burxulma ehtimalı var. Gəl, səni tibb otağına aparaq, orada ayağına soyuq kompres qoyarıq.

Mədinə bir az həyəcanlı idi:

- Mən dərslərimdən geri qalacağam?

Tibb bacısı gülümsədi:

- Ən vacibi sənin sağlam olmağındır. Dərsini sonra öyrənə bilərsən, amma ayağına indi qulluq etmək lazımdır.

Mədinənin valideynlərinə də xəbər verildi. Anası gəlib onu evə apardı. Bir neçə günlük fasilədən sonra Mədinə yenidən dərslərinə və idman fəaliyyətinə qayıtdı. O, uşaqların pulsuz tibbi yardım hüququ olduğunu öyrəndi və bu hüququndan istifadə edə bildiyinə sevindi.

***35-ci dərsdən nələri öyrəndik?***

• Hər bir şagirdin tibbi xidmət almaq hüququ var. Məktəbdə qəfil zədə və ya xəstəlik halında tibb bacısı və ya həkim pulsuz tibbi yardım göstərməlidir.

• Sağlamlıq daha önəmlidir. Zədə və ya xəstəlik zamanı dərsə gəlməmək problem deyil, əsas olan müalicə almaq və sağalmaqdır.

• Müəllim və məktəb rəhbərliyi uşağın təhlükəsizliyinə cavabdehdir. Zədə halında dərhal tədbir görmək onların vəzifəsidir.

• Uşağın sağlamlıq problemi olduqda valideyn dərhal xəbərdar edilməlidir.

• Sağlamlıq hüququ hər bir uşağın dövlət tərəfindən təmin edilən əsas hüquqlarındandır.

TAPŞIRIQ

***35.1. Hekayədə əsas hansı fikir ifadə olunur?***

A) Yarışlarda iştirak vacibdir.
B) Sağlamlıq hər şeydən önəmlidir.
C) İdman təhlükəlidir.
D) Müəllimlər səhv etməz.

***35.2. Aşağıdakılardan hansı şagirdin sağlamlıq hüququna aiddir?***

A) Məktəbdə pulsuz tibbi yardım almaq.
B) Dərsə vaxtında gəlmək.
C) Ev tapşırıqlarını vaxtında yerinə yetirmək.
D) Məktəb forması geyinmək.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Mədinənin yıxılması təsadüfi bir hadisə idi, yoxsa yarış zamanı təhlükəsizlik qaydalarına düzgün əməl edilməməsinin nəticəsi idi? Səncə, belə yarışlarda hansı təhlükəsizlik qaydaları vacibdir?
2. Tibb bacısının "dərsini sonra öyrənə bilərsən, amma ayağına indi qulluq etmək lazımdır" deməsi nəyi göstərir? Sağlamlıq niyə təhsildən əvvəl gələn bir dəyər hesab olunur?
3. Mədinə məktəbdə pulsuz tibbi yardım ala bildi. Bu hüququn əsas məqsədi nədir?
4. Valideynlərə xəbər verilməsi hansı məsuliyyət prinsipinə əsaslanır? Məktəb uşağın təhlükəsizliyinə görə tam cavabdehdir, yoxsa ailə də məsuliyyət daşıyır?

SİTUATİV SUAL

Təsəvvür et ki, məktəbdə idman dərsində zədələnən bir dostun var, amma o, "yox, yaxşıyam, tibbi yardım istəmirəm" deyir. Sən ona nə deyərsən?

## 36-cı dərs

## Boya qoxulu sinif

Yeni dərs ilinin ilk günü idi. Turqut və sinif yoldaşları sevinclə məktəbə gəldilər. Onlar sinif otağına girən kimi burunlarına kəskin boya qoxusu gəldi.

- Ay, başım fırlandı, - deyə Xuraman partaya oturdu.

Səid də burnunu tutaraq pıçıldadı:

- Mən də özümü yaxşı hiss etmirəm, qoxu çox güclüdür.

Sinif rəhbəri Nigar müəllim otağa girib uşaqların narahatlığını gördü:



- Uşaqlar, dərhal pəncərələri açın. Görürəm ki, boya qoxusu çox güclüdür. Belə otaqda dərs keçmək təhlükəsiz şəraitdə təhsil almaq hüququnuza uyğun deyil.

O, məktəb rəhbərliyinə yaxınlaşıb məsələni izah etdikdən sonra qərar verildi ki, həmin gün dərs başqa sinif otağında keçirilsin. Yeni otaqda hava təmiz və xoş idi.

Dərs bitəndə Nigar müəllim uşaqlara dedi:

- Təhsil müəssisəsi sizin sağlamlığınıza ziyan vurmayan şərait yaratmalıdır. Bu, sizin hüququnuzdur və biz buna əməl etməyə borcluyuq.

Turqut və sinif yoldaşları başa düşdülər ki, bu qərar onların dərs oxuması üçün daha təhlükəsiz mühit yaratmaq məqsədilə verilib.

***36-cı dərsdən nələri öyrəndik?***

- Sağlam təhsil mühiti şagirdin hüququdur. Məktəb şagirdlər üçün təhlükəsiz və sağlam şəraiti təmin etməlidir.
- Zərərli qoxu və maddələr sağlamlığa ziyan vura bilər. Boya qoxusu, kimyəvi maddələr və s. olan otaqlarda uzun müddət qalmaq (nəfəs almaq) zərərlidir.
- Sağlamlığa zərər ola biləcək hallarda müəllim və məktəb rəhbərliyi dərhal tədbir görməlidir. Problemli mühitdə dərs keçmək əvəzinə daha təhlükəsiz məkan seçilməlidir.

TAPŞIRIQ

***36.1. Nigar müəllim uşaqlara hansı hüquqdan danışdı?***

A) İstirahət hüququndan.
B) Tətil hüququndan.
C) İdmanla məşğul olmaq hüququndan.
D) Həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə təhsil almaq hüququndan.

***36.2. Aşağıdakılardan hansı şagirdin sağlam təhsil mühiti hüququnun təmin edilməsinə nümunədir?***

A) Boya qoxusu olan otaqda dərslərin davam etdirilməsi.
B) Səs-küylü və tozlu sinif otağında dərs keçilməsi.
C) Təhlükəsiz və təmiz hava olan otaqda dərs keçilməsi.
D) Zəif işıqlı otaqda dərslərin davam etdirilməsi.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Sinifdəki boya qoxusu uşaqlar üçün niyə təhlükəli idi? Qoxu yalnız narahatlıq yaradırdı, yoxsa sağlamlıq üçün real təhlükə yaradırdı?

2. Nigar müəllimin “bu şərait təhlükəsiz şəraitdə təhsil almaq hüququnuza uyğun deyil” sözlərini necə başa düşürsən? Təhsil hüququ yalnız “məktəbdə oxumaq” deməkdir, yoxsa təhsil almaq üçün təhlükəsiz şəraitin yaradılması da onun bir hissəsidir?

3. Məktəb rəhbərliyinin dərhal sinif otağını dəyişməsi uşaqların təhsil hüququnun qorunması üçün idi, yoxsa sadəcə narazılığı aradan qaldırmaq üçün atılmış bir addım idi?

4. Səncə, “təhsil müəssisəsi şagirdlərin sağlamlığına ziyan vurmayan şərait yaratmalıdır” fikri təkcə boya qoxusu ilə bağlıdır? Məktəbdə başqa hansı hallarda bu hüquq pozula bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, sinif otağında kəskin qoxu, toz, kif və ya çox soyuq hava var, amma bəziləri “dözüb dərsi keçək” deyir. Sən nə edərdin? Müəllimə xəbər verərdin, yoxsa susardın? Niyə?

## 37-ci dərs

## Nərminin sıxıntısı

Son günlər Nərmin dərslərdə çox sakit idi. Əvvəllər fəal şəkildə suallar verən, dərnəklərə qatılan Nərmin indi tez-tez pəncərədən bayıra baxır, dərsin bitməsini gözləyirdi.

Bir gün sinif rəhbəri Elçin müəllim dərsdən sonra ona yaxınlaşdı:

- Nərmin, səni narahat edən nəsə var? Səni əvvəlki kimi şən və gümrah görmürəm.

Nərmin yavaş səslə cavab verdi:

- Bilmirəm, müəllim. Son vaxtlar dərslərə marağım azalıb, özümü çox yorğun hiss edirəm.

Elçin müəllim dərhal məktəb psixoloqu ilə görüş təklif etdi. Ertəsi gün Nərmin psixoloq Sevinc xanımın kabinetinə getdi. Orada rahat kresloda oturub danışmağa başladı. Sevinc xanım onu diqqətlə dinlədi, məktəbdə və evdə yaşadıqlarını soruşdu. Sonra bir neçə sadə məşq və nəfəs texnikası öyrətdi.



Həftəlik görüşlərdən sonra Nərmin yavaş-yavaş dərslərə yenidən maraq göstərməyə başladı. Sinifdə dostları ilə söhbət edir, dərnəklərə qatılırdı.

Bir gün Sevinc xanım ona dedi:

- Görürsən, kömək istəmək zəiflik deyil. Bu, sənin haqqındır və biz sənə dəstək olmaq üçün buradayıq.

Nərmin gülümsəyərək başını tərpətdi. O, başa düşdü ki, psixoloji yardım almaq da onun sağlamlıq hüququnun bir hissəsidir.

***37-ci dərsdən nələri öyrəndik?***

- Uşağın psixoloji yardım almaq hüququ var. Şagirdlər məktəbdə psixoloqla görüşərək dəstək ala bilərlər.
- Duyğusal və ya psixoloji çətinliklərlə üzləşdikdə mütəxəssisə müraciət etmək vacibdir.
- Şagirdin halında dəyişiklik hiss edildikdə müəllim və məktəb rəhbərliyi vaxtında reaksiya göstərməyə borcludur.
- Daimi dəstək müsbət dəyişiklik yaradır. Mütəmadi görüşlər uşağın özünəinamını və dərsə marağını bərpa edə bilər.
- Sağlamlıq yalnız fiziki deyil, psixoloji rifahı da əhatə edir. Tam sağlamlıq üçün zehni və emosional vəziyyət də vacibdir.

**TAPŞIRIQ**

***37.1. Psixoloqla görüşdən sonra Nərmində hansı dəyişikliklər baş verdi?***

A) Özünə daha çox qapandı.
B) Daha aqressiv oldu.
C) Heç bir dəyişiklik baş vermədi
D) Dərslərə yenidən maraq göstərməyə başladı və dərnəklərə qatıldı.

***37.2. Aşağıdakılardan hansı şagirdin sağlamlıq hüququna daxildir?***

A) Psixoloji dəstək almaq.
B) Məktəb formasını geyinmək.
C) Məktəb bufetindən yemək almaq.
D) İmtahan nəticələrini vaxtında öyrənmək.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Nərmin əvvəl fəal olduğu halda niyə son günlər sakitləşmişdi? Bu dəyişikliyə nə səbəb ola bilərdi?
2. Elçin müəllimin Nərmini dərhal psixoloqa yönləndirməsi nəyi göstərir? Müəllim dərs öyrətməkdən başqa hansı rola malikdir?
3. Psixoloqun "kömək istəmək zəiflik deyil, haqqındır" sözünü necə başa düşürsən? Niyə bəzi uşaqlar psixoloji dəstək almaqdan çəkinirlər?
4. Nərminin vəziyyəti dəyişdi - psixoloji yardım aldıqdan sonra yenidən fəallaşdı. Bu, psixoloji dəstəyin hansı faydalarını göstərir?
5. Səncə, sağlamlıq deyəndə təkcə fiziki sağlamlıq nəzərdə tutulur, yoxsa psixoloji sağlamlıq da bura daxildir? Məktəbdə psixoloqun olması niyə vacibdir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sinfinizdə bir şagird əvvəlki kimi danışmır, tənəffüslərdə kənarda dayanır və dərslərə həvəssiz yanaşır. Sən nə edərdin? Onunla danışardın, müəllimə xəbər verərdin, yoxsa gözləyərdin ki, özü düzəlsin? Niyə?

## 38-ci dərs

# Yardım təklifi

Məktəbin idman zalında təmir işləri gedirdi. Ustalar iri taxta panellər və ağır qutular daşıyırdılar. 8-ci sinif şagirdi Ziya dərsdən sonra zalın yanından keçərkən ustalardan birinin təkbaşına iri qutunu qaldırmağa çalışdığını gördü.

Ziya yaxınlaşıb dedi:

- Əmican, kömək edim, birlikdə qaldıraq.

Usta gülümsədi, amma Ziyanın kömək təklifinə razılıq verməyə bir az tərəddüd etdi. Bu vaxt Zaur müəllim zala daxil oldu. O, idman müəllimi idi. Zaur müəllim Ziyanın ustaya kömək təklif etdiyini eşidib dedi:

- Ziya, dayan! Bu iş sənin sağlamlığın üçün təhlükəlidir. Ağır əşyaları qaldırmaq belinə və əllərinə zərər verə bilər.



Ziya məyus halda:

- Mən sadəcə kömək etmək istədim, - dedi.

Zaur müəllim izah etdi:

- Kömək etmək yaxşı niyyətdir, amma məktəb qaydalarına görə uşaqlar sağlamlıqlarına zərər verə biləcək işlərə cəlb olunmamalıdırlar. Biz bu işi böyüklərlə həll edəcəyik, sən isə istəsən, alətləri səliqəyə salmağa kömək edə bilərsən.

Ziya razılaşdı və alətləri səliqəyə salmağa başladı. Beləcə, o həm kömək etdi, həm də sağlamlığını təhlükəyə atmadı.

***38-ci dərsdən nələri öyrəndik?***

- Sağlamlıq üçün təhlükəli işlərdən uzaq durmaq vacibdir. Uşaqlar ağır əşyalar qaldırmaq və ya riskli işlər görmək məcburiyyətində deyillər.
- Yaxşı niyyət təhlükəsiz olmalıdır. Kömək etmək istəyi gözəldir, amma sağlamlığa zərər verməməlidir.
- Uşaqlar təhlükəli işlərə cəlb olunmamaq hüququna malikdirlər.
- Müəllimlər uşaqları təhlükəli işlərdən çəkindirməlidirlər.

TAPŞIRIQ

***38.1. Məktəb qaydalarına görə uşaqlar hansı işlərə cəlb olunmamalıdırlar?***

A) Əyləncəli tədbirlərə.
B) İdman yarışlarına.
C) Təhlükəsiz olmayan, sağlamlığa zərər verə biləcək işlərə.
D) Kitab oxuma fəaliyyətlərinə.

***38.2. Aşağıdakılardan hansı sağlamlıq üçün təhlükəli işlərə nümunədir?***

A) Məktəb tədbirində şeir söyləmək.
B) Ağır qutular qaldırmaq.
C) Kitab rəflərini düzəltmək.
D) Sinifdə stulları səliqəyə salmaq.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Ziya ustaya niyə kömək etmək istədi? Onun davranışı yaxşı niyyət idi, yoxsa təhlükəli qərar? Bu iki anlayış arasındakı fərqi necə izah edərdin?
2. Zaur müəllimin "bu iş sənin sağlamlığın üçün təhlükəlidir" deməsi hansı qaydanı xatırladır? Uşaqlar hansı işlərə cəlb olunmamalıdırlar və niyə?
3. Ağır əşyaları qaldırmaq niyə uşaqlar üçün təhlükəli sayılır? Bu, sadəcə güc məsələsidir, yoxsa bədənin inkişafı ilə bağlı xüsusi risklər var?
4. Ziya ustaya kömək etmək istədi. Zaur müəllimin müdaxiləsi ona nəyi öyrətdi: kömək etməmək lazım olduğunu, yoxsa təhlükəsiz kömək etməyin yolunu?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sənin də məktəbində işçilərdən biri ağır əşya daşıyır və səndən kömək istəyir. Sən nə edərdin: dərhal kömək edərdin, yoxsa kömək üçün başqa alternativ təklif edərdin? Seçimini necə əsaslandırardın?

## 39-cu dərs

# Futbol turniri

Məktəbdə hər il keçirilən futbol turniri yaxınlaşırdı. Faiq müəllim bu barədə idman dərsində elan etdi:

- Uşaqlar, bu il turnirə bütün siniflər qatılacaq. İstəyən hər kəs iştirak edə bilər.

9-cu sinifdən Rəsul da iştirak etmək istəyirdi. O, hərəkət məhdudiyyəti olan bir şagird idi və uzun məsafəni qaçmaqda çətinlik çəkirdi. Bunu eşidən bəzi uşaqlar tərəddüd etdilər:

- Rəsul necə oynayacaq ki? - deyə Məhəmməd soruşdu.

Faiq müəllim gülümsəyərək izah etdi:



- Rəsul üçün xüsusi oyun qaydaları tətbiq edəcəyik. O, qapıda oynayacaq və qoruduğu qapı nisbətən kiçik olacaq. Əsas məqsədimiz birlikdə oynamaq və əylənməkdir. Hamını eyni fəaliyyətə cəlb etmək sosial bərabərliyi təmin edir. Buna inklüziv yanaşma deyirlər.

Turnir günü gəldi. Rəsul qapıda dayanaraq bir neçə təhlükəli zərbəni qaytara bildi. Hər kəs onu alqışladı. Oyundan sonra Rəsul sevinc içində dedi:

- Mən də komandanın bir hissəsi olduğumu hiss etdim!

Faiq müəllim isə əlavə etdi:

- İdman və bədən tərbiyəsi hər bir uşağın hüququdur. Biz, sadəcə, qaydaları elə uyğunlaşdırırıq ki, bu hüquqdan hamı, o cümlədən fiziki məhdudiyyətli uşaqlar da istifadə edə bilsin.

***39-cu dərsdən nələri öyrəndik?***

- İdman hər bir uşağın hüququdur. Fiziki imkanlarından asılı olmayaraq hər kəs idman və bədən tərbiyəsi fəaliyyətinə qatılmaq imkanı əldə etməlidir.
- Qaydalar uyğunlaşdırıla bilər. Xüsusi ehtiyacı olan uşaqlar üçün oyun qaydaları onların iştirakına şərait yaradacaq şəkildə dəyişdirilə bilər.
- Komandada olmaq həm əyləncə, həm də inkişafdır. İdman uşaqlar arasında dostluq, əməkdaşlıq və qarşılıqlı hörməti gücləndirir.
- İnklüziv yanaşma önəmlidir. Hamını eyni fəaliyyətə cəlb etmək sosial bərabərliyi təmin edir.
- Müəllimin dəstəyi mühümdür. Müəllimlər xüsusi qaydalar tətbiq edərək uşaqların özünü dəyərli hiss etməsinə kömək edə bilərlər.

TAPŞIRIQ

***39.1. Faiq müəllimin Rəsul üçün oyun qaydalarını uyğunlaşdırması hansı yanaşmanı əks etdirir?***

A) Rəqabət.
B) Qadağa.
C) Cəza.
D) İnklüzivlik.

***39.2. Aşağıdakılardan hansı inklüziv idman tədbirinə nümunədir?***

A) İdman yarışına yalnız ən güclü uşaqları seçmək.
B) Xüsusi ehtiyacı olan uşaqlar üçün uyğunlaşdırılmış qaydalar tətbiq etmək.
C) Məktəb tədbirlərində yalnız fiziki baxımdan sağlam uşaqları oynatmaq.
D) Yarış zamanı bəzi uşaqları kənarda saxlamaq.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Bəzi uşaqlar niyə Rəsulun futbol oynaya bilməyəcəyini düşündülər? Onların yanaşması hansı yanlış təsəvvürdən qaynaqlanırdı?
2. Faiq müəllimin “qaydaları uyğunlaşdırmaq” qərarı nəyi göstərir: məcburi güzəşti, yoxsa bütün uşaqların bərabər hüquqa sahib olmasını?
3. Rəsulun oyunda iştirak edib topu qaytarması nələri sübut etdi: onun bacarığını, yoxsa ona imkan yaradılmasının nə qədər vacib olduğunu?
4. “İdman və bədən tərbiyəsi hər bir uşağın hüququdur” cümləsini necə başa düşürsən? İştirak etmək hüququ yalnız fiziki cəhətdən güclü uşaqlara aid olmalıdırmı?
5. Hekayədə “inklüziv” sözü işlədilir. Səncə inklüziv təhsil və inklüziv idman nə deməkdir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sinfinizdə başqa bir şagird də müəyyən çətinliklərə görə idman fəaliyyətinə qoşulmaqda tərəddüd edir. Sən ona necə dəstək olardın? Komandaya hansı sözləri deyərdin ki, hamı onu qəbul etsin?

## 40-cı dərs

# Qazlı içkilər

Rəşid məktəb yaxınlığındakı marketin daimi müştərilərindən idi. O, demək olar ki, hər gün dərs fasiləsində marketdən qazlı içki alır, yanında da çipsi yeyirdi. Dostları bəzən ona deyirdilər:

- Rəşid, bu qədər qazlı içki sənə ziyan deyil?

Rəşid isə gülərək cavab verirdi:

- Narahat olmayın, mənə heç nə olmaz.

Bir gün biologiya dərsində müəllim "sağlam qidalanma" mövzusunu izah edirdi. Müəllim lövhədə şəkillərlə qazlı içkilərin, çox şəkərli qidaların və çipsilərin insan sağlamlığına zərərlərini göstərdi.



Dərsdən sonra Rəşid müəllimin yanına gəlib soruşdu:

- Müəllim, doğrudan da qazlı içkilər və çipsi belə ziyanlıdır?

Müəllim başı ilə təsdiqlədi:

- Bəli, Rəşid. Onlar sənin dişlərinə, mədənə və ümumi sağlamlığına zərər verir. Sağlam həyat tərzinə əməl etmək həm də sənin vəzifəndir.

Həmin gündən Rəşid qazlı içki əvəzinə təzə sıxılmış meyvə şirəsi almağa başladı. Dostları onun bu dəyişikliyinə təəccübləndilər. O isə gülümsəyərək dedi:

- Sağlam olmaq üçün düzgün seçim etmək lazımdır.

***40-cı dərsdən nələri öyrəndik?***

- Sağlam həyat tərzinə əməl etmək şagirdin vəzifəsidir. Qida seçimində sağlamlığa faydalı məhsullara üstünlük verilməlidir.
- Qazlı içkilər və zərərli qidalar sağlamlığa mənfi təsir göstərir. Onlar dişlərə, mədəyə və ümumi orqanizmə ziyan vurur.
- Kiçik dəyişikliklər böyük fayda gətirir. Zərərli içkini sağlam içki ilə əvəz etmək uzunmüddətli sağlamlıq qazandırır.
- Müəllimlərin maariflendirici rolu böyük əhəmiyyət daşıyır. Onlar şagirdlərə sağlam həyat tərzinin vacibliyini aşılayırlar.

TAPŞIRIQ

***40.1. Aşağıdakılardan hansı sağlam həyat tərzinə uyğun davranışdır?***

A) Hər gün qazlı içki içmək.
B) Çipsi və şirniyyatları gündəlik qida kimi qəbul etmək.
C) Qazlı içkini təbii meyvə şirəsi ilə əvəz etmək.
D) Səhər yeməyindən imtina edib yalnız “fast-food” yemək.

***40.2. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Nə içdiyimizin və yediyimizin fərqi yoxdur.
B) Sağlam qidalanmaq uşaqlar üçün vacib deyil.
C) Sağlam qidalanmaq üçün qida seçimini düzgün etmək lazımdır.
D) Qazlı içkilər enerji mənbəyidir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Rəşid niyə qazlı içkilərin ziyanlı olmadığını düşünürdü? Bu, məlumat azlığından irəli gəlirdi, yoxsa “mənə heç nə olmaz” düşüncəsindən?
2. Müəllimin dərsdə şəkillərlə izah etməsi Rəşidə necə təsir etdi? Səncə, məlumatın düzgün şəkildə verilməsi davranışı dəyişə bilərmi?
3. “Sağlam həyat tərzinə əməl etmək sənin vəzifəndir” cümləsini necə başa düşürsən? Sağlamlıq yalnız hüquqdur, yoxsa həm də vəzifə?
4. Rəşidin qazlı içkidən meyvə şirəsinə keçməsi kiçik dəyişiklik kimi görünsə də, hansı böyük nəticələrə səbəb ola bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostlarından biri şirniyyat və qazlı içkidən çox istifadə edir, amma “mən sağlamam, mənə heç nə olmaz” deyir. Sən ona necə məsləhət verərdin?

## 41-ci dərs

## Soyuqdəymə

İnci səhər yuxudan qalxanda burnu tutulmuşdu, başı da bir az ağrıyırdı. Buna baxmayaraq, o, məktəbə getmək qərarına gəldi. “Bir az dözərəm, dərsləri buraxmaq istəmirəm” - deyə düşündü.

Sinifdə müəllim dərs izah edirdi, amma İnci tez-tez öskürür və burnunu silirdi. Sıra yoldaşı narahat halda dedi:

- İnci, sən özünü yaxşı hiss etmirsən, bəlkə evə gedəsən?

Müəllim bunu eşidib yaxınlaşdı:

- İnci, sən xəstəsən. Belə halda məktəbdə qalmaq həm sənə, həm də digər şagirdlərə zərər verə bilər. Mən indi valideynlərinə zəng edəcəyəm.



Bir qədər sonra anası gəldi və İncini evə apardı. Evdə istirahət etdikdən sonra İnci özünü daha yaxşı hiss etdi. Bir neçə gün sonra isə sağlam şəkildə məktəbə qayıtdı.

Müəllim sinifə üz tutaraq dedi:

- Uşaqlar, yadınızda saxlayın: xəstə olanda istirahət etmək vacibdir. Bu, həm sizin, həm də dostlarınızın sağlamlığı üçündür.

***41-ci dərsdən nələri öyrəndik?***

- Xəstə halda məktəbə getmək düzgün deyil. Bu, həm öz sağlamlığına, həm də başqalarının sağlamlığına zərər verə bilər.
- İstirahət və müalicə vacibdir. Sağalmağın ən yaxşı yolu vaxtında istirahət etmək və həkim göstərişinə əməl etməkdir.
- Məktəb müəllimləri məsuliyyət daşıyırlar. Müəllim şagirdin vəziyyətini görüb valideynlərinə xəbər verməlidir.
- Digərlərinin sağlamlığına hörmət etmək lazımdır. Yoluxucu xəstəlik zamanı başqalarını qorumaq da şagirdin vəzifəsidir.

TAPŞIRIQ

***41.1. İncinin xəstə halda dərsə gəlməsinin hansı nəticələri ola bilərdi?***

A) Heç bir mənfi nəticəsi olmazdı.
B) Sinif yoldaşları onunla daha mehriban olardı.
C) Daha tez sağalardı.
D) Xəstəliyi ağırlaşar və sinif yoldaşlarını da yoluxdura bilərdi.

***41.2. Şagird özünü xəstə hiss etdikdə nə etməlidir?***

A) Məktəbə getməli və dərsdə iştirak etməlidir.
B) Özünü güclü göstərməyə çalışmalıdır.
C) Evdə istirahət etməli və müalicə olunmalıdır.
D) Dostları ilə oyun oynamalıdır.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. İnci niyə xəstə olsa da məktəbə getmək istədi? Onun bu qərarı məsuliyyətli davranış idi, yoxsa düşünülməmiş addım?

2. Müəllimin "bu, həm sənə, həm də digər şagirdlərə zərər verə bilər" deməsi nəyi göstərir? Sağlamlıq sadəcə şəxsi məsələdir, yoxsa burada ictimai məsuliyyət də var?

3. Xəstə halda məktəbə gəlmək hansı təhlükələr yarada bilər? Təkcə öyrənməyə mane olur, yoxsa başqalarının sağlamlığını da riskə atır?

4. İnci evdə istirahət etdikdən sonra daha tez sağaldı. Bu fakt nəyi göstərir: xəstə halda dərsə davam etmək vacibdir, yoxsa sağlamlığı bərpa etdikdən sonra yenidən dərslərə qatılmaq?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də özünü yaxşı hiss etmirsən, amma vacib dərsin var və yüksək qiymət almaq istəyirsən. Nə edərsən: məktəbə gedərsən, yoxsa evdə qalarsan? Qərar verərkən hansı dəyərləri nəzərə alardın?

## 42-ci dərs

## Həkim yoxlaması

Məktəbdə hər ilin sonunda profilaktik tibbi müayinə keçirilirdi. Bu gün də həkimlər məktəbə gəlmişdilər. Şagirdlər sıra ilə müayinə aparılan otağa girirdilər: onların boyu, çəkisi ölçülür, gözləri və qulaqları yoxlanılırdı.



Təbriz müayinə sırasına yaxınlaşanda bir az tərəddüd etdi. O, dostuna pıçıldadı:

- Mən getmək istəmirəm, həkimlərdən xoşum gəlmir.

Müəllimi bunu eşidib sakitcə ona yaxınlaşdı:

Təbriz, bu müayinə sənin sağlamlığın üçündür. Həkimlər problemi vaxtında aşkar etsələr, onun qarşısını almaq daha asan olar.

Təbriz utana-utana otağa girdi. Həkim mehribanlıqla soruşdu:

- Narahat olma, sadəcə boyunu və çəkini ölçəcəyik, bir də kiçik müayinə edəcəyik.

Müayinə bitəndən sonra Təbriz yüngülləşmiş halda çıxdı:

- Həqiqətən heç də qorxulu deyilmiş.

Müəllim gülümsəyərək sinifə üz tutdu:

- Uşaqlar, unutmayın: profilaktik tibbi müayinələrdə iştirak etmək sizin vəzifənizdir. Bu, sağlamlığınızı qorumaq üçün çox vacibdir.

***42-ci dərsdən nələri öyrəndik?***

• Profilaktik tibbi müayinələr vacibdir. Müayinələr uşaqların sağlamlığında ola biləcək problemlərin qarşısını vaxtında almağa kömək edir.

• Həkimdən çəkinmək lazım deyil. Tibbi yoxlamalar uşaqlar üçün sadə və təhlükəsizdir.

• Müayinə şagirdin vəzifəsidir. Məktəbin təşkil etdiyi sağlamlıq yoxlamalarında iştirak etmək hər bir şagirdin borcudur.

• Müəllimlər və həkimlər uşaqların sağlamlığına cavabdehdirlər. Onların dəstəyi uşaqların qorxusunu azaldır və sağlamlıq qayğısını gücləndirir.

TAPŞIRIQ

***42.1. Müəllim sonda uşaqlara nəyi xatırlatdı?***

A) Dərslərə vaxtında gəlməyin zəruri olduğunu.
B) Müayinələrdə iştirak etməyin uşaqların vəzifəsi olduğunu.
C) Bufetdə sağlam yemək seçməyin vacibliyini.
D) Həkimlərə sual verməyin yolverilməz olduğunu.

***42.2. Profilaktik tibbi müayinələrin əsas məqsədi nədir?***

A) Şagirdlərin dərslərdən yayınmasına imkan yaratmaq.
B) Uşaqların sağlamlığında problemləri vaxtında aşkar etmək.
C) Şagirdlərin boy və çəkilərini sinifdə müqayisə etmək.
D) Həkimlərin uşaqlarla tanış olması.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Təbriz niyə müayinə olunmaq istəmirdi? Onun qorxusu real təhlükəyə əsaslanırdı, yoxsa məlumatsızlığa?
2. Müəllimin "bu müayinə sənin sağlamlığın üçündür" deməsi tibbi yoxlamaların hansı əsas məqsədini göstərir? Səncə, müayinə etmək xəstəlik tapmaq üçündür, yoxsa sağlamlıq vəziyyətini yoxlamaq üçün?
3. Həkimin mehriban davranışı Təbrizin fikrini necə dəyişdi?
4. Müayinə bitəndən sonra Təbrizin "heç də qorxulu deyilmiş" deməsi nəyin nəticəsidir: həkimin işinin, yoxsa öz təcrübəsinin dəyişməsinin?
5. "Profilaktik müayinələrdə iştirak etmək sizin vəzifənizdir" cümləsini necə başa düşürsən? Sağlamlıq həm hüquq, həm də vəzifə ola bilərmi?

SİTUATİV SUAL

Təsəvvür et ki, sənin sinfində də şagirdlərdən biri müayinədən qorxur və "müayinəyə getmək istəmirəm" deyir. Sən ona nə deyərdin?

# V FƏSİL

## Mülki hüquqlar

## 43-cü dərs

# Dövlətin qayğısı

Bir gün müəllim sinifdə uşaqlara dedi:

- Uşaqlar, bilin ki, hər birinizin valideynləri var və onlar sizi böyüdürlər. Amma bəzən elə hallar olur ki, uşağın valideynləri vəfat edir, ya da valideynlər uşağı tərbiyə etməkdən boyun qaçırırlar. Belə hallarda dövlət həmin uşağı tək buraxmır. Uşaqların üzərində qəyyumluq və himayəçilik təyin olunur.

Uşaqlar diqqətlə qulaq asırdılar. Birdən Sənan əlini qaldırdı:

- Müəllim, bəs qəyyumluq və himayəçilik nədir?

Müəllim mehribanlıqla cavab verdi:



- Çox gözəl sualdır, Sənan. Qəyyumluq o deməkdir ki, on dörd yaşı tamam olmamış uşaq üçün dövlət bir böyüyü, yəni qəyyumu təyin edir. Qəyyum uşağın qanuni nümayəndəsi olur və onun adından lazım olan işləri görür, məsələn, müqavilə bağlayır.

Müəllim danışmağa davam etdi:

- On dörd yaşından on səkkiz yaşına qədər isə uşağın üzərində himayəçilik təyin olunur. Himayəçi uşağın tam müstəqil edə bilmədiyi işlərdə ona kömək edir. Məsələn, uşaq hər hansı bir müqavilə bağlamaq istədikdə həmin müqaviləni himayəçinin yazılı razılığı ilə bağlayır.

Damla da maraqla soruşdu:

- Yəni dövlət heç vaxt uşaqları tək qoymur?

Müəllim gülümsədi:

- Əlbəttə, uşaqların təhlükəsizliyi və hüquqları hər zaman qorunur. Valideynlər olmadıqda və ya öz vəzifələrini yerinə yetirmədikdə, uşaqların yanında qəyyum və ya himayəçi olur ki, onların hüquqları pozulmasın.

Müəllimin izahı uşaqlarda əminlik yaratdı ki, dövlət onları heç vaxt müdafiəsiz qoymur.

***43-cü dərsdən nələri öyrəndik?***

- Uşaqlar valideyn himayəsindən məhrum olduqda dövlət onların yanında olur.
- Qəyyumluq -14 yaşınadək uşaqlar üçün təyin edilir, qəyyum uşağın qanuni nümayəndəsidir.
- Himayəçilik -14 yaşdan 18 yaşınadək uşaqlar üçün təyin edilir. Uşaq hər hansı bir müqavilə bağlamaq istədikdə həmin müqaviləni himayəçinin yazılı razılığı ilə bağlayır.
- Qəyyumluq və himayəçilik uşağın hüquqlarını qorumaq üçündür.

TAPŞIRIQ

***43.1. Uşaqlar valideyn himayəsindən məhrum olduqda dövlət hansı tədbiri görür?***

A) Onları tək qoyur.
B) Uşaqları başqa şəhərə köçürür.
C) Yalnız müəllimlərə tapşırır.
D) Qəyyumluq və ya himayəçilik təyin edir.

***43.2. Qəyyumluq neçə yaşınadək uşaqlara təyin olunur?***

A) 14
B) 16
C) 15
D) 17

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səncə, müəllim niyə bu mövzunu izah etdi? Uşaqların qəyyumluq və himayəçilik haqqında məlumatlı olması hansı baxımdan vacibdir?
2. Müəllimin "dövlət uşağı tək buraxmır" deməsi nəyi göstərir?
3. Qəyyum və ya himayəçi hansı hallarda uşağın həyatında zəruri olur? Bu, yalnız valideyn ölümü zamanı baş verir, yoxsa başqa hallarda da ola bilər?
4. Damlanın "yəni dövlət heç vaxt uşaqları tək qoymur?" sualı hansı duyğunu ifadə edir? Bu hekayə uşaqlara hansı hissi aşılayır?

SİTUATİV SUAL

Təsəvvür et ki, sinfinizə yeni bir şagird gəlir. Məlum olur ki, onun qəyyumu var. Sən ona fərqli yanaşarsan, yoxsa digər uşaqlar kimi qəbul edərsən? Niyə?

## 44-cü dərs

# Elşənin qəyyumu

Elşən 13 yaşında idi. Təəssüf ki, valideynləri vəfat etmişdi və çox kədərlənirdi. Bir müddət nənəsinin yanında qalsa da, dövlət qərara aldı ki, onun üzərində qəyyumluq təyin edilsin.

Bir gün Elşən məktəbdən qayıdanda qapıda onu mehriban bir insan qarşıladı. Bu, onun yeni qəyyumu Ənvər müəllim idi. Ənvər müəllim mehribanlıqla dedi:

- Elşən, narahat olma. Mən sənin qəyyumun kimi həm dərslərinə kömək edəcəyəm, həm də sənin sağlamlığın, inkişafın və xoşbəxtliyin üçün çalışacağam.



Elşən bir az utana-utana soruşdu:

- Siz həqiqətən mənə valideynim kimi qayğı göstərəcəksinizmi?

Ənvər müəllim başı ilə təsdiqlədi:

- Əlbəttə, oğlum. Qəyyum kimi mənim əsas vəzifəm səni tərbiyə etmək, sənin sağlamlığına, fiziki və psixi inkişafına qayğı göstərməkdir.

Həmin gündən Elşənin həyatı dəyişdi. Ənvər müəllim onunla idmana gedir, kitab oxuyur, dərslərinə kömək edir, birlikdə gəzintiyə çıxırdı. Bundan sonra Elşən özünü daha güvəndə hiss etdi və düşündü:

“Valideynlərim olmasa da, mənim hüquqlarımı qoruyan bir qəyyumum var. Mən tək deyiləm.”

***44-cü dərsdən nələri öyrəndik?***

- Uşağın qəyyumu və ya himayəçisi onun hüquqlarını qorumağa borcludur.
- Qəyyum (himayəçi) uşağın sağlamlığına, fiziki, psixi, mənəvi və əxlaqi inkişafına qayğı göstərməlidir.
- Uşaqlar hər zaman sevgi, qayğı və himayə altında böyüməlidirlər.
- Dövlət valideyn himayəsindən məhrum olmuş uşaqları heç vaxt tək qoymur, onlara qəyyum və ya himayəçi təyin edir.

TAPŞIRIQ

***44.1. Elşən üçün niyə qəyyumluq təyin olunmuşdu?***

A) Çünki o, məktəbi dəyişmişdi.
B) Çünki valideynlərini itirmişdi.
C) Çünki çox dərs buraxırdı.
D) Çünki başqa şəhərə köçmüşdü.

***44.2. Qəyyumun əsas vəzifəsi nədir?***

A) Uşağın qayğısına qalmaq, onun adından zəruri işləri görmək.
B) Uşağa dərs öyrətmək.
C) Uşağı başqa şəhərə aparmaq.
D) Uşağın yalnız dostları ilə görüşməsinə icazə vermək.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Elşən niyə özünü tək hiss edirdi? Onun yaşadığı vəziyyət hansı emosional ehtiyacları ortaya çıxarırdı?
2. Ənvər müəllimin "mən sənin sağlamlığın, inkişafın və xoşbəxtliyin üçün çalışacağam" deməsi qəyyumluğun yalnız hüquqi yox, həm də insani tərəflərini necə göstərir?
3. Qəyyumun əsas vəzifələri hansılardır? Bu vəzifələr sadəcə "uşağı qorumaq" deməkdir, yoxsa həm də onu böyütmək, inkişaf etdirmək, ona yüksək dəyərlər aşılamaq deməkdir?
4. Elşənin "mən tək deyiləm" deməsi hansı dəyişikliyi göstərir: sadəcə kiminləsə yaşamasını, yoxsa onda güvən hissinin bərpa olunmasını?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sinifinizdə Elşən kimi qəyyumluqda olan bir uşaq var. Sən ona necə yanaşardın: fərqli münasibət göstərərdin, yoxsa onu digər uşaqlarla bərabər görərdin? Hansı davranış daha çox insanlıq və həmrəylik prinsiplərinə uyğundur?

## 45-ci dərs

# Azadın alış-verişi

Azad 12 yaşındaydı. O, kitab oxumağı çox sevirdi və yeni çıxmış "Sehrli dünya" adlı nağıl kitabını almaq istəyirdi. Bir gün məktəbdən sonra yaxınlıqdakı kitab mağazasına getdi.

Satıcı mehribanlıqla soruşdu:

- Oğlum, nə axtarırsan?

Azad göstərdi:

- Mən bu kitabı almaq istəyirəm. Pulunu öz cib xərclərimdən yığmışam.




Satıcı kitabı kassaya apardı və Azad kitabların pulunu ödədi. Evə qayıdanda anası soruşdu:

- Azad, bu kitabı haradan aldın?

- Mağazadan özüm aldım. Axı mən cib xərclərimdən pul yığmışdım, - deyə Azad cavab verdi.

Anası gülümsəyərək dedi:

- Düz etmisən. Sənin artıq on iki yaşın var və sən kitab, dəftər, qələm almağı və digər kiçik alış-verişləri özün edə bilərsən. Daha böyük alış-verişləri sənin adından mən və atan edə bilər. Qanuna görə, 7 yaşından 14 yaşınadək olan uşaqlar xırda məişət əqdlərini müstəqil bağlaya bilərlər, yəni sənin kimi mağazaya gedib kitab, top və bu kimi əşyaları sərbəst ala bilərlər.

Azad öz hüquqları haqqında yeni bir məlumat öyrəndiyinə sevindi və anasına təşəkkür etdi.

***45-ci dərsdən nələri öyrəndik?***

- 7–14 yaşlı uşaqlar xırda məişət əqdləri bağlaya bilərlər, məsələn, kitab, dəftər, qələm, top və digər kiçik əşyaları müstəqil ala bilərlər.
- Daha böyük alış-verişlər valideynlərin razılığı ilə edilir. Məsələn, daşınmaz əmlak, bahalı əşyalar və sair almaq yalnız valideyn və ya qəyyum vasitəsilə mümkündür.
- Cib xərclərindən istifadə etmək uşağın hüququdur. Valideynin verdiyi cib xərcləri ilə uşaq gündəlik ehtiyaclarını təmin edə bilər.
- Valideynlərin rolu nəzarət və dəstəkdir. Onlar uşağın hüquqlarını izah edir və daha böyük məsuliyyət tələb edən əməliyyatlarda kömək edirlər.

TAPŞIRIQ

***45.1. Anası Azada nəyi izah etdi?***

A) 7–14 yaş arası uşaqlar xırda alış-verişləri özləri edə bilərlər.
B) Uşaqlar alış-veriş edə bilməzlər.
C) 18 yaşdan aşağı uşaqlar heç nə ala bilməzlər.
D) Uşaqlar yalnız valideynlərlə birlikdə mağazaya gedə bilərlər.

***45.2. Azad bu hadisədən nəyi öyrəndi?***

A) Pul xərcləməyin düzgün olmadığını.
B) Qanunu pozduğunu.
C) Bəzi işləri artıq müstəqil görə biləcəyini.
D) Kitabların bahalı olduğunu.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Heç kimin, o cümlədən valideynlərinin iştirakı olmadan Azadın təkbaşına kitab alması onun hansı bacarığının və hüququnun formalaşdığını göstərir? Bu davranış gələcəkdə hansı müstəqillik vərdişlərinə kömək edə bilər?
2. Niyə qanun 7–14 yaş arası uşaqlara yalnız "xırda məişət əqdlərini" müstəqil bağlamağa icazə verir? Səncə, bu məhdudiyyət uşağı qorumaq üçündür, yoxsa ona əngəl yaratmaq?
3. Səncə, uşaq nə vaxt daha böyük maliyyə qərarları verməyə hazır sayıla bilər?
4. Uşaq öz hüququnu bilməsəydi, məsələn, mağazada ona "sən təkbaşına kitab ala bilmərsən" deyilsəydi, hansı çətinliklərlə qarşılaşardı? Hüququ bilmək uşağı hansı hallarda qoruyur?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də 12 yaşındasan və ilk dəfə tək alış-veriş edəcəksən. Səncə, hansı hissləri yaşayardın: həyəcan, qorxu, məsuliyyət, yoxsa qürur? Niyə?

## 46-cı dərs

## Yasəmən və bank kartı

Yasəmən 15 yaşında idi. O, musiqi kursuna gedirdi və valideynləri ona hər ay cib xərcliyi verirdilər. Bir gün Yasəmən atasına dedi:

- Ata, mən cib xərcliklərimi yığıram. Qorxuram ki, birdən pulumu itirərəm. İstəyirəm bankda hesab açım.

Atası gülümsədi:

- Çox yaxşı fikirdir, qızım. Amma unutma ki, qanuna görə sən hələ 18 yaşına çatmamısan deyə, sənin adına bank hesabı valideynlərinin, yəni bizim razılığımızla açıla bilər. O halda da bank kartı sənə verilə bilməz, ondan bizim razılığımızla istifadə edə bilərsən. Amma ən yaxşısı banka gedib daha dəqiq məlumat almağımızdır.




Ertəsi gün Yasəmən və atası banka getdilər. Bank əməkdaşı izah etdi:

- 14 yaşınadək uşaqlar adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar hesab aça bilərlər. 14 yaşdan yuxarı uşaqların bankda hesab açması üçün isə həmin şəxslərin razılığı tələb olunur.

- Bəs, mənim adıma hesab açıb Yasəmənə əlavə kart verilməsi mümkündürmü? - Yasəmənin atası dedi.

- Əlbəttə, mümkündür. Hesab sizin adınıza açıla və uşağa ayrıca kart verilə bilər. Siz həmin karta istədiyiniz gündəlik limiti, məsələn, 10 manat təyin edə bilərsiniz.

Atası sənədləri imzaladı, Yasəmən isə sevinclə kartını aldı. Evə qayıdanda anası soruşdu:

- Necə oldu, qızım?

- Çox gözəl, ana! Artıq mənim də bank kartım var. Hər gün müəyyən qədər puldan istifadə edə biləcəyəm.

Anası sevincək dedi:

- Əhsən sənə! Bu həm təhlükəsizdir, həm də səni puldan düzgün istifadə etməyə öyrədəcək.

***46-cı dərsdən nələri öyrəndik?***

- 14 yaşınadək uşaqların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar hesab aça bilərlər.
- 14 yaşdan böyük uşaqlar yalnız valideynlərin, övladlığa götürənlərin və ya qəyyumların yazılı razılığı ilə bankda hesab aça və ondan istifadə edə bilərlər.
- 14 yaşdan yuxarı uşaqlar üçün əlavə imkanlar var: hesab valideynin adına açılsa da, uşağa əlavə kart verilə, valideyn isə əlavə karta limit təyin edə bilər.

TAPŞIRIQ

***46.1. 14 yaşdan yuxarı bir uşağa hansı halda bank kartı verilə bilər?***

A) Uşaq özü banka gedib müstəqil müraciət edəndə.
B) Hesab valideynin adına açıldıqda və valideyn uşağa əlavə kart verdikdə.
C) Uşağın müəllimi banka müraciət etdikdə.
D) Uşaq öz cib xərcliyi ilə hesab açmaq istədikdə.

***46.2. Bank kartına gündəlik limit niyə təyin olundu?***

A) Uşağın puldan məsuliyyətlə istifadə etməsi üçün.
B) Kart tez xarab olduğu üçün.
C) Bank tələb etdiyi üçün.
D) Bankda pul az olduğu üçün.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Niyə uşaqlar bank hesabını tam sərbəst şəkildə açıb idarə edə bilmirlər? Bu qayda uşağı hansı risklərdən qoruyur?

2. Yasəmənin atası “gündəlik limit” qoymağı təklif edir. Səncə, bu limit hansı məqsədlərə xidmət edir: pulun düzgün idarə olunmasına, təhlükəsizliyə, yoxsa uşağın məsuliyyət hissinin formalaşmasına?

3. Əgər uşağa bank kartı verilsə, amma valideyn nəzarəti olmasa, hansı müsbət və mənfi nəticələr baş verə bilər?

4. Uşağın pul yığması və gələcəyini düşünməsi onun hansı şəxsi keyfiyyətlərini göstərir? Bu davranış gələcəkdə hansı üstünlüklər verə bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də 15 yaşındasan və ilk dəfə bank kartı alırsan. Kartdan məsuliyyətli istifadə etmək üçün özünə hansı qaydaları qoyardın?

## 47-ci dərs

# Hüseynin velosipedi

Hüseynin ən çox sevdiyi əşyası ad günü hədiyyəsi olaraq atası tərəfindən alınmış velosipedi idi. Hüseyn hər gün məktəbdən sonra velosipedini həyətə çıxarıb dostları ilə sürürdü.

Bir gün qonşuluqdakı Ceyhun velosipedi götürüb soruşmadan sürməyə başladı. Hüseyn bunu görəndə tez Ceyhuna yaxınlaşdı:



- Ceyhun, bu mənim velosipedimdir. Sən məndən icazə almadan istifadə edə bilməzsən.

Ceyhun bir az utanaraq cavab verdi:

- Elə bildim etiraz etməyəcəksən. Mən sadəcə bir az sürmək istədim.

Hüseyn dedi:

- Mənim əşyalarım mənim mülkiyyətimdir. Qanuna görə, hər kəsin mülkiyyət hüququ var. Yəni əşyadan yalnız onun məxsus olduğu sahibinin icazəsi ilə istifadə oluna bilər.

Elə bu vaxt həyətə çıxan Hüseynin atası söhbəti eşitdi və izah etdi:

- Hüseyn düz deyir. Uşaqların da mülkiyyət hüquqları var. Velosipedi Hüseynin xüsusi mülkiyyətidir. Əgər Hüseyn istəsə, sənə icazə verə bilər, amma bu, onun seçiminə bağlıdır.

Ceyhun başını aşağı saldı və dedi:

- Bağışla, Hüseyn. Bundan sonra soruşmadan heç vaxt götürməyəcəyəm.

Hüseyn gülümsəyərək cavab verdi:

- Narahat olma. İstəsən, sabah birlikdə sürərik. Amma yadında saxla, başqasının əşyasından istifadə etmək istəsən, əvvəlcədən icazə almalısan.

O gündən sonra Ceyhun və digər uşaqlar başa düşdülər ki, başqasının əşyasından yalnız onun icazə ilə istifadə etmək olar.

***47-ci dərsdən nələri öyrəndik?***

- Uşaqların da mülkiyyət hüququ var. Uşaqlara aid əşyalardan yalnız onların icazəsi ilə istifadə etmək olar. Əvvəlcədən icazə almaq dostluq münasibətlərini də möhkəmləndirir.
- Başqasının əşyasını icazəsiz götürmək düzgün deyil. Bu, həm qaydalara ziddir, həm də hörmətsizlikdir.
- Mülkiyyət hüququ qanunla qorunur. Uşaqlar da böyüklər kimi sahib olduqları əşyaları qorumaq hüququna malikdirlər.

**TAPŞIRIQ**

***47.1. Hüseynin atası uşaqlara nəyi izah etdi?***

A) Uşaqların mülkiyyət hüququnun olmadığını.
B) Velosipeddən hamının istifadə edə bilməsini.
C) Uşaqların da mülkiyyət hüququnun olduğunu.
D) Əşyaların hamıya məxsus olduğunu.

***47.2. Uşağın şəxsi əşyasından (məsələn, velosiped, telefon, kitab) istifadə etmək üçün hansı qaydaya əməl edilməlidir?***

A) Əgər dostundursa, icazəsiz götürmək olar.
B) Yalnız sahibinin icazəsi ilə istifadə etmək olar.
C) İcazə almaq vacib deyil, qısa müddətə götürmək olar.
D) Uşaqların əşyaları onların xüsusi mülkiyyəti sayılmır.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Niyə başqasının əşyasından icazəsiz istifadə etmək düzgün davranış sayılmır? Bu, yalnız ədəb qaydasıdır, yoxsa hüquqi məsuliyyət yaradır?
2. Ceyhun velosipedi icazəsiz sürdü, amma “mən elə bildim icazə verəcəksən” dedi. Səncə, bu bəhanə doğrudurmu? İcazə almadan etmək və icazə veriləcəyini zənn etmək arasında hansı fərq var?
3. Uşaqların da mülkiyyət hüququnun olması nəyi göstərir? Səncə, əşyaların dəyəri yalnız maddi olmalıdır, yoxsa mənəvi dəyəri də var?
4. Əgər Hüseyn velosipedi geri istəməsəydi və susub heç nə deməsəydi, bu vəziyyət gələcəkdə hansı problemlərə yol aça bilərdi?
5. Mülkiyyət hüququ pozulduqda, insanlar arasında münasibət necə dəyişə bilər? Bu, etimad və dostluğa necə təsir edir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sənin də sevdiyin bir əşyan var və kimsə onu səndən xəbərsiz götürüb istifadə edir. Sən nə edərdin? Necə və hansı tonda danışardın?

## 48-ci dərs

# Nuranənin şeiri

Nuranə boş vaxtlarında dəftərinə kiçik şeirlər yazırdı. Bir gün məktəbdə müəllim şagirdlərə “Ana dili günü” münasibətilə tədbir üçün şeir hazırlamağı tapşırdı. Nuranə də yazdığı şeirlərdən birini müəlliminə təqdim etdi.

Tədbir günü sinif yoldaşı Samir Nuranənin şeirini çox bəyənmişdi. Sonradan o, həmin şeiri başqa bir tədbirdə oxudu, amma Nuranənin adını çəkmədi.

Nuranə bunu eşidəndə bir az məyus oldu. O, müəlliminə yaxınlaşıb dedi:

- Müəllim, Samir mənim şeirimi oxuyub, amma müəllifini deməyib. Məncə bu, düzgün deyil.

Müəllim başı ilə təsdiqləyərək cavab verdi:

- Tamamilə haqlısan, Nuranə. Qanuna görə, hər bir şəxsin özünün yaratdığı əsərə müəlliflik hüququ var. Kim yazıbsa, həmin əsər ona məxsusdur. Əgər Samir şeiri başqa tədbirdə söyləyibsə, mütləq sənin adını çəkməli idi.

Müəllim Samiri də çağırıb izah etdi:



- Samir, yadında saxla ki, müəllifin adını qeyd etmədən əsəri paylaşmaq düzgün deyil. Əsər kimə məxsusdursa, onun adı çəkilməlidir.

Samir başını aşağı saldı və üzr istədi:

- Bağışla, Nuranə. Mən sənin şeirini çox bəyəndim, sadəcə adını çəkməyi unutdum. Bundan sonra diqqətli olacağam.

Nuranə gülümsəyərək dedi:

- Yaxşı, amma unutmayaq ki, müəlliflik hüququna hörmət etmək vacibdir.

Beləcə, sinif yoldaşları da öyrəndilər ki, başqasının yaratdığı əsəri paylaşanda mütləq müəllifin adı çəkilməlidir.

***48-ci dərsdən nələri öyrəndik?***

• Uşaqların da müəlliflik hüququ var. Uşaq yazdığı şeirə, rəsmə və ya musiqiyə müəlliflik hüququna malikdir.

• Başqasının yazdığı əsəri paylaşarkən mütləq müəllifin kim olduğu göstərilməlidir.

• Müəllifin adı qeyd olunmadan əsəri oxumaq və ya yaymaq müəlliflik hüququnun pozulmasıdır.

• Başqasının əməyinə hörmət etmək həm dostluq münasibətlərini, həm də ədaləti möhkəmləndirir.

TAPŞIRIQ

***48.1. Müəllim Nuranəyə nə dedi?***

A) Müəllifin adını çəkmək o qədər də vacib deyil.
B) Şeirini heç kimlə paylaşmamalısan.
C) Samir istəsə, sənin şeirini istədiyi kimi paylaşa bilər.
D) Hər kəsin yaratdığı əsərə müəlliflik hüququ var.

***48.2. Bir şagird sinif yoldaşının yazdığı şeiri oxuyarkən hansı düzgün davranış qaydasına əməl etməlidir?***

A) Şeiri oxumaq olar, müəllifin adını çəkmək vacib deyil.
B) Şeiri oxumaq olmaz, çünki o, şagirddindir.
C) Şeiri oxumaq olar, amma müəllifin adını mütləq çəkmək lazımdır.
D) Şeiri yalnız müəllimlər oxuya bilərlər.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Niyə başqasının yazdığı şeiri, mahnını və ya hər hansı yaradıcılıq məhsulunu müəllifin adını demədən paylaşmaq düzgün sayılmır? Bu, sadəcə ədəb qaydasıdır, yoxsa hüquqi məsuliyyət yaradır?
2. Samir "adını çəkməyi unutdum" dedi. Səncə, bu söz məsuliyyəti azaldır, yoxsa bu halda da onun davranışı səhv sayılır? "Unutmaq" ilə "bilməmək" arasında hansı fərq var?
3. Nuranə müəllimə müraciət etməsəydi, bu hadisə gələcəkdə necə davam edə bilərdi? Onun susması müəlliflik hüququnun pozulmasına necə təsir edərdi?
4. Bir şeirin, mahnının və ya rəsmin sahibi kim sayılır: onu yazan, paylaşan, yoxsa təqdim edən? Niyə?
5. Müəlliflik hüququnun qorunması yaradıcılığa necə təsir edir? Əgər insanlar əsərlərinin adları çəkilmədən istifadə olunduğunu görsələr, bu, gələcəkdə onların yazmaq istəyinə necə təsir göstərə bilər?

SİTUATİV SUAL

Əgər sən bir hekayə, mahnı və ya rəsm əsəri yaratsaydın və kimsə onu öz adına çıxaraq paylaşsaydı, nə hiss edərdin? Bu halda necə davranardın?

## 49-cu dərs

## Top şüşəni sındıranda

Tunar 11 yaşında idi. Bir gün həyətdə dostları ilə futbol oynayırdı. Top təsadüfən qonşunun pəncərəsinə dəydi və şüşə sındı.

Qonşu pəncərədən baxıb əsəbi halda dedi:

- Bu kim idi?! Mənim şüşəmi sındıran bunun pulunu ödəməlidir!

Uşaqlar qorxudan susdular. Tunar isə irəli çıxaraq dedi:

- Mən vurdum, amma bilərəkdən etmədim.

Axşam qonşu Tunarın atasının yanına gəldi və məsələni danışdı. Atası sakit şəkildə izah etdi:



- Qanuna görə, 14 yaşı tamam olmamış uşaqların vurduqları ziyana görə valideynlər cavabdeh olurlar. Yəni şüşənin pulunu mən ödəyəcəyəm. Amma bu, Tunar üçün də bir dərs olmalıdır.

Sonra atası Tunara dedi:

- Oğlum, belə hallarda biz valideynlər məsuliyyət daşıyırıq, amma sən də bilməlisən ki, başqasının əmlakına ziyan vurmaq düzgün deyil. Topla oynayanda da diqqətli olmaq lazımdır.

Tunar başını aşağı salıb dedi:

- Bağışla, ata. Bir də ehtiyatsız davranmayacağam.

Beləcə, Tunar öyrəndi ki, hələ kiçik yaşında olsa da, etdiyi hərəkətlər başqalarına zərər vurarsa, bunun məsuliyyətini valideynləri daşıyacaqlar.

***49-cu dərsdən nələri öyrəndik?***

• 14 yaşına qədər uşaqların bağladığı əqdlər üzrə əmlak məsuliyyətini onların valideynləri, qəyyumları və ya övladlığa götürənləri daşıyırlar. Onlar həmin uşaqların vurduqları ziyana görə də cavabdehdirlər.

• Valideynlərin məsuliyyət daşıması uşağı məsuliyyətsiz etmir. Uşaq yenə də davranışına diqqət etməli, başqasının əmlakına ziyan vurmamalıdır. Valideynlər məsuliyyət daşısalar da, uşaqlar düzgün davranışı öyrənməlidirlər.

• Başqasına hörmətlə yanaşmaq vacibdir. Başqasının pəncərəsini, əşyasını və ya digər əmlakını qəsdən və ya ehtiyatsızlıqdan zədələmək düzgün deyil.

TAPŞIRIQ

***49.1. Atası Tunara hansı məsləhəti verdi?***

A) Artıq futbol oynamasın.
B) Başqasının əmlakına ziyan vurmamaq üçün diqqətli olsun.
C) Dostları ilə gəzintiyə getsin.
D) Qonşudan gizlənsin.

***49.2. 11 yaşlı uşaq topla oynayarkən qonşunun şüşəsini sındırır. Bu halda ziyanın əvəzini kim ödəməlidir?***

A) Uşağın özü.
B) Uşağın dostları.
C) Valideynləri və ya qəyyumu.
D) Qonşu özü.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Əgər Tunar qaçıb gizlənsəydi və zərəri etiraf etməsəydi, bu davranışın nəticəsi necə ola bilərdi?
2. Səncə, Tunarın öz səhvini etiraf etməsi niyə vacib idi? Bu, hansı dəyəri göstərir?
3. Başqasının əmlakına ziyan vurmaq "qəsdən" və "ehtiyatsızlıqdan" olduqda bu iki halın arasında məsuliyyət baxımından fərq varmı?
4. Sənin fikrincə, qonşu uşaqlara qarşı necə davranmalı idi: daha sərt, yoxsa daha anlayışlı? Niyə?
5. Tunarın atası həm qonşunun haqqını, həm də övladının tərbiyəsini qorumaq üçün hansı düzgün qərarı verdi?

SİTUATİV SUAL

Əgər həyatinizdə topla oynayanda sən də başqasının əmlakına təsadüfən zərər yetirsən (pəncərəni sındırsan, maşını cızsan və s.), necə davranmalısan? Gizlənmək doğrudur, yoxsa məsuliyyəti qəbul etmək?

## 50-ci dərs

## Rəşadın ehtiyatsızlığı

Rəşad 16 yaşında idi. Bir gün dostu Arazla birlikdə parkda velosiped sürürdü. Rəşad əlini sükandan götürüb velosipedi necə məharətlə sürdüyünü Araza göstərmək istədi, lakin idarəetməni itirərək səkidən çıxdı və velosipedi aşırdı. Bu zaman velosiped səki ilə hərəkət edən yaşlı kişiyə toxundu. Yaşlı adamın əlindəki telefon yerə çırpıldı və sındı.

Yaşlı adam narahat halda dedi:

- Yaxşı ki, özünə bir şey olmadı, oğlum. Velosped sürəndə ehtiyatlı olmaq lazımdır. Düzgün sürsəydin nə özün yıxılardın, nə də mənim telefonum sınardı.

Rəşad pərt halda:

- Mən bilərəkdən etmədim, amma məsuliyyət daşımalıyam, - dedi.



Həmin gün məsələ valideynlərinə çatdı. Atası Rəşada izah etdi:

- Oğlum, qanuna görə, 14 yaşından 18 yaşınadək uşaqlar vurduqları ziyana görə müstəqil surətdə məsuliyyət daşıyırlar. Deməli, yaşlı adamın telefonunu düzəltdirmək üçün xərci sən ödəməlisən.

Rəşad başını aşağı salıb dedi:

- Yaxşı, ata. Mən öz cib xərcliyimdən yığacağam və yaşlı adamın telefonunu düzəltdirəcəyəm.

Anası isə əlavə etdi:

- Biz sənə kömək edərik. Amma nəzərə al ki, artıq böyüyürsən və etdiyin işlərin məsuliyyətini daşımağı öyrənməlisən.

Rəşad başa düşdü ki, məsuliyyət yaşla birlikdə artır və bundan sonra davranışında daha diqqətli olmalıdır.

***50-ci dərsdən nələri öyrəndik?***

- 14–18 yaşlı uşaqlar bağladıqları alış-veriş və digər müqavilələrin nəticələrinə özləri cavabdehdirlər.
- 14–18 yaşlı uşaqlar vurduqları ziyana görə də məsuliyyət daşıyırlar. Onlar təsadüfən və ya ehtiyatsızlıqdan başqasının əmlakına ziyan vursalar, onun əvəzini ödəməlidirlər.
- Uşağın yaşı artdıqca məsuliyyəti də artır.
- Məsuliyyətli olmaq etimad doğurur. Uşaqlar məsuliyyət daşımağı öyrəndikcə valideynləri və dostları onlara daha çox güvənirlər.

TAPŞIRIQ

***50.1. Rəşad nəyə görə qəzaya səbəb oldu?***

A) Velosipedinin təkəri partladı.
B) Əlini sükandan götürüb ehtiyatsız davrandı.
C) Dostu onu itələdi.
D) Maşın qəfil qarşısına çıxdı.

***50.2. 16 yaşlı bir şagird təsadüfən dostunun telefonunu sındırır. Qanuna görə ziyanın əvəzini kim ödəməlidir?***

A) Onun valideynləri.
B) Məktəbin rəhbərliyi.
C) Telefonun sahibi.
D) Telefonu sındıran şagirdin özü.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Rəşadın "mən bilərəkdən etmədim, amma məsuliyyət daşımalıyam" deməsi nəyi ifadə edir? Hüquqi məsuliyyətlə mənəvi məsuliyyət arasında hansı əlaqə var?
2. Hadisə baş verərkən ən yaxşı reaksiya nə olardı: yerində qalıb dərhal üzrxahlıq etmək və zərəri ödənməyə razılaşmaq, yoxsa hadisəni gizlətmək? Niyə?
3. Rəşadın valideynlərinin reaksiyası (kömək etmək və öyrətmək) niyə vacibdir? Valideyn dəstəyinin məsuliyyət hissinin formalaşmasındakı rolu nədir?
4. Əgər zərər yetirilən şəxsin əşyasını düzəltmək mümkün deyilsə, hansı ədalətli həll yolları mövcuddur (tələb olunan təmir, zərərin ödənilməsi və s.)? Hansı vəziyyətlərdə hansı yol daha ədalətli sayılar?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostunla parkda velosiped sürürsən və o, idarəetməni itirərək yaxınlıqdakı yaşlı kişinin telefonunu sındırır. Dostun üzr istəyir, amma telefonun sahibi yüksək məbləğ tələb edir. Sən bu vəziyyətdə necə davranardın: dostuna necə məsləhət verərdin, telefon sahibi ilə necə danışardın və bu məsələni ədalətli şəkildə necə həll edərdin? Niyə?

## 51-ci dərs

## Fatehin yeni kompüteri

Fateh dərslərində çox çalışqan idi. Valideynləri bu zəhmətini dəyərləndirmək üçün doğum günündə ona yeni bir kompüter hədiyyə etdilər. Fateh çox sevindi. Uzun müddət idi ki, kompüteri olmasını arzulayırdı.

Atası kompüteri gətirəndə dedi:

- Fateh, bu kompüteri sənə hədiyyə edirik. Amma unutma ki, sən ondan yalnız düzgün məqsədlərlə, yəni dərslər, araşdırmalar, faydalı oyunlar və inkişafetdirici proqramlarla məşğul olmaq üçün istifadə etməlisən.



Anası da əlavə etdi:

- Əgər kompüterdən lazımsız və ya zərərli məqsədlərlə istifadə etsən, həm vaxtını itirə, həm də sağlamlığına və təhsilinə ziyan vura bilərsən.

Fateh valideynlərinin dedikləri ilə razılaşaraq dedi:

- Narahat olmayın, mən kompüterdən dərslərim üçün istifadə edəcəyəm. Əlavə vaxtım olsa, faydalı oyunlar oynayaram.

O gündən sonra Fateh hər gün kompüterdə məktəb tapşırıqlarını yerinə yetirir, yeni biliklər öyrənir, bəzən də elmi oyunlar oynayaraq vaxtını səmərəli keçirirdi. Valideynləri onun məsuliyyətli davranışını görüb qürurlanırdılar.

***51-ci dərsdən nələri öyrəndik?***

- Uşaqlar valideynlərinin onlara hədiyyə etdiyi əşyaları düzgün və məqsədəuyğun istifadə etməlidirlər.
- Kompüter öyrənmək, inkişaf etmək və dərslərdə müvəffəqiyyət qazanmaq üçün faydalı vasitədir.
- Sağlamlıq və vaxtın düzgün idarə olunması üçün texnologiyadan məsuliyyətli istifadə vacibdir.
- Valideynlər övladlarına etibar etdikdə və düzgün istifadə qaydalarını izah etdikdə, uşaqlar da daha məsuliyyətli davranmağı öyrənirlər.

TAPŞIRIQ

***51.1. Anası Fatehə nəyi xatırlatdı?***

A) Kompüterdən yalnız gecələr istifadə etməyin vacibliyini .
B) Zərərli məqsədlərlə istifadə olunarsa, kompüterin sağlamlığa ziyan vura biləcəyini.
C) Kompüterin təhlükəli olduğunu.
D) Kompüterin yalnız böyüklərin istifadəsi üçün nəzərdə tutulduğunu.

***51.2. Kompüterdən düzgün istifadə dedikdə nə başa düşülür?***

A) Yalnız oyun oynamaq.
B) Sosial şəbəkələrdə vaxt keçirmək.
C) Dərslər və faydalı biliklər üçün istifadə etmək.
D) Gecə-gündüz fasiləsiz ekran qarşısında qalmaq.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Fatehin kompüterdən düzgün istifadə etməsi onun həm şəxsi inkişafına, həm də gələcək təhsilinə necə təsir göstərə bilər?
2. Kompüter kimi şəxsi əşyalardan istifadə edərkən "azadlıq" və "məsuliyyət" arasında hansı balans qorunmalıdır?
3. Texnologiyanın uşaqlar üçün həm faydalı, həm də zərərli tərəfləri olduğu halda, düzgün istifadə qaydalarını kim müəyyən etməlidir: valideyn, uşaq, məktəb, yoxsa hamısı birlikdə?
4. Əgər Fateh kompüterdən səmərəsiz istifadə etsəydi (gecə saatlarına qədər oyun oynasaydı, dərslərə laqeyd yanaşsaydı və s.), bunun məsuliyyəti yalnız onun üzərinə düşərdi, yoxsa valideynlərin də məsuliyyəti yaranardı? Niyə?

SİTUATİV SUAL

Təsəvvür et ki, sənə də yeni kompüter hədiyyə edilib, amma dostların səni dərs vaxtı gizli şəkildə onlayn oyun oynamağa çağırırlar. Valideynlərin kompüteri məsuliyyətlə işlətməyini istəyiblər, sən isə tərəddüd edirsən. Bu durumda hansı qərarı verərdin və öz qərarını necə əsaslandırardın?

## 52-ci dərs

## Vaqifin payı

Vaqif 11 yaşında idi. Təəssüf ki, ağır avtomobil qəzasında həm atası, həm də anası dünyasını dəyişmişdi. Bu böyük itki Vaqif üçün çox ağır idi. Onu nənəsi öz himayəsinə götürmüşdü.

Bir gün nənəsi onunla söhbət edərkən dedi:

- Oğlum, bilirsən ki, atanla anan həyatda deyillər. Onlardan sənə miras qalan əmlak var. Amma hələlik sən balacasan, ona görə həmin əmlakları idarə etməkdə mən sənə kömək edəcəyəm.



Vaqif maraqla soruşdu:

- Nənə, bəs mən nə vaxt özüm idarə edə biləcəyəm?

Nənəsi izah etdi:

- Sən 18 yaşına çatanda, bütün əmlakı sərbəst idarə edə biləcəksən. O vaxta qədər isə mən yalnız sənin xeyrinə və ehtiyaclarına görə onlardan istifadə edə bilərəm. Bu, qanunun tələbidir.

Vaqif başını tərpədib dedi:

- Mən başa düşdüm, nənə. Atamla anamdan qalan hər şeyi yaxşı qoruyacağam.

Nənə onun saçını sığallayıb gülümsədi:

- Əhsən sənə, oğlum. Ən əsası budur ki, sən onların yadigarına sahib çıxasan.

***52-ci dərsdən nələri öyrəndik?***

- Yetkinlik yaşına çatmamış uşaqların da vərəsəlik hüququ var. Onlar ölmüş valideynlərinə məxsus əmlakdan pay ala bilərlər.
- Uşaq adından miras əmlakını himayəsində olduqları şəxslər idarə edirlər. Həmin şəxslər əmlakdan yalnız uşağın xeyrinə və ehtiyaclarına görə istifadə edə bilərlər.
- Uşaq 18 yaşına çatdıqdan sonra əmlakı müstəqil şəkildə idarə etmək hüququna sahib olur.

TAPŞIRIQ

***52.1. Nənə Vaqifə miras qalan əmlakdan necə istifadə edə bilərdi?***

A) Öz ehtiyacları üçün.
B) Banka bağışlaya bilərdi.
C) Kimə istəsə sata bilərdi.
D) Yalnız Vaqifin xeyrinə və ehtiyaclarına uyğun.

***52.2. Yetkinlik yaşına çatmayan uşaqlar miras əmlakına sahib ola bilərlərmi?***

A) Bəli, lakin əmlakı himayəsində olduqları şəxslərin köməyi ilə idarə edirlər.
B) Yalnız 14 yaşdan sonra.
C) Ancaq 21 yaşında.
D) Heç vaxt ola bilməzlər.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Qanunun miras əmlakını uşağın idarə etməsinə icazə verməməsinin məqsədi nədir? Bu qayda uşağı hansı risklərdən qoruyur?
2. Vaqifin "mən hər şeyi yaxşı qoruyacağam" deməsindən onun məsuliyyət hissi və gələcək davranışları ilə bağlı hansı nəticəni çıxarmaq olar?
3. Uşaqların hüquqları ilə böyüklərin məsuliyyətləri arasındakı tarazlıq bu hekayədə necə əks olunur?
4. Mirası idarə edən şəxs uşağın yaxın qohumu olsa da, ona uşağa məxsus əmlakdan istədiyi kimi istifadə etmək hüququ verilmir. Bu, niyə vacibdir?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də Vaqif kimi 11 yaşındasan və sənə miras qalan bir ev var. Səni himayə edən şəxs bu əmlakı satmaq istəyir və "bu sənin xeyrinədir" deyir. Sən nə edərdin? Bu vəziyyətdə hara və kimə müraciət edə bilərsən?

## 53-cü dərs

## Könülün yeni ayaqqabıları

Könülün14 yaşı vardı. O, uzun müddət cib xərcliyindən pul yığmışdı. Nəhayət, çoxdan arzuladığı ayaqqabını almaq üçün anası ilə mağazaya getdi. Ayaqqabını geyinib sevincək aldı. Amma bir neçə gün keçməmiş ayaqqabının tikişləri söküldü, dabanı qopdu.

Könül çox kədərləndi və anasına dedi:

- Ana, mən bu ayaqqabını almağıma çox sevinmişdim, amma tez xarab oldu. İndi nə edəcəyik?

Anası izah etdi:



- Qızım, narahat olma. İstehlakçı kimi sənin də hüquqların var. Biz mağazaya gedib məsələni bildirəcəyik. Əgər mal keyfiyyətsizdirsə, istehlakçının onu dəyişmək, təmir etdirmək və ya pulunu geri almaq hüququ var.

Onlar mağazaya qayıtdılar. Satıcı əvvəlcə tərəddüd etdi, amma Könül inamla dedi:

- Qanuna görə, mənim aldığım məhsul keyfiyyətsizdirsə, onu dəyişmək hüququna malikəm.

Satıcı məsələni araşdırdı və ayaqqabının həqiqətən qüsurlu olduğunu təsdiq etdi. O, Könülə başqa ayaqqabı verdi.

Könül sevindi və başa düşdü ki, istehlakçı olmaq sadəcə alış-veriş etmək demək deyil, həm də öz hüquqlarını bilmək və qorumaq deməkdir.

***53-cü dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq istehlakçı kimi hüquqlara malikdir.
- Keyfiyyətsiz məhsul alındıqda istehlakçının onu dəyişmək, təmir etdirmək və ya pulunu geri almaq hüququ var.
- İstehlakçının hüquqlarını bilməsi onu aldadılmaqdan və ziyana düşməkdən qoruyur.

**TAPŞIRIQ**

***53.1. Satıcı ayaqqabının qüsurlu olduğunu təsdiqləyəndən sonra nə etdi?***

A) Pulu qaytardı.
B) Ayaqqabını təmir etdi.
C) Könülə başqa ayaqqabı verdi.
D) Heç nə etmədi.

***53.2. İstehlakçı keyfiyyətsiz mal aldıqda hansı hüquqa malikdir?***

A) Heç bir hüquqa malik deyil.
B) Malı dəyişmək, təmir etdirmək və ya pulunu geri almaq hüququna malikdir.
C) Yalnız mağaza istəsə malı dəyişə bilər.
D) Məhsulu atmaq məcburiyyətindədir.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Mağazaya qayıdıb problemi bildirmək Könülün hansı şəxsi xüsusiyyətlərini nümayiş etdirir? (məsələn: cəsarət, hüquqi savadlılıq, özünə güvən və s.)
2. Satıcının əvvəlcə tərəddüd etməsi nəyi göstərir?
3. İstehlakçı hüquqlarını bilməyən uşaqlar və ya böyüklər bu kimi vəziyyətlərdə hansı problemlərlə üzləşə bilərlər?
4. Könül bu hadisədən nələri öyrəndi və bu bilik onun gələcək davranışına necə təsir edə bilər?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də bir məhsul almısan və bir neçə gündən sonra onun qüsurlu olduğunu görmüsən. Bu barədə satıcıya deyəndə o, malın qüsuruna cavabdeh olmadığını və heç nə edə bilməyəcəyini bildirir. Bu halda nə edərdin? Öz hüququnu necə müdafiə edərdin?

# VI FƏSİL
## Ailə hüququ

## 54-cü dərs

## Banu və ailə

Banu valideynlərini çox sevirdi. Hər səhər atası onu məktəbə aparır, axşam isə anası ona nağıl oxuyurdu. Banu özünü çox xoşbəxt hiss edirdi, çünki ailəsi yanında idi.

Bir gün müəllim şagirdlərdən soruşdu:

- Uşaqlar, ailə nə deməkdir?

Banu əlini qaldırdı və dedi:

- Ailə odur ki, uşaq valideynlərinin yanında böyüyür, onların sevgisini və qayğısını hiss edir. Mənim ən böyük arzum həmişə anamla, atamla birgə yaşamaqdır.



Müəllim gülümsədi:

- Çox doğru dedin, Banu. Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq hüququna malikdir. Valideynlər uşaqlarına qayğı göstərməli, onları qoruyub böyütməlidirlər.

Banu sevinclə dostlarına baxdı və əlavə etdi:

- Mənim anam və atam hər gün məni qucaqlayır, dərslərimə kömək edir. Mən bilirəm ki, onların qayğısı mənim ən böyük xoşbəxtliyimdir.

Dostlarından biri soruşdu:

- Bəs, əgər valideynlər uşağa yaxşı baxmasa, necə olar?

Müəllim cavab verdi:

- Əgər ailədə sizinlə pis rəftar edirlərsə, öz müəlliminizə və ya məktəb rəhbərliyinə xəbər verə bilərsiniz. Bu halda dövlət orqanları məlumatlandırılacaq və dövlət sizin hüquqlarınızı qoruyacaq. Amma normal halda hər bir uşaq öz valideynləri ilə yaşamaq hüququna sahibdir.

Banu evə qayıdanda anasının onu gözlədiyini gördü və düşündü: "Doğrudan da, qayğıkeş valideynlərlə ailə dünyanın ən gözəl nemətidir."

***54-cü dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq hüququna malikdir.
- Uşaq valideyn qayğısından istifadə etmək hüququna malikdir.
- Valideynlər uşaqlar üçün sevgi və təhlükəsizlik mühiti yaratmalıdırlar.
- Uşağın maraqlarına zidd hallar yarandıqda, dövlət və cəmiyyət uşağı müdafiə edir.

TAPŞIRIQ

***54.1. Əgər uşağın ailəsində onunla pis rəftar edilərsə, uşaq nə etməlidir?***

A) Susmalıdır.
B) Evdən qaçmalıdır.
C) Müəlliminə və məktəb rəhbərliyinə xəbər verməlidir.
D) Dostuna deməlidir.

***54.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Uşaqlar özbaşına yaşamalıdırlar. | |
| 2 | Ailə yalnız yemək və geyim deməkdir. | |
| 3 | Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq hüququna malikdir. | |
| 4 | Uşaqlar valideynlərini tanımasa da olar. | |

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Banu ailənin əhəmiyyətini hansı nümunələrlə izah edir və bu nümunələr uşaqların ailədə hansı hüquqlarının mövcud olduğunu göstərir?
2. Müəllimin "hər bir uşaq ailədə yaşamaq hüququna malikdir" sözlərini necə başa düşürsən?
3. Banunun dostunun verdiyi "bəs valideynlər uşağa yaxşı baxmasa, necə olar?" sualı niyə vacibdir və bu sual uşaqların hansı hüquqi mexanizmi bilməli olduqlarını göstərir?
4. Uşaq ailədə pis rəftarla qarşılaşdıqda bunu kimə və necə bildirməlidir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sinif yoldaşın evdə ona tez-tez qışqırdıqlarını və dərslərinə heç kimin kömək etmədiyini deyir. O, nə edəcəyini bilmir. Sən onun yerində olsaydın, kimə və hansı şəkildə müraciət edərdin? Sinif yoldaşına hansı məsləhətləri verərdin?

## 55-ci dərs

## Dənizin ziyarəti

Bir gün müəllim şagirdlərdən soruşdu:
- Həftəsonu vaxtınızı necə keçirirsiniz?
Dəniz həvəslə cavab verdi:
- Həftəsonu ən çox sevdiyim iş babamgilə getməkdir. Nənəm mənə həmişə şirin nağıllar danışır, babam isə kənddəki uşaqlıq xatirələrini bölüşür.
Müəllim gülümsəyərək cavab verdi:
Afərin, Dəniz, sən vaxtını çox yaxşı keçirirsən. Əlbəttə, hər bir uşaq valideynləri, nənə-babaları, bacı-qardaşları və digər qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.
Dəniz maraqla soruşdu:
- Müəllim, bəs uşağın valideynləri ayrı yaşayırlarsa?
Müəllim izah etdi:



- Əgər valideynləri ayrı yaşayırlarsa, uşaq onların hər biri ilə ünsiyyət qurmaq hüququna malikdir. Çünki hər ikisi - ata və ana uşağın həyatında vacib rol oynayırlar.

Valideynləri ayrıldıqdan sonra anası ilə qalan Dəniz həmin həftəsonu atası ilə kinoya getdi. Anası ilə isə bazar ertəsi məktəb çantasını birgə hazırladı. Hər iki valideyni ilə vaxt keçirmək ona böyük sevinc gətirdi.

Axşam evə qayıdanda Dəniz düşündü:
“Doğrudan da, insan sevdikləri ilə ünsiyyətdə olanda özünü daha xoşbəxt hiss edir.”

***55-ci dərsdən nələri öyrəndik?***

• Hər bir uşaq valideynləri, nənə-babası, bacı-qardaşları və qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.
• Valideynlər ayrı yaşadıqda belə, uşaq onların hər biri ilə görüşmək və vaxt keçirmək hüququna sahibdir.
• Ailə üzvləri ilə ünsiyyət uşağın sevgi və qayğı içində böyüməsinə kömək edir.

TAPŞIRIQ

***55.1. Müəllim uşaqlara nəyi izah etdi?***

A) Uşaqlar həftəsonu istirahət etməlidirlər.
B) Uşaqlar ailə üzvləri ilə ünsiyyət qurmaq hüququna malikdirlər.
C) Uşaqlar yalnız məktəbdə danışa bilərlər.
D) Uşaqlar təkbaşına vaxt keçirməlidirlər.

***55.2. Valideynləri ayrı yaşadıqda uşaq:***

A) Yalnız anası ilə ünsiyyət saxlamalıdır.
B) Yalnız atası ilə ünsiyyət saxlamalıdır.
C) Hər iki valideyni ilə ünsiyyət hüququna malikdir.
D) Ünsiyyət qura bilməz.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Dənizin babası və nənəsi ilə vaxt keçirməsi onun hansı ehtiyaclarını təmin edir?
2. Müəllimin dediyi "uşaq valideynləri, nənə-babaları və digər qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir" fikrini necə izah edərdin?
3. Səncə, niyə qanunlar uşağın valideynlərdən yalnız biri ilə deyil, hər iki valideynlə də ünsiyyət hüququnu qoruyur?
4. Uşaq ailə üzvləri ilə ünsiyyətdən məhrum edilərsə, bu, onun inkişafına hansı mənfi təsirləri göstərər?

SİTUATİV SUAL

Təsəvvür et ki, valideynləri ayrılan bir dostun var və o, atası ilə görüşməyə icazə verilmədiyini deyir, halbuki o atasını görmək istəyir. Sən onun yerində olsaydın, bu vəziyyətdə nə edərdin və kimə müraciət edərdin? Dostuna hansı məsləhətləri verərdin?

## 56-cı dərs

# Elvinin atasının səhvi

Elvin dərslərini çox sevir, gələcəkdə mühəndis olmaq arzusu ilə çalışırdı. Amma təəssüf ki, atası onun təhsil almasını vacib saymırdı. O, tez-tez Elvini məktəbdən saxlayır, ağır ev işlərində işləməyə məcbur edirdi.

Bir gün müəllimi məktəbə gəlməyən Elvini axtarmaq üçün onun evinə getdi. Elvin evdə tək idi. Müəllim onun niyə dərsə gəlmədiyini soruşduqda Elvin dedi:

- Müəllim, mən məktəbə getmək istəyirəm, amma atam icazə vermir. Halbuki mənim oxumaq hüququm var, elə deyilmi?

Müəllim ona təsəlli verib dedi:

- Bəli, Elvin. Hər bir uşaq öz hüquqlarının və mənafelərinin müdafiəsi hüququna malikdir. Valideynlərin əsas vəzifəsi uşağı qorumaq, böyütmək və təhsilinə kömək etməkdir. Əgər valideynlər bu borcu yerinə yetirmirlərsə və valideynlik hüququndan sui-istifadə edirlərsə, sənin hüquqlarını dövlət müdafiə edir. Uşaq 14 yaşına çatanda artıq məhkəməyə özü müraciət etmək hüququna malik olur.

Məsələ barədə məktəbin direktoru və icra hakimiyyətinə məlumat verildi. Onlar Elvinin atası ilə söhbət etdilər. Atasına başa salındı ki, uşağın təhsil hüququnu əlindən almaq olmaz, bu həm qanuna, həm də insanlıq dəyərlərinə ziddir.

Müəllim izah etdikdən sonra Elvin artıq öz hüquqlarını daha yaxşı anlayırdı. O, başa düşürdü ki, lazım gəlsə, məhkəməyə də müraciət edə bilər, çünki qanun ona belə bir imkan verir.



Nəhayət, atasının davranışı dəyişdi. O, peşman olaraq oğluna dedi:

- Elvin, mən səhv etmişəm. Sənin təhsil almaq, böyümək, xoşbəxt olmaq hüququn var. Mənim vəzifəm isə səni qorumaqdır.

Elvin sevindi, məktəbə qayıtdı və öz-özünə düşündü:

“Nə yaxşı ki, haqqımı qoruyan qanunlar və insanlar var”.

***56-cı dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir.
- Valideynlər uşaqların hüquqlarını qorumağa borcludurlar, onlardan sui-istifadə etməməlidirlər.
- Əgər valideynlər uşağın hüquqlarını pozurlarsa, dövlət orqanları uşağı müdafiə edir.
- Uşaq 14 yaşına çatanda artıq məhkəməyə özü müraciət etmək hüququna malik olur.

TAPŞIRIQ

***56.1. Müəllim Elvinə izah etdi ki:***

A) Valideynlər uşağın təhsil hüququnu məhdudlaşdıra bilər.
B) Məktəb uşağın hüquqlarına qarışmır.
C) Uşağın hüquqlarını dövlət qoruyur və 14 yaşından etibarən uşaq məhkəməyə müraciət edə bilər.
D) Uşaq hüquqları yalnız valideynə aiddir.

***56.2. Aşağıdakılardan hansı uşağın müdafiə hüququna aiddir?***

A) Yalnız oyun oynamaq hüququ.
B) Öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququ.
C)Valideynlərin dediyini sorğu-sualsız yerinə yetirmək hüququ.
D) Valideynlərin icazəsi olmadan istənilən yerə getmək hüququ.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Müəllimin Elvini müdafiə etməsi məktəbin uşaq hüquqlarının qorunmasında hansı rol oynadığını göstərir?
2. Valideynin uşağı məktəbdən saxlaması və ağır işlərə məcbur etməsi yalnız qanun pozuntusudur, yoxsa həm də mənəvi dəyərlərə ziddir?
3. Elvinin "mənim oxumaq hüququm var, elə deyilmi" sualı onun hansı şəxsi keyfiyyətini nümayiş etdirir?
4. Səncə, dövlət orqanlarının müdaxiləsi olmasaydı, Elvinin təhsildən yayındırılması onun gələcək həyatına necə təsir göstərə bilərdi?

SİTUATİV SUAL

Təsəvvür et ki, sənin sinif yoldaşın da oxumaq istəyir, amma ailəsi "sənə təhsil lazım deyil, işləməlisən" deyərək onu məktəbə buraxmır. Sən onun yerində olsaydın, öz hüququnu qorumaq üçün hansı addımları atardın və kimə müraciət edərdin? Sinif yoldaşına hansı məsləhətləri verərdin?

## 57-ci dərs

## Nigarın fikri

Nigarın ən böyük arzusu musiqi məktəbinə üzv yazılmaq idi. Çünki o, pianoda ifa etməyi çox sevirdi.

Bir gün ailə üzvləri söhbət edirdilər. Atası dedi:

- Nigar gələn ildən idman məktəbinə getsin, ondan yaxşı idmançı olar.

Anası isə əlavə etdi:

- Məncə, rəqs kursuna getsin. Qız uşağına rəqs yaraşır.

Nigar bir az kədərləndi. Çünki valideynləri onun istəyini soruşmamışdılar. O, sakitcə dilləndi:

- Mən sizi çox sevirəm. Amma mənim də fikrim var. Mən musiqini sevirəm və pianoda ifa etmək istəyirəm. Mənim də öz arzumu demək hüququm var, elə deyilmi?

Anası gülümsəyərək qızını qucaqladı:

- Doğrudur, qızım. Qanuna görə, ailədə uşağın maraqlarına toxunan hər bir məsələnin həllində uşaq da öz fikrini bildirmək hüququna malikdir.

Atası Nigarın saçına sığal çəkərək dedi:

- Bəli, sən düz deyirsən, Nigar. Biz sənin musiqi məktəbinə getməyinə dəstək olacağıq.

Nigar sevincək pianonun düymələrinə toxundu və düşündü:

“Fikrimə dəyər verildikdə özümü daha güclü hiss edirəm.”



***57-ci dərsdən nələri öyrəndik?***

- Hər bir uşaq ailəsində onun maraqlarına toxunan məsələlərin həllində öz fikrini bildirmək hüququna malikdir.
- Valideynlər uşağın fikrinə hörmət etməli və onu nəzərə almalıdırlar.
- Uşağın arzuları və maraqları da ailə qərarlarında vacibdir.

**TAPŞIRIQ**

***57.1. Uşaq ailədə öz fikrini nə zaman bildirmək hüququna malikdir?***

A) Yalnız böyük yaşda olduqda.
B) Yalnız müəllim yanında.
C) Yalnız valideyn icazə verəndə.
D) Ailədə onun maraqlarına toxunan məsələlərdə.

***57.2. Öz fikrini ifadə edə bilən uşaq hansı keyfiyyətləri inkişaf etdirir?***

A) Qorxu və itaət.
B) Qeyri-ciddilik.
C) Tənbəllik.
D) Özünə inam və məsuliyyət.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Ailə üzvlərinin Nigarın yerinə qərar verməsi onun hansı hüququnu poza bilərdi?
2. Nigarın "mənim də öz fikrimi demək hüququm var, elə deyilmi" sualı onun hansı şəxsi keyfiyyətini göstərir?
3. Uşağın maraqlarına toxunan məsələlərdə onun fikrinin soruşulmasının həm ailəyə, həm də uşağın psixoloji inkişafına hansı müsbət təsirləri var?
4. Əgər valideynlər uşağın fikrini dinləməsələr və təkbaşına qərar versələr, bu, uşaq-valideyn münasibətlərinə gələcəkdə necə təsir göstərə bilər?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də hansısa kursa, dərnəyə və ya digər məktəb fəaliyyətinə qoşulmaq istəyirsən, amma valideynlərin "sənə lazım deyil" deyib başqa qərar verirlər. Sən bu halda nə edərdin? Öz fikrini necə və hansı qaydada bildirərdin?

# 58-ci dərs

## Ayxanın səsi

Valideynləri boşandıqdan sonra Ayxan anası ilə yaşayırdı. Atası isə başqa şəhərdə qalırdı. Bir gün ailə məsələsi ilə bağlı məhkəmə bildirişi gəldi. Orada Ayxanın valideynlərindən hansı ilə qalacağı barədə qərar veriləcəkdi.

Anası bir az narahat idi:

- Oğlum, biz məhkəməyə getməliyik. Doğrusu, bilmirəm məhkəmə sənin fikrini soruşacaq, yoxsa yox...

Ayxan anası ilə məhkəməyə getdi. Hakim məhkəmə iclasında bildirdi:

- Qanuna görə, 10 yaşına çatmış uşaqlar məhkəmə iclasında dinlənilmək hüququna malikdirlər. Onların maraqlarına zidd hal olmadıqda, uşağın fikri mütləq nəzərə alınır.

Sonra hakim mehriban səslə Ayxana müraciət etdi:



- Ayxan, sənin fikrin bizim üçün çox vacibdir. Sən kimin yanında yaşamaq istəyirsən? Ayxan bir qədər həyəcanlı olsa da, cəsarətlə danışdı:

- Mən anamla qalmaq istəyirəm, çünki məktəbim, dostlarım buradadır. Amma atamla da görüşmək istəyirəm. Mən istəyirəm ki, atamla da münasibətim davam etsin.

Hakim Ayxanı dinlədikdən sonra dedi:

- Sənin fikrin çox önəmlidir. Biz elə qərar verəcəyik ki, sən həm ananın yanında böyüyəsən, həm də atanla ünsiyyətini itirməyəsən.

Ayxan sevincək düşündü:

“Deməli, mənim fikrimi nəzərə alırlar. Bu, çox yaxşı oldu.”

***58-ci dərsdən nələri öyrəndik?***

• Hər bir uşaq məhkəmə istintaqı və inzibati araşdırmalar zamanı dinlənilmək hüququna malikdir.

• 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır (əgər maraqlarına zidd deyilsə).

• Uşağın düşüncəsi ailə və cəmiyyət üçün önəmlidir və hüquqi qərarlarda da nəzərə alınır.

• Uşaqlar bilməlidirlər ki, onların səsi eşidilir və hüquqları qorunur.

TAPŞIRIQ

***58.1. Hakim uşaqların neçə yaşından etibarən dinlənilmək hüququ olduğunu dedi?***

A) 7 yaş.
B) 8 yaş.
C) 10 yaş.
D) 12 yaş.

***58.2. Uşağın fikrinin dinlənilməsi niyə vacibdir?***

A) Çünki o da ailənin bir üzvüdür və onun maraqları nəzərə alınmalıdır.
B) Çünki uşaqlar çox danışmağı sevirlər.
C) Çünki valideynlər istəməzlər.
D) Çünki bu, məhkəməyə kömək etmir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səncə, Ayxanın həm anası ilə qalmaq, həm də atasını görmək istəməsi düzgün yanaşmadırmı?
2. Məhkəmədə uşağın fikrinin nəzərə alınması qərarın ədalətli olmasına necə təsir edir?
3. Səncə, əgər Ayxan danışmağa cəsarət etməsəydi, məhkəmə qərarı onun istəyinə uyğun olardımı? Niyə?
4. Uşağın ailə ilə bağlı məsələlərdə dinlənilməsi onun özünəinamına və şəxsiyyət kimi inkişafına hansı müsbət təsirləri göstərə bilər?

SİTUATİV SUAL

Təsəvvür et ki, sənin də ailə ilə bağlı vacib bir qərarda fikrin soruşulmur və böyüklər öz aralarında qərar verirlər. Bu halda nə edərdin? Sənin də fikrinin nəzərə alınması üçün necə davranardın?

## 59-cu dərs

## Səmanın qorxusu

Səma məktəbi və dostlarını çox sevirdi. Amma evdə hər şey qaydasında deyildi. Atası tez-tez əsəbiləşir, Səmaya qışqırır, bəzən də onu incidirdi. Bu vəziyyət Səmanı çox kədərləndirirdi.

Bir gün müəllimi Səmanın kədərli olduğunu gördü və soruşdu:

- Səma, nə olub? Niyə bu qədər narahatsan?

Səma əvvəlcə çəkinib susdu, amma sonra cəsarətini toplayıb dedi:

- Müəllim, mən evdə çox qorxuram. Atam mənə tez-tez qışqırır və məni incidəndə özümü tənha hiss edirəm.





Müəllim dərhal bu barədə məktəb rəhbərliyinə məlumat verdi. Məsələ yerli icra hakimiyyəti orqanına çatdırıldı. Onlar araşdırma apardılar və Səmanın həqiqətən də məişət zorakılığına məruz qaldığını müəyyən etdilər.

Səmanın atası icra hakimiyyətinə çağırıldı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun üzvləri onunla söhbət apardılar:

- Uşaqlara qarşı zorakılıq yolverilməzdir. Qanuna görə, valideyn uşağa qarşı zorakılıq törədərsə, valideynlik hüququndan məhrum edilə bilər. Əgər Səmaya qarşı zorakılığı davam etdirsəniz, sizin barənizdə də qanuni tədbirlər görüləcək. Uşağın təhlükəsizliyi və maraqları hər şeydən üstündür.



Səmanın atası səhvini anladı və söz verdi ki, Səmaya qarşı zorakılığa son qoyacaq. Həmin gündən atasının davranışı dəyişdi və Səma özünü daha təhlükəsiz və xoşbəxt hiss etdi. O, artıq qorxu yox, sevgi mühitində yaşamağa başladı.

***59-cu dərsdən nələri öyrəndik?***

- Uşaqlara qarşı zorakılığa yol vermək qətiyyən olmaz.
- Valideynlər uşaqlarını qorumalı, onlara zərər vurmamalıdırlar.
- Əgər valideyn uşağa qarşı zorakılıq törədərsə, o, valideynlik hüququndan məhrum edilə bilər.
- Uşaqlar bilməlidirlər ki, dövlət onların hüquqlarını qoruyur.

### TAPŞIRIQ

***59.1. Səmanın müraciətindən sonra aparılan araşdırma nəticəsində müəyyən edildi ki:***

A) Səma məktəbi sevmir.
B) Səma məişət zorakılığına məruz qalır.
C) Səmanın atası evdə yoxdur.
D) Səma məktəbdən yayınır.

***59.2. Valideyn uşağa qarşı zorakılıq törədərsə, hansı tədbir görülə bilər?***

A) Heç bir tədbir görülə bilməz.
B) Ona yeni vəzifə verilər.
C) Uşağın məktəbə getməsi dayandırılar.
D) Valideynlik hüququndan məhrum edilə bilər.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səmanın evdə yaşadığı zorakılıq onun hansı hüquqlarının pozulmasına səbəb olurdu?
2. Müəllimin Səmanı dinləyib məsələ ilə dərhal maraqlanması məktəbin uşaq müdafiə sistemindəki hansı rolunu göstərir?
3. Dövlət orqanlarının müdaxiləsi olmasaydı, Səmanın gələcək inkişafı, psixoloji durumu və ailə münasibətləri necə dəyişə bilərdi?
4. Valideynin uşağa qarşı zorakılıq etməsinin qanunla cəzalandırılması cəmiyyətdə hansı məqsədə xidmət edir və hansı mesajı verir?

### SİTUATİV SUAL

Təsəvvür et ki, tanıdığın bir uşaq evdə zorakılığa məruz qalır, amma bunu kiməsə deməyə qorxur. Sən onun yerində olsaydın, kimə və necə müraciət edərdin? Ona nəyi məsləhət görərdin?

# VII FƏSİL

## Əmək hüquqları

## 60-cı dərs

# Zümrüdün ilk əmək müqaviləsi

Adətən yay tətili başlayanda məktəbli uşaqların hərəsi bir yana üz tuturdu. Bəziləri bölgələrə nənə-babalarının yanına gedir, bəziləri dostları ilə düşərgəyə yollanır, bəziləri də şəhərdə qalaraq istirahət edirdilər.

Amma Zümrüd fərqli bir şey istəyirdi.

O, kitabları çox sevirdi. Hər səhər məktəb yolunda qarşısından keçdiyi kiçik kitab mağazasına pəncərədən baxar, oradakı rəngli kitabları seyr edərdi...

Tədris ilinin son günü idi. Zümrüd məktəbdən evə gəlirdi. Mağazanın sahibi Saleh əmi qapının önündə dayanmışdı. Zümrüd salam verdi. Saleh əmi gülümsədi:

- Görürəm ki, kitabları çox sevirsən, gəlib burada işləmək istəməzsən?

Zümrüdün gözləri parıldadı.

- Ciddi deyirsiniz?

- Əlbəttə! Kitabları düzəltmək, rəflərdə səliqə yaratmaq, hətta müştəriləri qarşılamaqda mənə kömək lazımdır.

Zümrüd Saleh əmi ilə bir qədər söhbətləşdikdən sonra sevinə-sevinə evə qaçdı:

- Ana! Ata! Mən yayda işləmək istəyirəm! Kitab mağazasında!

Anası gülümsədi, atası isə sual dolu baxışlarını Zümrüdə zilləyərək:

- Ciddi deyirsən? Axı yay tətilidir, istədiyin kimi dincəl, əylən. İnşallah, gələcəkdə işləyərsən, - dedi.

- Ata, mən kitab mağazasında işləmək istəyirəm, bu, mənim üçün ən yaxşı əyləncə olacaq.

- Elədirsə, etiraz etmirəm. Artıq 15 yaşın tamam olub, qanunla işləyə bilərsən. Amma səninlə əmək müqaviləsi bağlanmalıdır, həm də bizim yazılı razılığımızla.

Çox sağol, ata! – Zümrüd atasına sarıldı.

- Amma uşaq olduğuna görə sənin üçün iş vaxtı da qısaldılmış olmalıdır. Sən yalnız həftədə 24 saat, yəni gündə 4 saat işləyə bilərsən.

- Saleh əmi də elə dedi, ata. Dedi ki, əmək haqqı da alacağam. Çox həyəcanlıyam, həm öyrənəcəyəm, həm də öz pulumu qazanacağam, - Zümrüd gülümsəyərək ona baxan anasını bərk-bərk qucaqladı.

Ertəsi gün Zümrüd atası ilə birlikdə mağazaya getdi. Saleh əmi də bu qaydaları bilirdi. Onlar birlikdə əmək müqaviləsi imzaladılar. Atası isə razılıq ərizəsi yazdı.

Zümrüd işə başladı. Hər gün səhər saat 9-dan günorta saat 1-ə qədər işləyirdi. Kitabları düzürdü, bəzilərinin tozunu alırdı, rəflərə etiket vururdu. Müştərilər gələndə "xoş gəlmisiniz" deyib onları qarşılayırdı.

Amma bir gün maraqlı bir hadisə baş verdi. Zümrüd məktəbdən tanıdığı Yalçını küçədə gördü. Yalçın ağır şirə qutularını daşıyırdı və çox yorğun görünürdü.

- Yalçın, sən də işləyirsən?




- Hə, səhərdən axşama kimi işləyirəm.

- Bəs, əmək müqaviləsi bağlamısan?

- Yox, müdir dedi ki, uşaqlarla müqavilə bağlamağa ehtiyac yoxdur.

Zümrüd çox təəccübləndi. Axşam evdə bu barədə atasına danışdı. Atası başını yellədi:

- Qızım, məncə, Yalçının hələ 15 yaşı tamam olmayıb. Belə olan halda bu, birbaşa qanun

pozuntusudur. 15 yaşdan aşağı uşaqlarla əmək müqaviləsi bağlanmamalıdır, onları heç kim işlədə bilməz. Əgər Yalçın 15 yaşındadırsa belə, onun valideynlərindən birinin yazılı razılığı ilə işə götürülməsi, iş vaxtının da qanuna uyğun olması vacibdir. Yadında saxla: 16 yaşınadək işçilər həftədə 24 saatdan artıq, 16–18 yaş arasında olanlar isə həftədə 36 saatdan artıq işləyə bilməzlər. Əks halda bu, qaydaların pozulmasıdır.

Atası Yalçınla bağlı müvafiq orqanlara məlumat verdi. Bir neçə gündən sonra həmin mağazada yoxlama aparıldı və Yalçını qeyri-qanuni işlədən mağaza müdiri cərimə olundu.

Zümrüd isə işinə məsuliyyətlə davam etdi. Hər gün işdən sonra özünə bir kitab seçib oxuyurdu. Yayın sonunda isə ilk dəfə öz qazancı ilə anasına çiçək, atasına qələm, özünə isə yeni bir çanta aldı.

***60-cı dərsdən nələri öyrəndik?***

- Əmək müqaviləsi yalnız 15 yaşdan sonra bağlana bilər.
- Uşaqlarla əmək müqaviləsi bağlanarkən onların valideynlərindən birinin yazılı razılığı alınmalıdır.
- 16 yaşınadək işçilər həftədə 24 saatdan artıq, 16–18 yaş arasında olanlar isə həftədə 36 saatdan artıq işləyə bilməzlər.
- Uşaqların əmək hüququnu pozan işəgötürən məsuliyyət daşıyır.
- Uşaqların işləməsi onların təhsili və sağlamlığına zərər vurmamalıdır.

**TAPŞIRIQ**

***60.1. 16 yaşınadək uşaq əmək müqaviləsi ilə gündə neçə saat işləyə bilər?***

A) 6 saat.
B) 8 saat.
C) 2 saat.
D) 4 saat.

***60.2. Aşağıdakılardan hansı əmək hüququna uyğundur?***

A) Uşağın gizli işləməsi.
B) Valideynin razılığı olmadan işləmək.
C) Əmək müqaviləsi ilə və qısaldılmış iş vaxtı ilə işləmək.
D) Yalnız yayda, istədiyi qədər işləmək.

***60.3. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| **1** | 15 yaşı tamam olmadan uşaqla əmək müqaviləsi bağlamaq olar. | |
| **2** | 15-18 yaşlı uşaqla əmək müqaviləsi bağlanarkən valideynin razılığı vacibdir. | |
| **3** | Uşaqlar gündə 8 saat işləyə bilərlər. | |
| **4** | Əmək hüquqları pozulanda heç kimə deməyə ehtiyac yoxdur. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Zümrüdün kitab mağazasında işləməsi onun hansı hüququnun həyata keçirilməsi nümunəsi hesab oluna bilər?
2. Atasının Zümrüdün işinə razılıq verməsi və əmək müqaviləsinin bağlanması uşaq əməyinin qorunması baxımından niyə vacibdir?
3. Yalçının müqaviləsiz və ağır işdə işlədilməsinin hüquqi və mənəvi baxımdan yanlış olduğunu necə izah edərdin?
4. Uşaqların iş saatlarının qanunla məhdudlaşdırılması onların hansı hüquqlarını qorumağa xidmət edir?
5. Zümrüdün qazandığı puldan həm özünə, həm də ailəsinə hədiyyə alması onun hansı şəxsi keyfiyyətlərini göstərir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də yayda işləmək istəyirsən, amma işəgötürən sənə “müqaviləyə ehtiyac yoxdur, sadəcə işləyib pulunu alarsan” deyir. Bu halda sən necə davranardın və hüquqlarını necə müdafiə edərdin?

## 61-ci dərs

## Gecə növbəsi

Yay tətili idi. Pəri oyuncaq mağazasında işləyirdi. Günortadan sonra mağaza sahibi Səməd əmi ondan xahiş etdi ki, axşam mağaza bağlanana qədər qalsın. Bu, o demək idi ki, Pəri gecə saat 11-ə qədər işləməlidir.

- Amma mən 17 yaşındayam, - Pəri tərəddüdlə dedi, - qanuna görə, uşaqları gecə vaxtı işlədə bilməzsiniz, elə deyilmi?

Səməd əmi gülümsədi:

- Mən sənin öz hüquqların haqqında nə dərəcədə məlumatlı olduğunu yoxlayırdım. Tamamilə haqlısan. Əmək Məcəlləsində yazılıb ki, gecə vaxtı yerinə yetirilən işlərə 18 yaşına çatmamış şəxslərin cəlb edilməsinə yol verilmir. Səni gecə növbəsində işləməyə heç kim məcbur edə bilməz.



O anda mağazaya Pərinin sinif yoldaşı Yusif daxil oldu. O, yeni açılan kafedə işləməyə başlamışdı və çox yorğun görünürdü. Söhbət əsnasında məlum oldu ki, Yusif hər axşam saat 10-dan gecəyarısına qədər işləyir. Pəri təəccüblə soruşdu:

- Bəs sən bilirsən ki, bu, qanunsuzdur?
- Xeyr, bilmirəm, - Yusif cavab verdi.

Pəri bu məsələni atasına danışdı. Atası izah etdi ki, belə hallarda işəgötürən məsuliyyət daşıyır və mütləq müvafiq orqanlara məlumat vermək lazımdır.

Bir neçə gün sonra Yusifi gecə vaxtı işə cəlb etdiyinə görə kafenin sahibi cəzalandırıldı.

Yusif indi gündüz növbəsində işləyir və dərslərinə daha yaxşı hazırlaşa bilir. O, başa düşdü ki, işləmək hüququ olsa da, heç kim onu gecə növbəsində işləməyə məcbur edə bilməz.

***61-ci dərsdən nələri öyrəndik?***

• Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, 18 yaşına çatmamış şəxslərin gecə vaxtı işlədilməsi qadağandır.

• Gecə vaxtı görülən işlər uşaqların sağlamlığına, istirahətinə və təhsilinə mənfi təsir göstərə bilər.

• İşəgötürənlər bu qaydaya əməl etməlidirlər, əks halda qanunla məsuliyyət daşıyırlar.

## TAPŞIRIQ

***61.1. Pəri axşam mağaza bağlanana qədər işləməyə niyə etiraz etdi?***

A) Yorğun idi.
B) Gecə işləmək istəmirdi.
C) 18 yaşına çatmadığı üçün gecə vaxtı işləmək qanuna zidd idi.
D) Mağazadan getmək istəyirdi.

***61.2. Yaşı on səkkizdən az olan işçilərlə bağlı hansı hal qanuna görə qadağandır?***

A) Onların yay tətilində işləməsi.
B) Onların gündə 4-6 saat işləməsi.
C) Onların gecə vaxtı işlərə cəlb edilməsi.
D) Onların valideyn razılığı ilə işləməsi.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Pərinin Səməd əmiyə “gecə işləyə bilmərəm” deməsi onun hansı hüquqi biliyə sahib olduğunu göstərir?
2. Uşaqların gecə vaxtı işlədilməsinə qadağa qoyulmasının əsas məqsədi nədir?
3. Yusifin öz hüquqlarını bilməməsi hansı mənfi nəticələrə səbəb olmuşdu?
4. Pərinin davranışı digər uşaqlar üçün nümunə təşkil edirmi?

## SİTUATİV SUAL

Təsəvvür et ki, işlədiyin yerdə sənə deyirlər: “Bu gün gecə saat 12-yə qədər işdə qalmalısan, əks halda işdən çıxararıq.” Sən 17 yaşındasan. Bu vəziyyətdə nə edərdin və hansı hüququnu müdafiə edərək necə davranardın?

# 62-ci dərs

## İş təklifi

Yay tətili yeni başlamışdı. Turan böyük qardaşı Akiflə parkda oturub söhbət edirdilər. Turanın əlində kiçik bir elan kağızı var idi.

- Bilirsən, - Turan dedi, - mənə yaxşı maaş verəcəklər. Bir tanış dedi ki, şəhərin mərkəzində yeni açılan bir klubda içki qutularını daşımaq üçün işçi axtarırlar. Gecə saat 9-dan səhər 3-ə kimi işləyəcəyəm. Maaş da çoxdur.

Akif dərhal narahat oldu:

- Turan, səncə, bu düzgündür? Axı bu klubda alkoqollu içkilər satılır. Həm də sən hələ 16 yaşındasan, uşaqların isə gecə vaxtı işlədilməsi qadağandır.

Turan çiyinlərini çəkdi:

- Pul qazanmaq istəyirəm. Nə fərqi var, içkilər ki mənim deyil.

Akif gülümsəyərək dedi:



- İşləməyinə etiraz etmirəm. Amma qanuna görə, yaşı 18-dən az olan şəxslərin alkoqollu içkilərin, tütün məmulatlarının daşınması və satışı işlərində işləməsi qadağandır. Bu siyahıya gecə klubları, barlar da daxildir. Sən belə yerdə işləsən, təkcə sağlamlığın və dərslərin deyil, həm də gələcəyin risk altında olar.

Turan bir anlıq susdu. Qardaşının dediklərini düşündü. Həmin axşam işi qəbul etmədi və əvəzində idman mağazasında köməkçi olaraq işləməyə başladı. Burada o, idman geyimlərini düzür, müştərilərə kömək edir və günün sonunda özünü rahat hiss edirdi.

Turan öyrəndi ki, yaxşı maaş bəzən doğru seçim demək deyil. Ən vacibi, insanın işlədiyi mühitin onun sağlamlığına, təhsilinə və mənəvi inkişafına zərər vurmamasıdır.

***62-ci dərsdən nələri öyrəndik?***

- 18 yaşına çatmamış şəxslərin əxlaqi kamilliyinə mənfi təsir göstərə biləcək işlərdə, məsələn, gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının daşınması və satışı kimi işlərdə işlədilməsi qanunla qadağandır.
- Qanun bu qadağaları uşaqların sağlamlığını və mənəvi inkişafını qorumaq üçün müəyyən edib.
- Valideynlər və böyüklər bu qaydaları bilməli, uşaqları belə işlərdən qorumağa çalışmalıdırlar.
- Uşaqlar da öz hüquqlarını bilməli və təhlükəli, zərərli işlərə cəlb olunmağa razı olmamalıdırlar.

### TAPŞIRIQ

***62.1. Turanın qardaşı Akif niyə narahat oldu?***

A) Çünki Turan işləmək istəyirdi.
B) Çünki iş uzaqda idi.
C) Çünki Turan məktəbi tərk etmişdi.
D) Çünki Turan gecə vaxtı və alkoqollu içkilərin daşınması ilə bağlı işə girmək istəyirdi.

***62.2. Aşağıdakılardan hansı işlərə 18 yaşına çatmamış şəxslərin cəlb edilməsi qanunla qadağandır?***

A) Gecə klubunda içkilərin daşınması.
B) Kitab mağazasında satış köməkçisi işləmək.
C) İdman düşərgəsində könüllü olmaq.
D) Kitabxanada kitab rəflərini düzəltmək.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Turanın elanla bağlı düşünməli olduğu əsas sual nə olmalı idi: maaş, yoxsa işin mahiyyəti?
2. Niyə qanun 18 yaşdan kiçik şəxslərin alkoqollu içkilərin daşınması və satışı ilə bağlı işlərdə işləməsini qadağan edir?
3. Turanın qardaşı Akifin məsləhəti olmasaydı, bu iş Turan üçün gələcəkdə hansı mənfi nəticələrə səbəb ola bilərdi?
4. "Yaxşı maaş" həmişə "düzgün seçim" deməkdirmi? Bunu Turanın qərarı nümunəsində necə izah etmək olar?

### SİTUATİV SUAL

Təsəvvür et ki, 16 yaşın var və sənə yüksək maaş vəd edirlər, amma iş yeri siqaret anbarında qutu daşımaqdır. Səndən tələb olunur ki, hər gün axşam saat 8-dən gecəyarısına qədər işləyəsən. Bu vəziyyətdə nə edərdin və hansı hüququna əsaslanıb qərar verərdin?

## 63-cü dərs

# Eldar və ağır qutu

Yay tətili başlamışdı. Eldar atasının işlədiyi kiçik anbarın yanında vaxt keçirirdi. Bir gün anbarda köməkçi işçi çatışmadığını görən anbar müdiri ona təklif etdi:

- Eldar, istəyirsənsə, sən də bizə kömək elə. Amma atan razı olmalıdır.

Eldarın16 yaşı vardı. Atası razılıq ərizəsini yazdı, əmək müqaviləsi bağlandı və Eldar işə başladı. Onun əsas işi qutuları yerindən götürüb anbarın içində başqa yerə daşımaq idi.

Bir gün Eldar böyük, ağır görünən bir qutunu qaldırmaq istədi. Yanında işləyən Elçin usta tez yaxınlaşıb dedi:



- Dayan, Eldar! Qanuna görə, sənin kimi 16-18 yaşlı oğlanlar eyni anda 15 kiloqramdan ağır yük qaldıra bilməz. Əgər yük hündür yerə qalxacaqsa, bu çəki 10 kiloqramdan artıq olmamalıdır.

Eldar təəccübləndi:

- Amma mən güclüyəm, qaldıra bilərəm.

- Güclü olmaq başqa şeydir, qanuna əməl etmək başqa, - Elçin usta gülümsədi, - sən hələ böyüyürsən. Ağır yük sənin belinə, əzələlərinə ziyan vura bilər.

Eldar qaydaya əməl edərək qutunun içindəkiləri iki yerə böldü. Beləliklə, heç bir yük 15 kiloqramdan artıq olmadı. O, işini daha rahat və təhlükəsiz gördü.

Yay boyu Eldar bu qaydaya riayət etdi. Sonda başa düşdü ki, güclü olmaq yalnız çox yük qaldırmaq deyil, həm də ağıllı və təhlükəsiz işləməkdir.

***63-cü dərsdən nələri öyrəndik?***

- 18 yaşdan kiçik şəxslərin normadan artıq ağır əşyalar qaldırması və daşıması qadağandır.
- 16-18 yaşlı oğlanlar eyni anda 15 kiloqramdan ağır yük qaldıra bilməzlər. Əgər yük hündür yerə qalxacaqsa, bu çəki 10 kiloqramdan artıq olmamalıdır.
- Qanun uşaqların sağlamlığını qorumaq və onların əmək şəraitini təhlükəsiz saxlamaq məqsədi daşıyır.

### TAPŞIRIQ

***63.1. Qanuna görə, 16–18 yaşlı oğlanlar eyni anda neçə kiloqramdan artıq yük qaldıra bilməzlər?***

A) 10 kq
B) 15 kq
C) 20 kq
D) 25 kq

***63.2. Yaşı 18-dən az olan şəxslərin normadan artıq ağır əşyalar qaldırması və daşıması nəyə görə qadağandır?***

A) Onların sağlamlığını qorumaq üçün.
B) Onların iş sürətini artırmaq üçün.
C) Daha çox işçi cəlb etmək üçün.
D) Əmək haqqını azaltmaq üçün.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Eldarın “mən güclüyəm, qaldıra bilərəm” deməsinə sənin münasibətin necədir?
2. Niyə qanun 16-18 yaşlı uşaqlar üçün yük qaldırma limiti müəyyən edir?
3. Eldar qaydaya əməl etməsəydi, bu, onun sağlamlığına necə təsir edə bilərdi?
4. Eldarın işə başlamasından əvvəl atasının yazılı razılığı ilə əmək müqaviləsi bağlanmasının səbəbi nə idi?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də 16 yaşındasan və mağazada ağır su qablarını daşımaq üçün işə götürülmüsən. Rəhbər sənə 20 kiloqramlıq qabları qaldırmağı tapşırır. Sən necə davranardın və hansı hüququna əsaslanaraq qərar verərdin?

## 64-cü dərs

# Aysel və yüngül bağlama

Aysel yay tətilində anasının işlədiyi dəftərxana mağazasında köməkçi kimi işləmək istəyirdi. Anası əvvəlcə tərəddüd etsə də, Ayselin 16 yaşı tamam olduğuna görə razılıq ərizəsi yazdı və əmək müqaviləsi bağlandı.

Ayselin işi kağız bağlamalarını anbar rəflərinə yerləşdirmək idi. Bir gün satıcı ondan iri bir qutunu yuxarı rəfə qaldırmasını xahiş etdi.

Aysel əllərini qutunun altına qoydu, amma mağazanın sahibi Nigar xanım dərhal irad bildirdi:




- Aysel, diqqətli ol. Qanuna görə, 16–18 yaş arası qızlar bir anda 10 kiloqramdan ağır yükü yerindən götürə bilməz. Əgər yük yuxarı qalxacaqsa, bu çəki 5 kiloqramdan artıq olmamalıdır. Sənin sağlamlığın hər şeydən vacibdir.

Aysel bir az utandı:

- Amma məncə, qutunu qaldıra bilərəm.

- Ola bilər, amma bu, sənin belinə, qollarına və sağlam böyüməyinə mənfi təsir edə bilər. Biz qanuna əməl etməliyik, - Nigar xanım izah etdi.

Aysel qutunun içindəkiləri iki yerə böldü və yüngülləşdirərək yuxarı rəfə qaldırdı. Bu, həm təhlükəsiz oldu, həm də Aysel üçün heç bir çətinlik törətmədi.

Yay tətili boyu Aysel həmişə yüklərin çəkisinə diqqət yetirdi və öyrəndi ki, qaydalara əməl etmək həm sağlamlığı qoruyur, həm də işin səmərəliliyini artırır.

***64-cü dərsdən nələri öyrəndik?***

- Qız uşaqlarının (16 yaşdan kiçik) icazə verilən yük norması oğlanlara nisbətən daha azdır.
- Yaşı 16-dan az olan qızlar yalnız müəyyən çəki həddində yüngül əşyaları qaldıra bilərlər.
- Uşaq əməyinin qorunması üçün qanunda konkret normalar göstərilib.
- İşəgötürən uşaqlar üçün təhlükəsiz və sağlam şərait yaratmalıdır.
- Qaydalar uşaqların fiziki inkişafına zərər verməmək üçün tətbiq olunur.

TAPŞIRIQ

***64.1. Nigar xanım Ayselə nə üçün irad bildirdi?***

A) Çünki işə gec gəlmişdi.
B) Çünki kassada səhv etmişdi.
C) Çünki 10 kq-dan ağır qutu qaldırmaq istəyirdi.
D) Çünki müştəriyə kobud cavab vermişdi.

***64.2. Qanuna görə, 16–18 yaş arası qızlar bir anda maksimum neçə kiloqramlıq yük qaldıra bilər?***

A) 7 kq.
B) 10 kq.
C) 15 kq.
D) 20 kq.

***64.3. Əgər 16–18 yaş arası qızlar yükü yuxarı qaldıracaqlarsa, bu çəki maksimum neçə kiloqram ola bilər?***

A) 3 kq.
B) 5 kq.
C) 7 kq.
D) 10 kq.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nigar xanımın Ayselə irad bildirməsinin əsas məqsədi nə idi?
2. Niyə qanun 16–18 yaş arası qızlar üçün qaldırılacaq yükün çəkisinə məhdudiyyət qoyur?
3. Ayselin “məncə qaldıra bilərəm” fikri sağlamlıq baxımından hansı təhlükəni yaradırdı?
4. Qanunlara əməl etməyin həm işdə, həm də gündəlik həyatda əhəmiyyəti nədən ibarətdir?
5. Ayselin yükü bölüb yüngülləşdirməsi onun hansı keyfiyyətini göstərir: itaətkarlıq, məsuliyyət, yoxsa ağıllı qərarvermə?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də 17 yaşındasan və sənə anbar işində 15 kiloqramlıq qutunu yuxarı rəfə qaldırmağı tapşırırlar. Rəhbər “sən güclüsən, bacararsan” deyir. Bu vəziyyətdə necə davranardın və hansı hüququna əsaslanardın?

## 65-ci dərs

## Ömər və oyuncaq mağazası

Ömər 16 yaşındaydı. Yay tətilində təcrübə qazanmaq üçün işləməyi düşünürdü. Bir gün məktəbdən çıxarkən sinif yoldaşı Fariz ilə söhbət etdi:

- Fariz, bilirsən, mən yaxınlıqdakı böyük oyuncaq mağazasında işləmək istəyirəm.

Fariz bir az təəccübləndi:

- Amma səni işə götürməyəcəklər ki... Sənin 16 yaşın var, yetkinlik yaşına çatmamısan.

Ömər isə əminliklə cavab verdi:

- Elə deyil, Fariz. Qanuna görə, yetkinlik yaşına çatmadığıma, yəni yaşımın 18-dən az olmasına görə mənim işə qəbul olunmağımdan imtina edə bilməzlər. Əsas odur ki, işim mənim yaşım üçün uyğun olsun və mən də onu məsuliyyətlə yerinə yetirim.

Ertəsi gün Ömər mağazaya gedib müraciət etdi. Mağaza müdiri gülümsəyərək onu qarşıladı və lazımi izahatı verdikdən sonra Ömərin işə başlamasına razılıq verdi. İlk iş günü o, rəngbərəng oyuncaqları rəflərə düzdü, balaca müştərilərə seçimlərində yardımçı oldu və özünü çox xoşbəxt hiss etdi.

***65-ci dərsdən nələri öyrəndik?***

- Yaşı 18-dən az olan şəxslərin yalnız azyaşlı olduqları və ya peşə təcrübələrinin az olması səbəbi ilə işə qəbul edilməsindən imtina etmək olmaz.
- İş yaşa uyğun olmalı, təhlükəsiz və öyrədici mühitdə həyata keçirilməlidir.




TAPŞIRIQ

***65.1. Qanuna görə, 18 yaşına çatmamış uşaqlar hansı şərtlə işləyə bilərlər?***

A) Əgər iş onların yaşına və sağlamlığına uyğundursa.
B) Əgər dərslərindən yüksək qiymət alırlarsa.
C) Əgər çox pul qazanmaq istəyirlərsə.
D) Əgər məktəbə getmirlərsə.

***65.2. Hekayənin əsas ideyası nədir?***

A) Uşaq işləməməlidir.
B) Hər kəs yalnız böyüyəndən sonra işləyə bilər.
C) Yaşı 18-dən az olan şəxslərin yalnız azyaşlı olduqlarına görə işə qəbul edilməsindən imtina etmək olmaz.
D) Qanun yalnız böyükləri qoruyur.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Ömər niyə işləmək istəyirdi və bunun ona hansı faydaları ola bilərdi?
2. Farizin fikri səhv idi. Onun yanlış düşünməsinə səbəb nə ola bilərdi?
3. Qanuna görə, işəgötürən 16 yaşlı bir şəxsi hansı hallarda işə götürə bilər?
4. Ömərin işə qəbul edilməsi digər gənclərə hansı mesajı verə bilər?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sən də 16 yaşındasan və işləmək istəyirsən, amma mağaza müdiri sənə deyir: “biz uşaqları işə götürmürük.” Sən bu cavaba necə reaksiya verərsən? Öz hüququnu necə izah edərsən?

## 66-cı dərs

## Elcanın əməkhaqqısı



Elcan yay tətilində bir kitab mağazasında işləməyə başlamışdı. Onun 17 yaşı var idi, buna görə də qısaldılmış iş vaxtı ilə çalışırdı. O, gün ərzində böyüklərlə müqayisədə daha az saat işləyir, qalan vaxtını isə həm dərslərinə hazırlaşmağa, həm də dostları ilə vaxt keçirməyə sərf edirdi.

Bir gün kassada işləyərkən Elcan iş yoldaşı Şəhlaya dedi:

- Mən az saat işləyirəm, yəqin maaşım da səndən azdır.

Şəhla təəccüblə gülümsədi:

- Xeyr, Elcan! Qanuna görə, 18 yaşına çatmamış işçilər qısaldılmış iş vaxtı şəraitində işləsələr də, əməkhaqqıları böyüklərlə eyni olur.

Elcan bunu eşidəndə sevindi. Deməli, iş vaxtı qısa olsa da, maaşında fərq olmayacaqdı. O, düşündü ki, bu, uşaqların həm təhsilinə, həm də iş təcrübəsinə eyni vaxtda imkan yaradan çox ədalətli bir qaydadır.

***66-cı dərsdən nələri öyrəndik?***

• 18 yaşına çatmamış işçilər qanuna görə qısaldılmış iş vaxtı ilə çalışırlar.

• Qısaldılmış iş vaxtı işləsələr də, onların əməkhaqqıları eyni vəzifədə işləyən böyüklərlə eyni məbləğdə ödənilir.

• Bu qayda uşaqlara həm təhsilinə vaxt ayırmaq, həm də iş təcrübəsi qazanmaq imkanı verir.

TAPŞIRIQ

***66.1. Elcan nə üçün qısaldılmış iş vaxtı ilə işləyirdi?***

A) Çünki mağaza buna icazə vermirdi.
B) Çünki o, tələbə idi.
C) Çünki 18 yaşına çatmamış işçilər qanuna görə qısaldılmış iş vaxtı ilə çalışırlar.
D) Çünki o, yalnız həftəsonu işləmək istəyirdi.

***66.2. Aşağıdakılardan hansı 18 yaşına çatmamış işçilər üçün doğrudur?***

A) Qısaldılmış iş vaxtı ilə işləyir, əməkhaqqı isə böyüklərdən az olur.
B) Qısaldılmış iş vaxtı ilə işləyir, əməkhaqqının yalnız yarısı ödənilir.
C) Tam iş vaxtı ilə işləyir, əməkhaqqı böyüklərlə eyni olur.
D) Qısaldılmış iş vaxtı ilə işləyir, əməkhaqqı böyüklərlə eyni olur.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Elcanın qısaldılmış iş vaxtı ilə işləməsi onun həyat tərzinə necə təsir edirdi?
2. Niyə uşaqların iş vaxtı qısa olsa da, maaşı böyüklərlə eyni qalır? Bu qaydanın məqsədi nə ola bilər?
3. Elcanın əməkhaqqısının böyüklərlə eyni olduğunu öyrənəndə sevinməsi nəyi göstərir? Hüququnu bilməyin insan davranışına təsiri barədə nə düşünürsən?
4. Bu hekayə uşaqların həm işləyib, həm də təhsil ala bilməsi ilə bağlı hansı nəticəyə gəlməyə imkan verir?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də 17 yaşındasan və işlədiyin yerdə sənə deyirlər: “sən az işlədiyin üçün maaşın yarıbayarı azalacaq.” Sən bu vəziyyətdə nə edərdin? Öz hüququnu müdafiə etmək üçün hansı arqumentləri gətirərdin?

## 67-ci dərs

## Bayram günü işə çağırılan Lətif



Lətif dərslərində çox çalışqan idi. Yay tətilində cib xərcliyini qazanmaq üçün bir kitab mağazasında işləməyə başlamışdı. Mağazada kitablara qulluq etmək, vitrinləri səliqəyə salmaq Lətifin xoşuna gəlirdi.

Bir gün mağaza müdiri Lətifə dedi:

- Lətif, sabah bayramdır, amma çoxlu yeni kitab gələcək. Gəl, bizə kömək elə.

Lətif təəccüblə soruşdu:

- Sabah istirahət günü deyilmi?

Müdir bir az susdu, sonra dedi:

- Bəli, amma sən kömək etsən, işimiz tez bitər.

Lətif bu söhbəti evdə atasına danışdı. Atası izah etdi ki, 18 yaşına çatmamış işçilərin istirahət, bayram və digər qeyri-iş günlərində işlədilməsi qadağandır. Bu, uşaqların hüquqlarını qorumaq üçün qoyulmuş bir qaydadır.

Lətif bu qaydanı mağaza müdirinə dedi. Müdir Lətifin bayram günü işə çağırılmasının qanuna uyğun olmadığını anladı və bayram günündə Lətifə işləməyəcəyini deyərək ondan üzr istədi.

Beləliklə, Lətif həm hüququnu öyrəndi, həm də özünü qorudu.

***67-ci dərsdən nələri öyrəndik?***

- 18 yaşına çatmamış işçilərin istirahət, bayram və digər qeyri-iş günlərində işlədilməsi qanunla qadağandır.
- Öz hüquqlarını bilən uşaq və yeniyetmələr istismar olunmaqdan və qanunsuz iş şərtlərindən qoruna bilirlər.
- İşəgötürənlər qanunu bilməli və azyaşlı işçilərin hüquqlarına hörmətlə yanaşmalıdırlar.
- Bu qayda uşaqların fiziki və psixoloji sağlamlığını qorumaq, onlara istirahət və inkişaf üçün vaxt ayırmaq məqsədi daşıyır.

TAPŞIRIQ

***67.1. 18 yaşına çatmamış işçilərin istirahət və bayram günlərində işlədilməsi:***

A) Qadağandır.
B) Yalnız valideynin icazəsi ilə mümkündür.
C) Həftədə bir dəfə icazə ilə mümkündür.
D) Heç bir icazə olmadan mümkündür.

***67.2. A sütunundakı anlayışları B sütunundakı izahlarla uyğunlaşdırın.***

| A | | B | |
|---|---|---|---|
| 1 | 18 yaşına çatmamış işçinin | A | İşçinin hüquqlarına hörmət etməlidir |
| 2 | 18 yaşına çatmamış işçinin istirahət günü | B | İş vaxtı qısaldılmış olur |
| 3 | İşəgötürən | C | Hüququnu bilib müdafiə etdi |
| 4 | Lətif | D | İşlədilməsi qadağandır |

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Niyə uşaqların bayram və istirahət günlərində işlədilməsi qanunla qadağandır?
2. Lətifin mağaza müdirinə hüququnu izah etməsi onun hansı xüsusiyyətini göstərir?
3. Lətif bayram günü işləsəydi, bu, onun tətil hüququndan məhrum olması baxımından necə nəticələnə bilərdi?
4. Bu hekayə bizə uşaqların əmək və istirahət hüquqlarının balansı haqqında nə öyrədir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də yay tətilində işləyirsən və işəgötürən deyir: “bayram günü hamı işləyəcək, sən də gəlməlisən.” Sən bu zaman necə davranardın? Hüququnu müdafiə etmək üçün nə deyərdin?

## 68-ci dərs

## Kamranın təhlükəli iş arzusu



Kamran 15 yaşında idi. Yay tətili başlamışdı və o, işləyərək həm təcrübə, həm də pul qazanmaq istəyirdi. Dostlarından biri ona dedi:

- Kamran, gəl zavoda gedək. Orada bizdən yaşca böyüklər işləyir, biz də işləyib pul qazana bilərik.

Kamran bu fikrə sevindi. Amma evdə anasına danışanda, anası dərhal narahat oldu:

- Oğlum, sən hələ uşaqsan. Qanuna görə, uşaqların ağır, zərərli və təhlükəli işlərdə işləməsi yolverilməzdir.

Atası da əlavə etdi:

- Dövlət sizi belə işlərdən qoruyur. Qanuna əsasən, uşaqların istismarı qadağandır. Sizin indi əsas vəzifəniz oxumaq və sağlam böyüməkdir.

Sonrakı gün məktəbdə müəllim də bu mövzuda söhbət açdı:

- Uşaqlar, bəzən kimsə sizə pul qazanmaq üçün ağır işlər təklif edə bilər. Unutmayın ki, bu, həm sağlamlığınıza zərərlidir, həm də qanuna ziddir. Dövlət sizin gələcəyinizi qorumaq üçün bu cür işlərdən uzaq qalmanızı təmin edir.

Kamran başa düşdü ki, pul qazanmaq yaxşı arzudur, amma bu, onun sağlamlığı bahasına olmamalıdır. O, dostlarına da dedi:

- Bizim üçün ən önəmlisi təhsil almaq və sağlam böyüməkdir. Ağır işlər böyüklər üçündür.

***68-ci dərsdən nələri öyrəndik?***

- Uşaqlar istismarın bütün növlərindən qorunmalıdırlar.
- Dövlət sosial, hüquqi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları zərərli və təhlükəli əməkdən mühafizə edir.
- Ağır və təhlükəli işlər uşaqlar üçün deyil, böyüklər üçündür.

**TAPŞIRIQ**

***68.1. Qanuna görə, aşağıdakılardan hansı uşaqlar üçün ən vacib vəzifədir?***

A) İşləmək.
B) Oxumaq və sağlam böyümək.
C) Pul qazanmaq.
D) Dostları ilə vaxt keçirmək.

***68.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| **1** | Uşaqların ağır, zərərli və təhlükəli işlərdə işləməsi qanuna görə yolverilməzdir. | |
| **2** | Dövlət uşaqları yalnız məktəbdə qoruyur, digər hallarda məsuliyyət daşımır. | |
| **3** | Uşaqları istismardan qorumaq üçün dövlətin yox, yalnız valideynlərin vəzifəsidir. | |
| **4** | Ağır və təhlükəli işlər uşaqlar üçün deyil, böyüklər üçündür. | |

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Niyə 15 yaşlı Kamranın zavodda işləməsi qanuna uyğun sayılmır?
2. Uşaqların ağır və təhlükəli işlərdən qorunması nə üçün vacibdir?
3. Kamranın valideynlərinin mövqeyi onun gələcəyi üçün hansı mənada əhəmiyyət daşıyır?
4. Pul qazanmaq istəyi ilə sağlamlıq, eləcə də təhsil arasında hansı seçim edilməlidir?

**SİTUATİV SUAL ?**

Təsəvvür et ki, sənə də yay tətilində yüksək maaşlı, amma ağır və təhlükəli bir iş təklif edirlər. Sən necə qərar verərdin və bu təklifi qəbul edib-etməmək üçün özünə hansı sualları verərdin?

# VIII FƏSİL

# Kibertəhlükəsizlik

## 69-cu dərs

# Ləmanın onlayn sifarişi

Ləman internetdə gözəl çantalar gördü. Saytda yazılmışdı: "Çox ucuz, tez çatdırılma". Ləman valideyninə demədən öz cib xərcliyindən istifadə edərək həmin çantanı sifariş etdi.

Bir neçə gün keçdi, amma nə çanta gəldi, nə də satıcıya yazdığı məktublara cavab verildi. Ləman çox məyus oldu və bu barədə anasına danışdı. Anası dedi:

- Qızım, hər onlayn mağaza etibarlı olmur. Elektron ticarətdə diqqətli olmaq lazımdır. Əgər sayta etibar etməsən, həm pulunu itirə bilərsən, həm də şəxsi məlumatların oğurlana bilər.




Atası əlavə etdi:

- Uşaqlar bilməlidirlər ki, internetdə alış-veriş yalnız rəsmi və etibarlı saytlar vasitəsilə edilməlidir. Əks halda, fırıldaqçılar pulunuzu alıb heç nə göndərməyə bilərlər.

Ləman çox peşman oldu və başa düşdü ki, internetdə alış-veriş etməzdən əvvəl mütləq böyüklərlə məsləhətləşmək lazımdır.

***69-cu dərsdən nələri öyrəndik?***

- Elektron ticarətdə yalnız etibarlı və rəsmi saytlardan istifadə edilməlidir.
- Tanımadığınız saytlarda ucuz qiymətə aldatma hallarına rast gələ bilərsiniz.
- Onlayn alış-verişdə şəxsi məlumatların təhlükəsizliyi qorunmalıdır.
- Uşaqlar alış-veriş etməzdən əvvəl valideynlərinə xəbər verməlidirlər.

**TAPŞIRIQ**

***69.1. Valideynləri Ləmana nəyi izah etdilər?***

A) İnternetdə alış-veriş etmək olmaz.
B) Etibarsız saytlardan alış-veriş etmək təhlükəlidir.
C) Onlayn ticarət yalnız ucuz olduqda düzgündür.
D) Pulun itməsi vacib deyil.

***69.2. Uşaqlar internetdə alış-veriş edərkən ilk növbədə nəyi nəzərə almalıdırlar?***

A) Ən ucuz məhsulu seçməlidirlər.
B) Dostlarının bəyəndiyi məhsulu sifariş etməlidirlər.
C) Yalnız etibarlı və rəsmi saytlardan istifadə etməlidirlər.
D) Reklamlarda görünən bütün məhsulları sifariş etməlidirlər.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. İnternetdən alış-veriş edərkən Ləmanın əsas səhvi nə idi?
2. Niyə elektron ticarətdə “ucuz qiymət” və “tez çatdırılma” kimi sözlər bəzən aldatma vasitəsi ola bilər?
3. Uşaqlar niyə onlayn alış-veriş etməzdən əvvəl valideynləri ilə məsləhətləşməlidirlər?
4. Etibarlı onlayn mağazanı necə tanımaq olar? Hansı əlamətlərə diqqət etmək lazımdır?
5. Ləman bu vəziyyətdən hansı dərsi aldı və gələcəkdə necə davranmalıdır?

## SİTUATİV SUAL

Təsəvvür et ki, sən də internetdə çox bəyəndiyin bir əşya görürsən, amma saytın etibarlı olub-olmadığını bilmirsən. Sən hansı addımları atardın ki, aldadılmayasan?

## 70-ci dərs

## Emil və onlayn anket

Emil internetdə maraqlı bir oyun saytına girdi. Saytda yazılmışdı: “Bu oyunu oynamaq üçün qeydiyyatdan keçin və hədiyyə qazanın!”

Emil çox həyəcanlandı. Qeydiyyat formasında adını, soyadını, ev ünvanını və hətta telefon nömrəsini yazdı.

Bir neçə gün sonra Emilə naməlum şəxslərdən zənglər gəlməyə başladı. Hətta tanımadığı biri məktəbinin adını da bilirdi. Emil qorxdu və vəziyyəti anasına danışdı.

Anası narahatlıqla dedi:

- Oğlum, bu çox təhlükəlidir! Şəxsi məlumatlarını internetdə paylaşmaq olmaz. Tanımadığın saytlara adını, ünvanını və telefonunu yazmaq sənin üçün böyük riskdir.

Sonra atası da izah etdi:

- İnternetdə yalnız etibarlı, rəsmi saytlarda qeydiyyatdan keçmək olar. Əks halda, şəxsi məlumatların oğurlanaraq pis məqsədlərlə istifadə edilə bilər.




Emil çox peşman oldu. O, başa düşdü ki, internetdə ehtiyatsızlıqla verdiyi şəxsi məlumatlar onu təhlükəyə ata bilər. Həmin gündən sonra Emil özünə söz verdi:

“Heç vaxt valideynimlə məsləhətləşmədən internetdə şəxsi məlumatlarımı paylaşmayacağam.”

***70-ci dərsdən nələri öyrəndik?***

- Şəxsi məlumatları (ad, ünvan, telefon, məktəb adı və s.) internetdə paylaşmaq olmaz.
- Tanımadığın saytlara qeydiyyat zamanı ehtiyatlı olmaq lazımdır.
- Şəxsi məlumatların oğurlanması uşaqlar üçün real təhlükə yarada bilər.
- İnternetdə qeydiyyat və alış-veriş etməzdən əvvəl mütləq valideynlərlə məsləhətləşmək lazımdır.

**TAPŞIRIQ**

***70.1. Uşaqlar internetdə hansı məlumatları paylaşmamalıdırlar?***

A) Ad, ünvan, telefon, məktəb adı.
B) Sevdikləri rəng.
C) Dostlarının adları.
D) Sevdikləri yeməklər.

***70.2. Uşaqlar internetdə oyunlara, sayt və proqramlara qeydiyyatdan keçərkən hansı qaydaya əməl etməlidirlər?***

A) Mümkün qədər çox məlumat yazmaq lazımdır ki, hədiyyə qazanmaq şansı artsın.
B) Sayt maraqlıdırsa, şəxsi məlumatları yazmaqda problem yoxdur.
C) Şəxsi məlumatları (ad, ünvan, telefon nömrəsi və s.) yalnız etibarlı saytlarda, valideynlə məsləhətləşdikdən sonra paylaşmaq olar.
D) Tanımadığın şəxslər yazırsa, onlara bütün məlumatlarını verə bilərsən.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Emil şəxsi məlumatlarını internetdə paylaşanda hansı təhlükə ilə üzləşdi?
2. Niyə naməlum və etibarsız saytlara ad, ünvan və telefon nömrəsi yazmaq düzgün deyil?
3. Emil öz səhvindən hansı mühüm nəticəni çıxardı?
4. Uşaq internetdə qeydiyyat aparmaq istəyirsə, niyə əvvəlcə valideyni ilə məsləhətləşməlidir?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sənə də internetdə oyun oynamaq və hədiyyə qazanmaq təklifi gəlir və qeydiyyat üçün şəxsi məlumatlarını istəyirlər. Sən nə edərsən? Özünü necə qoruyarsan?

## 71-ci dərs

## Orxanın "hədiyyə telefonu"

Orxan internetdə maraqlı bir elan gördü: "Bu linkə daxil ol, sadə sualları cavablandır və pulsuz telefon qazan!"

Orxan çox sevindi. Elana daxil oldu və bir neçə sadə sualı cavablandırdı. Sonra saytda yazıldı ki, hədiyyəni almaq üçün kiçik bir ödəniş etməlidir. Orxan kart məlumatlarını daxil etdi. Bir neçə dəqiqədən sonra bank hesabından pul silindi.




Günlər keçsə də telefon gəlmədi. Əksinə, daha çox şübhəli mesajlar gəlməyə başladı. Orxan qorxaraq bu barədə atasına danışdı.

Atası dedi:

- Oğlum, bu, onlayn fırıldaqçılıqdır. İnternetdə ucuz qiymət, hədiyyə və yalançı kampaniyalarla insanları aldadırlar. Bu cür elanlara inanmaq olmaz.

Anası əlavə etdi:

- İnternetdə heç vaxt kart məlumatlarını paylaşmaq olmaz. Əks halda, pulunu itirə bilərsən.

Orxan çox peşman oldu və başa düşdü ki, internetdə "ucuz" və ya "pulsuz" sözləri həmişə təhlükə siqnalı ola bilər. O bundan sonra heç vaxt valideynlərindən soruşmadan internetdə heç bir ödəniş etməyəcəyinə söz verdi.

***71-ci dərsdən nələri öyrəndik?***

- Onlayn fırıldaqçılar uşaqları ucuz qiymət, hədiyyə və yalançı kampaniyalarla aldada bilərlər.
- Saytın etibarlılığına əmin olmadan internetdə kart və şəxsi məlumatları paylaşmaq olmaz.
- İnternetdə gördüyümüz hər reklam və elan doğru olmur.

TAPŞIRIQ

***71.1. İnternetdə uşaqlar necə aldanırlar?***

A) Ucuz qiymət, hədiyyə və yalançı kampaniyalarla.
B) Yalnız müəllimlərin elanları ilə.
C) Dostlarının zarafatları ilə.
D) Televiziya xəbərləri ilə.

***71.2. İnternetdə kart məlumatlarını paylaşmaq hansı təhlükəni yarada bilər?***

A) Kartın rənginin dəyişməsi.
B) Kompüterin sönməsi.
C) Oyunun pozulması.
D) Pulun oğurlanması.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Orxan niyə internetdəki elana inandı və hansı səhvi etdi?
2. Niyə internetdə "pulsuz hədiyyə" və "ucuz kampaniya" kimi elanlara ehtiyatla yanaşmaq lazımdır?
3. Orxan kart məlumatlarını paylaşanda hansı təhlükə ilə üzləşdi?
4. Valideynlərin bu vəziyyətdə Orxana verdiyi məsləhətin əsas məqsədi nə idi?
5. Səncə, Orxanın bu hadisədən çıxardığı ən vacib dərs nə oldu?

**SİTUATİV SUAL**

Təsəvvür et ki, sənə də internetdə "pulsuz planşet qazan" elanlı bir link gəlir və səndən kart məlumatlarını yazmağın tələb olunur. Sən necə davranardın? Özünü necə qoruyardın?

## 72-ci dərs

# Zakir və oyunun gizli təhlükəsi

Zakir 12 yaşında idi. O, dostlarının məsləhəti ilə internetdən yeni bir oyun yüklədi. Oyun çox maraqlı görünürdü, amma oynamağa başlayanda qəfil ekranda qəribə və qorxulu şəkillər peyda oldu. Hətta oyunun içində uşaqlar üçün uyğun olmayan mesajlar da var idi.

Zakir əvvəlcə oyuna davam etmək istədi, amma bir az sonra özünü narahat hiss etdi. O, həmin səhnələrin beynində qaldığını və onu qorxutduğunu anladı.

Zakir bu barədə anasına danışdı. Anası dedi:



- Oğlum, internetdə bütün oyunlar və videolar uşaqlar üçün uyğun olmur. Zərərli məzmun adlanan belə materiallar uşaqların psixologiyasına mənfi təsir edə bilər. Ona görə hər zaman etibarlı mənbələrdən istifadə etmək lazımdır.

Atası da əlavə etdi:

- İnternetdə yalan məlumatlar və uşaqlar üçün zərərli videolar da çoxdur. Ona görə bilmədiyin və ya şübhəli hesab etdiyin məzmunu açmamalısan. Əgər belə bir hala rast gəlsən, dərhal bizə deməlisən.

Zakir anladı ki, internet yalnız faydalı biliklərlə deyil, həm də zərərli materiallarla doludur. O, bundan sonra oyun və videoları yükləməzdən əvvəl mütləq valideynlərindən soruşmağa qərar verdi.

***72-ci dərsdən nələri öyrəndik?***

- İnternetdə bütün oyunlar və videolar uşaqlar üçün uyğun olmur.
- Zərərli kontent uşaqların psixologiyasına və davranışına mənfi təsir göstərə bilər.
- Şübhəli saytlardan və tanımadığımız məzmundan uzaq durmaq lazımdır.
- Uşaqlar belə hallarla rastlaşanda dərhal valideynlərinə xəbər verməlidirlər.

**TAPŞIRIQ**

***72.1. Zərərli məzmun uşaqlara necə təsir göstərir?***

A) Onları sevindirir.
B) Onların daha yaxşı oxumasına səbəb olur.
C) Onlara yeni dost qazandırır.
D) Onların psixologiyasına mənfi təsir edir və qorxu yaradır.

***72.2. Uşaqlar zərərli məzmunla qarşılaşanda nə etməlidirlər?***

A) Susub heç kimə deməməlidirlər.
B) Onu dostları ilə paylaşmalıdırlar.
C) Dərhal valideynlərinə və ya müəllimlərinə xəbər verməlidirlər.
D) Oyunu davam etdirməlidirlər.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Zakirin yüklədiyi oyunun ona mənfi təsir göstərməsinin əsas səbəbi nə idi?
2. Niyə internetdəki bütün oyun və videolara etibar etmək olmaz?
3. Zərərli kontent uşaqların psixologiyasına necə təsir edə bilər?
4. Zakirin valideynlərinin ona verdiyi məsləhətin məqsədi nə idi?
5. Zakir bu hadisədən sonra hansı düzgün qərarı verdi?

## SİTUATİV SUAL

Təsəvvür et ki, sən də internetdən oyun yükləyirsən və oyunun içində qorxulu və ya səni başqa şəkildə narahat edən səhnələr (məsələn, yaşına uyğun olmayan, pis vərdişləri təbliğ edən və s.) görürsən. Sən bu halda nə edərdin və özünü necə qoruyardın?

## 73-cü dərs

# Aylinin mesajları

Aylin 13 yaşında idi. O, sosial şəbəkədə dostları ilə şəkillərini paylaşmağı sevirdi. Bir gün məktəbdən olan bir neçə şagird onun şəkillərinin altına xoşagəlməz şərhlər yazdı:

- "Sən çox gülməlisən!"

- "Şəkillərin dəhşətlidir!"

Aylin çox kədərləndi. Sonrakı günlərdə həmin uşaqlar ona şəxsi mesaj da yazmağa başladılar. Bəzən onu məsxərəyə qoyur, bəzən də təhdid edirdilər. Aylin özünü çox pis hiss etdi, məktəbə getmək istəmirdi.

Nəhayət, Aylin bu barədə anasına danışdı. Anası dedi:

- Qızım, bu, kiberbullinq (kibertəzyiq) adlanır. İnternetdə təhqir, məsxərəyə qoyma, şantaj və təhdidlər qanuna ziddir. Sən heç vaxt susmamalısan.




Atası əlavə etdi:

- Biz bunu müəlliminə və məktəb rəhbərliyinə bildirəcəyik. Zəruri olsa, polisə də müraciət edəcəyik. Sənin hüquqların qorunmalıdır.

Məktəbdə məsələ araşdırıldı və həmin uşaqlara qarşı tədbir görüldü. Onlara başa salındı ki, internetdə kimisə təhqir etmək ciddi qanun pozuntusudur və məsuliyyət doğurur.

Aylin özünü daha rahat hiss etdi. O anladı ki, internetdə də real həyatda olduğu kimi, hər kəs hörmət və qayğıya layiqdir.

***73-cü dərsdən nələri öyrəndik?***

• İnternetdə başqasını təhqir etmək, məsxərəyə qoymaq və ya təhdid etmək kiberbullinq adlanır.

• Kiberbullinq uşaqların psixologiyasına və gündəlik həyatına mənfi təsir göstərə bilər.

• Belə hallarda susmaq olmaz - valideynlərə, müəllimə və ya hüquq-mühafizə orqanlarına müraciət etmək lazımdır.

• Hər bir uşaq həm real həyatda, həm də internetdə hörmət və müdafiə hüququna malikdir.

TAPŞIRIQ

***73.1. Aylin sosial şəbəkədə şəkillərini dostları ilə paylaşdıqdan sonra hansı vəziyyətlə qarşılaşdı?***

A) Dərsdə qiymət aldı.
B) Sosial şəbəkədən çıxarıldı.
C) Müəllimi ilə mübahisə etdi.
D) Kiberbullinqə məruz qaldı.

***73.2. Kiberbullinq nə deməkdir?***

A) İnternetdə oyun oynamaq.
B) İnternet və sosial şəbəkələrdə kimisə təhqir etmək, məsxərəyə qoymaq, şantaj və ya təhdid etmək.
C) Dostlarla mesajlaşmaq.
D) Yeni proqram öyrənmək.

***73.3. Uşaqlar kiberbullinqə məruz qalanda necə davranmalıdırlar?***

A) Susmalıdırlar.
B) Özləri də başqalarına eynilə cavab verməlidirlər.
C) Valideynlərinə, müəllimlərinə və ya hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər.
D) Mesajları silib unutmalıdırlar.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Aylin sosial şəbəkədə hansı səbəbdən narahatlıq yaşadı?
2. Kiberbullinq nədir və hansı davranışlar bu anlayışa daxildir?
3. Aylinin valideynləri ona necə dəstək oldular?
4. Məktəbin bu məsələyə müdaxilə etməsi niyə vacib idi?

SİTUATİV SUAL

Əgər sən sosial şəbəkədə biri tərəfindən təhqir edilsən və ya qorxudulsan, nə edərsən? Kimi məlumatlandırar və özünü necə qoruyarsan?

## 74-cü dərs

## Fəridə və yeni dost

Fəridə sosial şəbəkədə şəkil paylaşmağı sevirdi. Bir gün ona tanımadığı bir istifadəçidən dostluq dəvəti gəldi. İstifadəçi yazırdı:

- Salam! Mən də sənin yaşındayam, gəl dost olaq.

Fəridə əvvəlcə tərəddüd etdi, amma sonra “yaxşı olar, yeni dost qazanaram” deyə düşündü. Onunla yazışmağa başladı. Bir neçə gündən sonra həmin şəxs ondan ünvanını və məktəbinin adını soruşdu.



Fəridə bir az narahat oldu və bu barədə anasına danışdı. Anası izah etdi:

- Qızım, internetdə tanımadığın şəxslərlə danışmaq təhlükəlidir. Onlar həmişə dedikləri kimi olmaya bilərlər. Bəzən böyüklər internetdə özlərini uşaq kimi təqdim edərək aldatmağa çalışırlar.

Atası da əlavə etdi:

- Heç vaxt ünvan, məktəb, telefon nömrəsi kimi şəxsi məlumatlarını yad adamlara vermə. Əgər tanımadığın biri sənə yazırsa, bunu bizə və ya müəlliminə deməlisən.

Fəridə başa düşdü ki, internetdə hər kəs dost ola bilməz. O, həmin istifadəçini blokladı və özünə söz verdi ki, bundan sonra yalnız real həyatda tanıdığı insanları dost siyahısına əlavə edəcək.

***74-cü dərsdən nələri öyrəndik?***

- Sosial şəbəkələrdə tanımadığımız insanlarla ünsiyyət təhlükəlidir.
- Bəzi böyüklər uşaqları aldatmaq üçün özlərini uşaq kimi təqdim edə bilərlər.
- Ünvan, məktəb adı, telefon nömrəsi kimi şəxsi məlumatlar yad insanlara verilməməlidir.
- Belə hallarda mütləq valideynə və ya müəllimə məlumat vermək lazımdır.

**TAPŞIRIQ**

***74.1. Valideynləri Fəridəyə nəyi izah etdilər?***

A) İnternetdə hər kəslə danışmaq olar.
B) Tanımadığın şəxslərlə yazışmaq təhlükəlidir.
C) Məlumat paylaşmaq problem deyil.
D) Tanımadığın şəxslərlə müvəqqəti yazışmaq olar.

***74.2. Uşaqlar tanımadıqları şəxsdən şübhəli mesaj alanda nə etməlidirlər?***

A) Dərhal valideynlərinə və ya müəllimlərinə xəbər verməlidirlər.
B) Həmin şəxslə yazışmağa davam etməlidirlər.
C) Susmalı və gizlətməlidirlər.
D) Öz məlumatlarını göndərməlidirlər.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Fəridənin tanımadığı şəxslə dostluq etməsi hansı riskləri yaradırdı?
2. Sosial şəbəkədə şəxsi məlumatlarını paylaşmaq niyə təhlükəlidir?
3. Fəridənin tanımadığı istifadəçi ilə dostluğa əvvəlcə tərəddüd edib sonra razılaşması onun hansı psixoloji ehtiyacından irəli gəlirdi?
4. Valideynlərin bu vəziyyətdə düzgün davranışı nədən ibarət idi?
5. Fəridə niyə qərara gəldi ki, yalnız real həyatda tanıdığı insanları dostluğa qəbul etsin?

## SİTUATİV SUAL

Əgər sənə sosial şəbəkədə tanımadığın bir adam yazsa və şəxsi məlumatlarını istəsə, necə davranardın? Bu halda kimə müraciət edərdin?

## 75-ci dərs

# Nicatın oyuna aludəçiliyi

Nicat internetdə məşhur olan bir oyunu oynamağı çox sevirdi. Başlanğıcda hər gün bir az oynayırdı. Amma zaman keçdikcə oyun onun üçün həyatının ən vacib hissəsinə çevrildi.

Nicat dərslərini unudurdu, vaxtında yatmırdı və səhərlər məktəbə yuxulu gedirdi. Dostları onu futbola çağıranda, o, imtina edir və deyirdi:

- Yox, mənim oyunda yeni mərhələyə keçməyim lazımdır.

Valideynləri vəziyyəti görüb narahat oldular. Atası dedi:

- Oğlum, oyun oynamaq sənə əyləncəli görünə bilər, amma həddindən artıq oynadıqda həm sağlamlığına, həm dərslərinə, həm də dostlarınla münasibətinə mənfi təsir göstərə bilər.




Anası əlavə etdi:

- Sən oyuna nəzarət etməlisən, yoxsa oyun sənə nəzarət edəcək.

Nicat əvvəlcə etiraz etsə də, sonra başa düşdü ki, həqiqətən də vaxtının çoxunu boşa xərcləyir. Müəllimi ilə də söhbət etdikdən sonra qərara gəldi ki, oyun vaxtını məhdudlaşdıracaq, həm dərslərinə, həm də dostları ilə vaxt keçirməyə daha çox diqqət ayıracaq.

Beləcə, Nicat öyrəndi ki, oyun əyləncə üçündür, həyatın əsas hissəsi deyil. Dərslərinə və dostlarına daha çox vaxt ayırmalıdır.

***75-ci dərsdən nələri öyrəndik?***

- Onlayn oyunlarda həddindən artıq vaxt keçirmək təhsilə, sağlamlığa və sosial münasibətlərə mənfi təsir göstərir.
- Real həyatdakı dostluqlar və dərslər virtual oyunlardan daha önəmlidir.
- Uşaqlar balanslı davranmağı öyrənməlidirlər: həm oynamağa, həm oxumağa, həm də dincəlməyə ayırdıqları vaxtı düzgün bölüşdürməlidirlər.

TAPŞIRIQ

***75.1. Nicatın dərslərini unutmasının əsas səbəbi nə idi?***

A) Oyun oynamaq üçün çox vaxt sərf edirdi.
B) Müəllimləri çox tapşırıq verirdi.
C) Dostları onunla maraqlanmırdı.
D) Oyun çətin olduğu üçün əsəbiləşirdi.

***75.2. Onlayn oyunları həddindən artıq oynamaq uşağa necə təsir edir?***

A) Dostlarını daha çox görməyə imkan verir.
B) Daha yaxşı oxumağa kömək edir.
C) Həmişə sağlamlıq üçün faydalıdır.
D) Təhsilinə, sağlamlığına və dostluqlarına mənfi təsir edir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nicatın oyuna həddindən artıq vaxt ayırmasının ona hansı mənfi təsirləri var idi?
2. Nicatın anasının "sən oyuna nəzarət etməlisən, yoxsa oyun sənə nəzarət edəcək" fikrini necə izah edərdin?
3. Nicatın əvvəl oyuna az, sonra isə çox vaxt ayırmasının səbəbi nə ola bilər?
4. Nicatın davranışında hansı dəyişiklik onun həyatında müsbət nəticələr yaratdı?

SİTUATİV SUAL

Əgər sən də bir oyuna həddindən çox vaxt ayırmağa başlasaydın və bunun dərslərinə, yuxu rejiminə, dostlarınla münasibətinə təsir etdiyini görsəydin, bu vəziyyəti düzəltmək üçün hansı addımları atardın?

## 76-cı dərs

## Elnarın şübhəli linki

Bir gün Elnarın elektron poçtuna məktub gəldi. Məktubda yazılmışdı: "Bu linkə kliklə və pulsuz oyun yüklə!"

Elnar çox sevindi və dərhal linkə daxil oldu. Kompüterində fayl endirildi. Faylı açan kimi ekranında qəribə yazılar göründü və kompüteri yavaş işləməyə başladı.




O, qorxaraq atasına xəbər verdi. Atası kompüterə baxıb dedi:

- Oğlum, sən şübhəli linkə klikləmisən. Bu, zərərli proqram və ya virus ola bilər. Belə viruslar kompüterə ziyan vura və hətta şəxsi məlumatlarını oğurlaya bilər.

Anası da əlavə etdi:

- İnternetdə naməlum linklərə klikləmək olmaz. Yalnız etibarlı saytlardan fayl yükləmək lazımdır. Əks halda həm kompüter, həm də sənin məlumatların təhlükəyə düşə bilər.

Elnar çox peşman oldu və başa düşdü ki, "pulsuz" və ya "çox maraqlı" görünən linklər bəzən gizli təhlükə daşıyır. O, özünə söz verdi ki, bundan sonra heç vaxt valideynlərindən soruşmadan internetdən fayl yükləməyəcək.

***76-cı dərsdən nələri öyrəndik?***

- Şübhəli linklərə klikləmək və faylları yükləmək kompüterə virus sala bilər.
- Viruslar şəxsi məlumatları oğurlaya və kompüterə zərər vura bilər.
- Faylları yalnız etibarlı və rəsmi saytlardan yükləmək lazımdır.
- Uşaqlar internetdə şübhəli link və faylları görən kimi valideynlərinə xəbər verməlidirlər.

TAPŞIRIQ

***76.1. İnternetdə şübhəli link gördükdə nə etməlisən?***

A) Kompüteri söndürməlisən.
B) Şübhəli linkə klikləməli və faylı yükləməlisən.
C) Şübhəli linkə klikləmədən həmin səhifəni tərk etməlisən.
D) Kompüteri söndürüb, sonra işə salmalısan.

***76.2. Zərərli proqramlar və viruslar kompüterə nə edə bilər?***

A) Kompüteri daha sürətli işlədər.
B) Şəxsi məlumatları oğurlayar və kompüterə ziyan vurar.
C) Daha çox oyun yükləyər.
D) Ekranı daha rəngli edər.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Elnarın linkə klikləməkdə tələsik davranmasının əsas səbəbi nə idi?
2. Nə üçün "pulsuz" və ya "cəlbedici" görünən linklər bəzən təhlükəli olur?
3. Kompüterə virus düşməsi uşağın hansı şəxsi məlumatlarını təhlükə altına sala bilər?
4. Elnarın atası və anasının ona verdiyi məsləhətlərdən çıxan ən vacib nəticə nə idi?
5. Elnar bu səhvindən hansı dərsi aldı və davranışını necə dəyişdirdi?

**SİTUATİV SUAL**

Əgər sən də təsadüfi bir saytdan fayl endirəndən sonra kompüterində nasazlıq yarandığını görsən, hansı addımları atarsan? Kiminlə məsləhətləşərsən və kompüterini necə qoruyarsan?

## 77-ci dərs

## Nuranın onlayn oyun sürprizi

Nura 11 yaşında idi. O, hər gün telefonunda rəngarəng bir oyun oynayırdı. Oyunda yeni mərhələyə keçmək üçün ona əlavə xal lazım idi. Birdən ekranda belə bir mesaj çıxdı:

"Yalnız 2 manata daha çox xal qazan!"

Nura elə bildi ki, bu sadəcə oyun içində zarafatdır. Amma maraqdan ekrandakı düyməni basdı. Telefon anasının bank kartına qoşulu idi və pul dərhal hesabdan çıxdı.

Bir neçə gün sonra anası kartın çıxarışına baxarkən əlavə ödənişləri gördü. O, Nuranı çağırdı:

- Qızım, sən oyun oynayarkən ödəniş etmisənmi?

Nura qorxaraq dedi:

- Mən sadəcə düyməni basdım, amma bunun real pul olduğunu bilmirdim...




Anası izah etdi:

- İnternetdə bəzən oyunlar uşaqları aldatmaq üçün elə düzəldilir ki, bilmədən real pul xərcləyirlər. Buna görə də çox diqqətli olmaq lazımdır. Heç vaxt valideynin xəbəri olmadan ödəniş etmək olmaz.

Atası da əlavə etdi:

- Hər hansı ödəniş etməzdən əvvəl mütləq bizdən soruşmalısan. Əks halda bu həm maliyyə itkisinə, həm də sənin məsuliyyətinə səbəb ola bilər.

Nura bu hadisədən sonra başa düşdü ki, internetdə hər "sadə klik" bəzən real pul itkisinə çevrilə bilər. O, özünə söz verdi ki, bundan sonra ödəniş tələb edən heç bir düyməni valideyninə soruşmadan basmayacaq.

***77-ci dərsdən nələri öyrəndik?***

- Onlayn oyunlarda təsadüfən ödəniş etmək maliyyə itkisinə səbəb ola bilər.
- Uşaqlar heç vaxt valideynlərinin icazəsi olmadan internetdə ödəniş etməməlidirlər.
- İnternetdə "ucuz" və ya "asan" görünən təkliflər bəzən real pul itkisi deməkdir.
- Valideynlərlə məsləhətləşmək uşaqları fırıldaqçılıqdan və məsuliyyətdən qoruyur.

TAPŞIRIQ

***77.1. İnternetdə oyun və ya proqramdan istifadə edərkən uşaqların hansı davranışı düzgündür?***

A) Ödəniş tələb edən düyməni maraqdan basmaq.
B) Validеynin icazəsi olmadan bank kartından istifadə etmək.
C) Əvvəl valideynindən soruşmaq, sonra hərəkət etmək.
D) Kartdan istifadəni gizlətmək.

***77.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | Valideynin icazəsi olmadan ödəniş etmək düzgün deyil | |
| 2 | Uşaqlar bilmədən də real pul xərcləyə bilərlər | |
| 3 | İnternetdə ödəniş etməzdən əvvəl valideynə müraciət etmək vacibdir | |
| 4 | Pul itkisi yalnız böyüklərin problemi ola bilər | |

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nuranın bilmədən ödəniş etməsinin əsas səbəbi nə idi? O, hansı məlumatı bilmirdi?
2. Nuranın valideynlərinin ona verdiyi xəbərdarlıqdan çıxarılan ən vacib nəticə nədir?
3. Valideynlərinin xəbərdarlığı olmasaydı, Nura hansı çətinliklərlə üzləşərdi?
4. Bu hadisə Nuranın internet alqı-satqısı və elektron ödənişlər barədə düşüncəsini necə dəyişdi?

SİTUATİV SUAL

Sən də telefon və ya planşetdə oyun oynayarkən “xal almaq”, “reklamsız davam etmək” və ya “sürətli keçid” üçün ödəniş tələb edən pəncərə görsən, nə edərsən? Valideynə xəbər verərsən, yoxsa özün qərar verib klikləyərsən? Niyə?

# IX FƏSİL

## Hüquqi məsuliyyət

## 78-ci dərs

## Qarabaşın macərası

İbrahim 12 yaşında idi. Onun "Qarabaş" adlı balaca iti vardı. İbrahim hər gün Qarabaşla oynayır, onu gəzintiyə aparırdı. Bir gün İbrahim Qarabaşla həyətə düşdü. Amma bu dəfə diqqətsiz davrandı və itin boynundakı ipi buraxdı.

Qarabaş qaçaraq qonşunun bağçasına girdi. Orada gülləri tapdaladı, bəzi çiçəkləri də qopardı. Qonşu qəzəblə həyətə çıxdı:

- Bu nədir belə?! Mənim güllərim gör nə hala düşüb!

İbrahim çox pərt oldu:

- Bağışlayın, mən ipini buraxmaq istəmirdim.



Axşam qonşu İbrahimin atasının yanına gəldi. Atası izah etdi:

- Oğlum, yaxşı bil ki, qanunla heyvanın vurduğu ziyana görə onu saxlayan şəxs məsuliyyət daşıyır. Sən hələ kiçiksən, amma məsuliyyəti mən daşıyıram. Yenə də diqqətli olmalı və heyvanına yaxşı baxmalısan.

Atası qonşunun güllərinin əvəzini ödədikdən sonra İbrahimə dedi:

- Heyvan sahibi olmaq həm sevinc gətirir, həm də məsuliyyət. Qarabaşa yaxşı baxmaq, başqasına ziyan vurmamasını təmin etmək sənin də borcundur.

İbrahim başını aşağı salıb dedi:

- Bağışla, ata. Mən bundan sonra Qarabaşın ipini buraxmayacağam.

Beləcə, İbrahim öyrəndi ki, heyvanlara sahib olmaq qayğı və məsuliyyət tələb edir.

***78-ci dərsdən nələri öyrəndik?***

- Heyvan sahibi olmaq yalnız sevinc gətirmir, həm də məsuliyyətli olmağı tələb edir.
- Heyvan başqasının əmlakına zərər vurarsa, onun məsuliyyəti heyvanı saxlayan şəxsin üzərinə düşür.
- 14 yaşına çatmamış uşaqların vurduqları ziyana görə məsuliyyəti valideynləri daşıyır, amma uşaqlar da diqqətli olmalıdırlar.
- Başqasının əmlakına hörmətlə yanaşmaq vacibdir.

TAPŞIRIQ

***78.1. Heyvanın başqasına zərər vurmasına görə kim məsuliyyət daşıyır?***

A) Heyvanın özü.
B) Heyvanı saxlayan şəxs.
C) Qonşular.
D) Dostları.

***78.2. 14 yaşına çatmamış uşağın saxladığı heyvan başqasına zərər vurarsa, məsuliyyət kimə aid olur?***

A) Valideyn və ya qəyyuma.
B) Uşağın özünə.
C) Heyvansevərlər cəmiyyətinə.
D) Müəllimlərə.

***78.3. Hekayədən hansı nəticəni çıxarmaq olar?***

A) Heyvanlara sahib olmaq qayğı və məsuliyyət tələb edir.
B) Heyvanı gəzintiyə aparmaq lazım deyil.
C) Qonşularla mübahisə etmək olar.
D) İt sahibi olmaq asandır.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. İbrahimin diqqətsiz davranışı hansı nəticəyə səbəb oldu və bu nəticə kimə ziyan vurdu?
2. "Heyvan sahibi olmaq məsuliyyət tələb edir" fikrini necə izah edərdin?
3. İbrahim bu hadisədən sonra hansı davranışını dəyişdirməli olduğunu başa düşdü?
4. Qonşunun gül bağçasına ziyan dəydikdən sonra İbrahimin atası hansı düzgün addımı atdı?

SİTUATİV SUAL

Əgər sənin ev heyvanın kiminsə əmlakına ziyan vursa (məsələn, çiçəkləri qoparsa, ayaqqabını dişləsə və ya başqa şəkildə ziyan vursa), sən nə edərsən? Məsuliyyətdən yayınmağa çalışarsan, yoxsa nəzakətlə üzr istəyib zərərin ödənilməsi üçün valideynlərindən kömək istəyərsən? Niyə?

## 79-cu dərs

## Emin və onlayn oyun

Emin15 yaşında idi. O, kompüter oyunlarını çox sevirdi. Bir gün dostlarının söhbətinə uyaraq internetdən atasının kompüterinə yeni oyun proqramı yüklədi. Oyunda qalib gəlmək üçün ekranda ona təklif olundu: "Əlavə güc üçün ödəniş edin." Emin düşünmədən düyməni sıxdı.

Bir neçə gün sonra atasına bankdan mesaj gəldi - kartdan pul çıxılmışdı. Atası təəccüblə soruşdu:

- Emin, bu nə ödənişdir?

Emin qorxa-qorxa cavab verdi:

- Mən oyunda düyməni fikirləşmədən basdım, ciddi olmadığını düşündüm...

Atası izah etdi:

- Oğlum, artıq sən 14 yaşını keçmisən. Qanuna görə, bu yaşdan sonra öz hərəkətlərinə görə mülki məsuliyyət daşıyırsan. Yəni əgər həyatda olduğu kimi internetdə nəticəsini düşünmədən belə hərəkətlərə yol versən, məsuliyyət sənin üzərinə düşər. Üstəlik, başqasının kompüterindən icazəsiz istifadə də əlavə məsuliyyət yaradır.



Anası da əlavə etdi:

- İnternetdə çox diqqətli olmalısan. Hər hansı ödəniş etməyin və ya sənə təklif olunan şərtlərlə razılaşmağın məsuliyyətini dərk etməlisən. Ona görə bunları etməzdən əvvəl düşünmək lazımdır.

Emin başını aşağı saldı və dedi:

- Mən səhv etdim. Artıq anlayıram ki, internetdə də məsuliyyət var. Bir daha düşünmədən heç nə etməyəcəyəm.

Beləcə, Emin öyrəndi ki, real həyatda olduğu kimi internetdə də atılan hər addım məsuliyyət tələb edir.

***79-cu dərsdən nələri öyrəndik?***

- İnternetdə edilən hərəkətlər də real həyatdakı kimi hüquqi məsuliyyət yarada bilər.
- Valideynlər uşaqlarına internetdə diqqətli davranmağı öyrətməlidirlər.
- Həm real həyatda, həm də virtual məkanda hər kəs başqasının əmlakına hörmətlə yanaşmalıdır.

TAPŞIRIQ

***79.1. İnternetdə edilən hərəkətlər məsuliyyət yaradırmı?***

A) İnternetdə edilən hərəkətlər real həyatda heç bir məsuliyyət yaratmır.
B) İnternetdə edilən hərəkətlər həmişə gizli qalır.
C) İnternetdə edilən hərəkətlər yalnız böyüklər üçün məsuliyyət yaradır.
D) İnternetdə edilən hərəkətlər də qanuna uyğun olaraq məsuliyyət yaradır.

***79.2. Hekayədən hansı nəticəyə gəlmək olar?***

A) Oyunlar zərərlidir.
B) Oyunlarda ödəniş etmək qadağandır.
C) İnternetdə ehtiyatlı olmaq və düşünmək lazımdır.
D) Dostlara inanmaq olmaz.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Eminin səhvi nə idi: oyun oynaması, yoxsa nəticəsini düşünmədən ödəniş etməsi?
2. Səncə, başqasının kompüterindən icazəsiz istifadə etməyin hansı əlavə riskləri var?
3. İnternetdə hər hansı ödəniş etməyin və ya sənə təklif olunan şərtlərlə razılaşmağın nəticəsi necə ola bilər?
4. Emin bu hadisədən hansı vacib dərsi öyrəndi?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də internetdə oyun oynayarkən təsadüfən ödəniş etmisən və pul kartdan çıxıb. Bu halda nə edərsən? Valideynlərdən gizlədərsən, yoxsa baş verən hadisənin məsuliyyətini dərk edərək vəziyyəti onlara izah edərsən? Niyə?

## 80-ci dərs

## Nazlı və kitabxanadan götürülən kitab

Nazlı 14 yaşında idi. O, oxumağı çox sevirdi və hər həftə məktəb kitabxanasından kitab götürürdü. Bir gün çox sevdiyi bir romanı evə apardı. Amma evdə ehtiyatsızlıqla kitabın üzərinə çay töküldü. Səhifələr yapışdı və kitab korlandı.

Ertəsi gün kitabxanaya gələndə Nazlı çox narahat idi. Kitabı kitabxanaçıya verib dedi:

- Mən kitabı qoruya bilmədim, o korlanıb. Çox üzr istəyirəm.

Kitabxanaçı mehribanlıqla, amma ciddi şəkildə izah etdi:

- Qızım, unutma ki, götürdüyün kitab əslində sənin deyil, hamıya məxsusdur. Ona görə də sən onu qorumalıydın. Qanuna görə, kim icarəyə və ya müvəqqəti istifadəyə əşya götürürsə, həmin əşyanı qorumağa borcludur, əks halda o, məsuliyyət daşıyır.



Nazlı başını aşağı saldı:

- Mən bunu bilmirdim. Daha diqqətli olacağam.

Valideynləri də məsələni eşidib dedilər:

- Narahat olma, qızım. Biz sənə kömək edəcəyik. Amma bu, sənə böyük bir dərs olsun. Başqasına aid olan əşya hər kəs üçün qiymətlidir.

Onlar kitabın yenisini alıb kitabxanaya təhvil verdilər. Nazlı isə özünə söz verdi: “Kitabxanaçının dediyi kimi, götürdüyüm hər bir kitabı qoruyacağam”.

***80-ci dərsdən nələri öyrəndik?***

- İcarəyə və ya istifadəyə götürülən əşyalar başqasına məxsusdur, onları qorumaq lazımdır.
- Əgər həmin əşya zədələnərsə, ziyanı ödəmək məsuliyyəti yaranır.
- Yalnız öz əşyamıza qarşı deyil, bizə etibar edilən hər şeyə qarşı məsuliyyətli olmalıyıq.

**TAPŞIRIQ**

***80.1. İcarəyə və ya istifadəyə götürülən əşyaya necə yanaşmaq lazımdır?***

A) Öz əşyamız kimi qorumaq lazımdır.
B) İstədiyimiz kimi istifadə edə bilərik.
C) Heç qayğı göstərmək lazım deyil.
D) Onu başqasına vermək lazımdır.

***80.2. Əgər istifadə edilən əşyaya ziyan dəyərsə, nə edilməlidir?***

A) Heç nə edilməməlidir.
B) Əvəz olunmalı və ya ziyan ödənilməlidir.
C) Gizlədilməlidir.
D) Ziyanı əşyanın sahibi ödəməlidir.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Nazlı kitabın ona məxsus olmadığını niyə unutmamalı idi? Onun məsuliyyəti nədən ibarət idi?
2. Kitabxanadan kitab götürmək nə üçün həm hüquq, həm də öhdəlik hesab olunur?
3. Səncə, kitabın korlanması təsadüf olduğu halda belə, niyə məsuliyyəti Nazlı daşıyır?
4. Valideynlərin bu hadisədə Nazlıya dəstək verməsi onun məsuliyyət hissinə necə təsir etdi?
5. Bu hadisədən sonra Nazlı hansı vacib davranış qaydasını öyrəndi və bu, gələcəkdə ona necə kömək edəcək?

### SİTUATİV SUAL

Təsəvvür et ki, sən də kitabxanadan götürdüyün bir kitabı təsadüfən korlamısan. Bu halda nə etməlisən? Niyə?

## 81-ci dərs

## Adnan və velosiped qəzası

Adnanın 13 yaşı var idi. O, velosiped sürməyi çox sevirdi. Bir gün dostları ilə yolda gedərkən qarşısında Həsəni gördü. Həsən də velosipedlə hərəkətdə idi.

Adnan sürəti artırıb Həsəni ötmək istədi. Amma ehtiyatsız davrandığı üçün velosipedi Həsənin velosipedinə dəydi. Həsən yıxıldı və dizindən zədə aldı.

Adnan dərhal dayandı, qorxu ilə dedi:

- Bağışla, Həsən! Mən səni ötmək istəyirdim, amma ehtiyatsız davrandım.



Həsənin dostları köməyə gəldilər. Onu evə apardılar, valideynləri isə həkimə müraciət etdilər. Adnanın atası hadisəni eşidəndə izah etdi:

- Oğlum, başqasının sağlamlığına zərər vurmaq çox ciddi məsələdir. Sən bilərəkdən etməmisən, amma ehtiyatsızlıq da məsuliyyət yaradır. Hələ kiçiksən, ona görə məsuliyyəti biz daşıyırıq. Unutma ki, 14 yaşına qədər uşaqların vurduğu zərərə görə valideynlər məsuliyyət daşıyır. Amma böyüdükcə vurduğun hər bir zərərin məsuliyyətini özün daşımalı olacaqsan, çünki qanuna görə, 14-18 yaş arasında uşaqlar özləri də vurduqları zərərə görə məsuliyyət daşıyırlar.

Adnan başını aşağı salaraq dedi:

- Mən səhv etdim. Artıq anlayıram ki, velosiped sürəndə qaydalara əməl etmək və ehtiyatlı olmaq lazımdır.

Hadisədən sonra Adnan Həsəni ziyarət edir, onunla dərslərinə hazırlaşırdı. O, özünə söz verdi ki, bir daha velosiped sürəndə diqqətsiz davranmayacaq.

***81-ci dərsdən nələri öyrəndik?***

• Başqasının sağlamlığına istər bilərəkdən, istərsə də ehtiyatsızlıqdan zərər vurmaq məsuliyyət yaradır,.

• 14 yaşına qədər uşaqların vurduğu zərərə görə valideynlər məsuliyyət daşıyır.

• 14-18 yaş arasında uşaqlar özləri də vurduqları zərərə görə məsuliyyət daşıyırlar.

• Velosiped sürən zaman diqqətli olmaq həm öz təhlükəsizliyimiz, həm də başqalarının sağlamlığı üçün vacibdir.

TAPŞIRIQ

***81.1. Başqasının sağlamlığına zərər vurmaq hansı məsuliyyəti yaradır?***

A) Heç bir məsuliyyət yaratmır.
B) Hüquqi və mənəvi məsuliyyət yaradır.
C) Yalnız valideynləri narahat edir.
D) Yalnız məktəbdə problem olur.

***81.2. Aşağıdakı fikirləri oxu və hansının doğru (✓), hansının yanlış (✗) olduğunu müəyyən et:***

| № | Fikir | ✓ / ✗ |
|---|---|---|
| 1 | 14 yaşına qədər uşaqların vurduğu ziyana görə valideynlər məsuliyyət daşıyırlar. | |
| 2 | 4–18 yaş arasında uşaq vurduğu ziyana görə artıq özü də məsuliyyət daşıya bilər. | |
| 3 | Velosiped sürərkən ehtiyatsız davranmaq heç vaxt məsuliyyət yaratmır. | |
| 4 | Qaydalara əməl etmək həm uşaqlar, həm də böyüklər üçün vacibdir. | |

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Adnan Həsəni ehtiyatsızlıqdan zədələməsinə baxmayaraq, niyə özünü günahkar hiss etdi?
2. Niyə başqasının sağlamlığına zərər vurmaq hətta ehtiyatsızlıqdan olsa belə, məsuliyyət yaradır?
3. Səncə, Adnanın sonradan Həsəni ziyarət etməsi və ona dərslərində kömək etməsi hansı dəyərlərin göstəricisidir?
4. Bu hadisə Adnana velosiped sürərkən əməl etməli olduğu hansı vacib qaydanı öyrətdi?

SİTUATİV SUAL

Tutaq ki, sən də velosiped sürərkən təsadüfən birinin yıxılmasına səbəb olursan. Həmin an nə edərsən: məsuliyyəti qəbul edib kömək edərsən, yoxsa hadisəni gizlətməyə çalışarsan? Niyə?

## 82-ci dərs

## Sındırılan pəncərə

Tuncay və Kamil həyətdə topla oynayırdılar. Həyəcanla oyuna qapılmışdılar. Birdən top güclü zərbə ilə qonşunun evinin pəncərəsinə dəydi. Şüşə cingiltisi bütün həyəti bürüdü.

Qonşu pəncərədən çıxaraq dedi:

- Bu nədir belə?! Kim şüşəni sındırdı?

Tuncay və Kamil qorxaraq bir-birinə baxdılar. Sonra Tuncay cəsarətlə irəli çıxıb dedi:

- Biz hər ikimiz oynayırdıq. Bağışlayın, topu bir az bərk vurduq.

Axşam valideynlər qonşunun evinə getdilər. Qonşu hadisəni danışdı. Tuncayın atası izah etdi:

- Uşaqlar, başqasına zərər vuranda məsuliyyət yaranır. Siz bu işi birlikdə etmisiniz, deməli zərərin məbləği də aranızda bölüşdürülməlidir.

Kamilin anası da əlavə etdi:



- Qanuna görə, bir neçə nəfərin vurduğu zərərə görə onlar birgə məsuliyyət daşıyırlar. Bu o deməkdir ki, hər kəs üzərinə düşən payı ödəməlidir.

Tuncay və Kamil başlarını aşağı saldılar.

Həmin gün Tuncay və Kamil valideynlərinin köməyi ilə qonşunun pəncərəsinin sınan şüşəsini yenisi ilə əvəz etdilər. Qonşu gülümsəyərək dedi:

- Əsas odur ki, səhvinizi başa düşdünüz. İndi bilirsiniz ki, birgə etdiyiniz işin məsuliyyətini də birlikdə daşımalısınız.

Tuncay gülümsəyərək Kamilə dedi:

- Birlikdə oyun oynayırıqsa, məsuliyyəti də birlikdə daşımalıyıq.

Kamil razılaşdı:

- Haqlısan, amma bundan sonra daha ehtiyatlı davranmalıyıq.

***82-ci dərsdən nələri öyrəndik?***

- Başqasının əmlakına zərər vurmaq məsuliyyət doğurur.
- Əgər bir neçə uşaq birlikdə ziyan vurursa, məsuliyyət onların arasında bölüşdürülür.
- Məsuliyyət daşımaq həm qanuni, həm də əxlaqi borcdur.

TAPŞIRIQ

***82.1. Aşağıdakılardan hansı düzgün davranış nümunəsi hesab olunur?***

A) Qaçmaq əvəzinə etiraf etmək.
B) Günahı başqasına atmaq.
C) Qonşunu aldatmaq.
D) Heç nə deməmək.

***82.2. Əgər başqasının əmlakına ziyan bir neçə uşaq tərəfindən vurulubsa, məsuliyyət necə müəyyən olunur?***

A) Heç kim məsuliyyət daşımır.
B) Zərərin hamısını yalnız bir nəfər ödəməlidir.
C) Zərər ziyan vuranlar arasında bölüşdürülərək ödənilir.
D) Yalnız valideynlərdən biri ödəyir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Səncə, Tuncay niyə hadisəni gizlətmək əvəzinə cəsarətlə irəli çıxıb "biz sındırdıq" dedi?
2. Niyə qanun bir neçə nəfərin birlikdə vurduğu zərərə görə "birgə məsuliyyət" tələb edir?
3. Əgər uşaqlar pəncərəni sındırıb qaçsaydılar, onların davranışı, sənin fikrincə, daha ağır nəticə yarada bilərdimi? Niyə?
4. Bu hadisə uşaqlara həm hüquqi, həm də mənəvi baxımdan hansı dərsləri öyrətdi?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostunla oyun oynayarkən bilmədən kiminsə əmlakına zərər vurursunuz. Dostun məsuliyyəti üzərinə götürmək istəmir, sənə təklif edir ki, kimsə soruşsa "heç nə görməmişik" deyəsən. Sən nə edərdin və niyə?

## 83-cü dərs

## Samirin təhlükəli oyunu

Samir 16 yaşına yeni çatmışdı. O, dostları ilə həyətdə topla oynayırdı. Dostları zarafatla Samirə dedilər ki, topu qonşunun avtomobilinin şüşəsinə vurub onu sındıra bilməz. Samir düşünmədən topu qonşunun yeni avtomobilinin şüşəsinə vurdu və şüşə sındı.

Uşaqlar əvvəlcə gülməyə başladılar. Amma qonşu əsəbi halda həyətə çıxdı:

- Bu nədir belə? Maşınımın şüşəsini kim sındırdı?!

Samir qorxa-qorxa irəli çıxdı:

- Mən vurdum. Amma əslində istəmirdim...



Qonşu məsələni polisə dedi. Samir atası ilə polis şöbəsinə getdi. Polis dedi:

- Samir, başqasının əmlakını sındırmaq, zərər vurmaq qanun pozuntusu hesab olunur. Samir pərt halda soruşdu:

- Amma, bu, sadəcə oyun idi...

Polis izah etdi:

- Hə, oyun idi, amma nəticəsi çox ciddi oldu. Qanunla sənin hərəkətlərin başqasına ziyan vurursa, məsuliyyət daşıyırsan. Uşaqlıqda etdiyin səhvlərə görə valideynlərin cavab verirdi. Amma indi böyümüsən. Zərəri ödəmək və qonşudan üzr istəmək sənin borcundur. Vurduğun zərər xeyli, yəni beş min manatdan çox olsaydı, cinayət məsuliyyətinə cəlb oluna bilərdin. Unutma ki, uşaqlar da törətdikləri cinayətə görə cəzalandırıla, hətta on ilədək azadlıqdan məhrum edilə bilərlər. Hətta bəzi ağır cinayətlərə görə on dörd yaşı tamam olmuş uşaq da cinayət məsuliyyəti daşıyır. Sən artıq 16 yaşını keçmisən. Qanuna görə, bu yaşdan sonra insan bütün cinayətlərə görə məsuliyyət daşıyır. Hələliksə, sən valideynlərinin nəzarətinə veriləcəksən.

Samirin atası əlavə etdi:

- Bu, sənə bir dərs olsun. Həyatda hər zarafatın və hər oyunun da bir həddi var. Başqasının əmlakına zərər vurmaq həm hüquqi, həm də mənəvi məsuliyyət yaradır.

Samir atasının köməyi ilə avtomobilin şüşəsini təmir etdirdi və və qonşudan üzr istədi. O, başa düşdü ki, artıq böyüyüb və hərəkətlərinin nəticəsinə görə cavab verməlidir.

***83-cü dərsdən nələri öyrəndik?***

- 16 yaşdan sonra hər kəs cinayət məsuliyyətinə cəlb oluna bilər.
- Başqasının əmlakına zərər vurmaq sadə bir iş deyil, ciddi məsuliyyət doğurur.
- Zarafat və oyun belə olsa, başqasına zərər vurmaq düzgün deyil.

TAPŞIRIQ

***83.1. Polis Samirə nəyi izah etdi?***

A) Uşaqlar həmişə valideynə görə cavab verirlər.
B) Əgər zərər beş min manatdan çox olsa, cinayət məsuliyyəti yarana bilər.
C) O, cərimələnməyəcək.
D) Həmişə bağışlanacaq.

***83.2. Azərbaycan Respublikasında cinayət məsuliyyəti ümumilikdə hansı yaşdan başlayır?***

A) 12 yaşdan.
B) 14 yaşdan.
C) 16 yaşdan.
D) 18 yaşdan.

***83.3. 16 yaşından sonra uşaqlar hansı cinayət əməllərinə görə məsuliyyət daşıyırlar?***

A) Yalnız məktəbdə qayda pozuntularına görə.
B) Yalnız oyun zamanı səhvlərə görə.
C) Bütün cinayət xarakterli əməllərə görə.
D) Heç birinə görə.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Samirin öz səhvini etiraf etməsi onun hansı müsbət xüsusiyyətə malik olduğunu göstərir?
2. Səncə, niyə 16 yaşdan sonra törədilən əməllərə görə məsuliyyət daha ciddi hesab olunur?
3. Atası və polis Samirə necə dəstək oldu?
4. Bu hadisə Samirə həm hüquqi, həm də mənəvi baxımdan hansı dərsləri verdi? Gələcəkdə onun davranışı necə dəyişməlidir?

SİTUATİV SUAL

Tutaq ki, sən də dostlarınla zarafat edərkən təsadüfən kiminsə əmlakına zərər vurursan və bu zərərin məbləği böyükdür. Belə halda nə edərsən? Bu barədə ilk növbədə kimi məlumatlandırarsan? Niyə?

## 84-cü dərs

# İki fərqli davranış

Eyni məktəbdə oxuyan Rövşən və Nihadla bağlı iki hadisə baş verdi.

Birinci hadisədə Rövşən əsəbiləşib dostunun telefonunu əlindən alıb yerə çırpdı. Telefon tamamilə sındı. Hamı gördü ki, Rövşən bunu bilərəkdən etdi.

Bir neçə gün sonra başqa hadisə oldu. Nihad məktəbə velosipedlə gəlmişdi. O, tələsdiyi üçün yol qaydalarına əməl etmədi, sürətlə dönərkən bilmədən başqa bir uşağa dəydi. Uşaq yıxıldı və qolunu zədələdi.

Hər iki hadisə ilə bağlı polisə məlumat verildi. Polis əməkdaşı Sabir müəllim məktəbə gəlib şagirdlərlə profilaktik söhbət apardı. O dedi:



- Uşaqlar, hər kəs qaydalara əməl etməlidir. Sizin qaydaları həm bilərəkdən, həm də ehtiyatsızlıqdan pozmağınız məsuliyyət yaradır. Qəsdən törədilən əməl daha ağır sayılır və ona görə daha ağır cəza nəzərdə tutulur. Rövşənin telefonu sındırması qəsdən, yəni onun öz iradəsi ilə törədilən əməldir.

Nihad isə ehtiyatsızlığa yol verib. Nihad bilərəkdən etmədi, amma diqqətsizliyi və etinasızlığı nətiəsində dostuna xəsarət yetirdi. Unutmayın ki, ehtiyatsızlıqla törədilən əmələ görə də cavabdehsiniz.

Rövşən və Nihad başa düşdülər ki, fərqli niyyətlərlə hərəkət etsələr də, hər ikisinin davranışı məsuliyyət yaradır.

***84-cü dərsdən nələri öyrəndik?***

- Qəsdən edilən hərəkətin, yəni bilərəkdən və istəyərək qanunu pozmanın məsuliyyəti daha ağır olur.
- Ehtiyatsızlıq, yəni insanın diqqətsizliyi və etinasızlığı nəticəsində qanunların pozulması da məsuliyyət doğurur.
- İnsan hər zaman həm davranışına nəzarət etməli, həm də diqqətli olmalıdır.

## TAPŞIRIQ

***84.1. Qəsdən törədilən əməl nə deməkdir?***

A) İnsan bilmədən səhv edir.
B) İnsan bilərəkdən və istəyərək qanunu pozur.
C) İnsan təsadüfən qaydanı pozur.
D) Heç bir məsuliyyət doğurmayan işdir.

***84.2. Ehtiyatsızlıqla törədilən əməl nədir?***

A) İnsan diqqətsizliyi və etinasızlığı nəticəsində zərər vurursa.
B) İnsan bilərəkdən başqasına ziyan vurursa.
C) İnsan başqasının dediyini yerinə yetirirsə.
D) İnsan heç bir qayda pozmursa.

## DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Rövşən və Nihadın hərəkətləri arasında əsas fərq nədə idi və niyə biri “qəsdən”, digəri isə “ehtiyatsızlıqla” törədilmiş hesab olunur?
2. Niyə qanun qəsdən edilən əməllərə daha ağır cəza tətbiq edir?
3. Həm Rövşən, həm Nihad, həm də digər şagirdlər bu iki hadisədən hansı dərsləri götürməlidirlər?
4. Qaydalara əməl etməməyin həm özümüz, həm də başqaları üçün doğura biləcəyi nəticələr hansılardır?

## SİTUATİV SUAL

Tutaq ki, sən də əsəbiləşib kiminsə əşyasını qəsdən sındırırsan, amma sonradan peşman olursan. Sənin fikrincə, həmin vəziyyətdə nə etməlisən?

## 85-ci dərs

# Mehmanın səhvi

Bir gün Mehman məktəbin bağçasında sinif yoldaşı Teymurla gəzirdi. O, cibindən kiçik bir mətbəx bıçağı çıxarıb Teymura göstərdi.

Teymur təəccüblə soruşdu:

- Mehman, sən niyə üzərində bıçaq gəzdirirsən?

Mehman arxayınlıqla cavab verdi:

- Özümü qorumaq üçün. Bəlkə kimsə sataşdı mənə?

Bu söhbəti təsadüfən onların yanından keçən sinif rəhbəri Şakir müəllim eşitdi. O, dərhal yaxınlaşıb bıçağı Mehmanın əlindən aldı və ciddi səslə dedi:

- Mehman, özünü qorumaq yaxşı şeydir, amma bunun üçün üzərində belə əşyalar gəzdirmək düzgün deyil.

Ertəsi gün Şakir müəllim Mehmanın valideynlərini məktəbə dəvət etdi. Onların yanında bıçağı Mehmana göstərərək izah etdi:

- Bu sadəcə mətbəx bıçağıdır, qanunla soyuq silah sayılmır. Amma unutmaq olmaz ki, bəzi cinayətlər zamanı bu cür əşyadan istifadə edilərsə, o artıq silah qismində istifadə edilən əşya hesab olunacaq. Belə hallarda verilən cəza daha ağır olur.



Mehmanın atası da oğluna irad tutdu:

- Oğlum, sən hələ gəncsən. Özünü qorumağın ən doğru yolu qanunlara əməl etmək, ehtiyatlı olmaq və lazım gəlsə, böyüklərə müraciət etməkdir. Üzərində belə əşyalar gəzdirmək səni qorumaq əvəzinə daha böyük problem yarada bilər.

Mehman başını aşağı saldı və peşmanlıqla dedi:

- Bağışlayın, mən səhv etdim. Daha üzərimdə belə əşyalar gəzdirməyəcəyəm.

Həmin gündən sonra Mehman başa düşdü ki, özünü qorumağın ən yaxşı yolu qanuna və qaydalara əməl etmək, ağıllı davranmaqdır.

***85-ci dərsdən nələri öyrəndik?***

- Mətbəx bıçağı və oxşar əşyalar gündəlik istifadə üçündür, lakin başqasına qarşı istifadə edilərsə, silah qismində qiymətləndirilə bilər.
- Belə əşyaların cinayətin törədilməsində istifadəsi cəzanı daha da ağırlaşdırır.
- Özünü qorumağın ən yaxşı yolu qaydalara əməl etmək və böyüklərdən kömək almaqdır.

TAPŞIRIQ

***85.1. Mətbəx bıçağı və oxşar əşyalar cinayət törədərkən istifadə olunarsa necə qiymətləndirilir?***

A) Sadəcə oyuncaq hesab olunur.
B) Silah qismində istifadə edilən əşya kimi.
C) Heç bir əhəmiyyəti olmur.
D) Valideynlərin əşyası kimi sayılır.

***85.2. Mətbəx bıçağı və oxşar əşyaların cinayətdə tətbiqi hansı nəticəyə gətirir?***

A) Cəzanı daha da ağırlaşdırır.
B) Cəzanı azaldır.
C) Cəzanı tamamilə aradan qaldırır.
D) Heç bir dəyişiklik yaratmır.

***85.3. Uşaqlar özlərini qorumaq üçün hansı yolu seçməlidirlər?***

A) Qanunsuz əşyalar gəzdirməlidirlər.
B) Daim gizli silah gəzdirməlidirlər.
C) Dostlarına güvənməlidirlər.
D) Böyüklərə müraciət etməli, qaydalara əməl etməlidirlər.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Mehman niyə üzərində bıçaq gəzdirməyin onu qoruyacağını düşündü və bu fikir niyə yanlışdır?
2. Qanun hansı halda bəzi əşyaları (məsələn, bıçağı) "silah qismində istifadə edilən əşya" kimi qiymətləndirə bilər?
3. Özünü qorumaq üçün bıçaq gəzdirmək əvəzinə Mehman hansı daha təhlükəsiz və düzgün yolu seçə bilərdi?
4. Bu hadisə məktəbdəki digər uşaqlara hansı dərsi verir?

SİTUATİV SUAL

Təsəvvür et ki, dostunun da Mehman kimi üzərində bıçaq və ya iti bir əşya gəzdirdiyini görürsən. Sən səbəbini soruşduqda "özümü qorumaq üçündür" deyir. Sən bu halda ona nə deyərdin və hansı addımı atardın?

## 86-cı dərs

# Elnurun haqqı

Elnur 15 yaşında idi. Bir gün məktəbdə şagirdlərdən birinin pulqabısı itdi. Bəzi uşaqlar dedi ki, guya onu Elnur götürüb. O, çox pis vəziyyətdə qaldı:

- Mən oğurluq etməmişəm! - deyə Elnur gözləri dolu halda dedi.

Hadisə barədə polis bölməsinə məlumat verildi. Elnur çox qorxurdu. Düşünürdü ki, indi heç kim ona inanmayacaq.

Məktəbə gələn polis əməkdaşı Elnurun həyəcanlı olduğunu gördü və sakit səslə izah etdi:

- Oğlum, narahat olma, biz hadisəni diqqətlə araşdıracağıq. Əgər pulqabını sən götürməmisənsə, heç kim səni oğurluq etməkdə təqsirləndirə bilməz. Qanuna görə, hər bir uşağın müdafiə hüququ var, sən də araşdırma zamanı bu hüququndan istifadə edəcəksən. Səni dindirərkən yanında vəkilin də olacaq. Ola bilsin ki, dindirmədə müəllim də iştirak etsin. Əgər zərurət olarsa həkim və valideynin də yanında olacaq.

Polis əməkdaşının bu sözlərindən sonra Elnurun həyəcanı bir qədər azaldı. Polis əməkdaşı sözlərinə davam etdi:

- İndi sən hadisə ilə bağlı şahid qismində dindiriləcəksən. Qanuna görə, 16 yaşınadək olan yetkinlik yaşına çatmamış şahidin dindirilməsi müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır.

Belə də oldu. Elnur Polis bölməsində otağa daxil olanda atası, dövlət tərəfindən təyin olunmuş vəkil və məktəb psixoloqu da onunla idi. Vəkil dedi:

- Elnur, qorxma. Sən özünü müdafiə edə bilərsən. Heç kim səni öz əleyhinə ifadə verməyə məcbur edə bilməz.

Polis əməkdaşı suallar verdi, psixoloq isə onun özünü rahat hiss etməsinə kömək etdi. Elnur əminliklə danışdı:

- Mən oğurluq etməmişəm. Hadisə baş verən vaxt mən kitabxanada dərs hazırlayırdım. Bunu müəllim də təsdiq edə bilər.

Araşdırma aparıldı, şahidlər dinlənildi. Sonda məlum oldu ki, Elnur haqlıdır - o, oğurluq etməyib, həmin vaxt həqiqətən də kitabxanada olub. Pulqabı isə onu itirən şagirdin çantasında olub və o, pulqabını çantaya qoyduğunu unudub.

Elnur rahat nəfəs aldı. Polis əməkdaşı dedi:



- Elnur, gördüyün kimi, qanun çərçivəsində obyektiv araşdırma aparıldı və məlum oldu ki, günahsızsan. Sən müdafiə hüququndan istifadə etməklə araşdırmanın obyektiv aparılmasına kömək etmiş oldun. Unutma, heç kim təqsiri sübut olunmadan təqsirli sayıla bilməz.

Elnur bu hadisədən sonra başa düşdü ki, uşaqların müdafiə hüququ onların həyatında çox mühümdür və heç vaxt haqsızlıq qarşısında susmaq olmaz.

***86-cı dərsdən nələri öyrəndik?***

- Uşaqların cinayət araşdırmalarında müdafiə hüququ var.
- 14 yaşınadək, müstəntiqin mülahizəsinə görə isə 16 yaşınadək olan yetkinlik yaşına çatmamış şahidin dindirilməsi müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır.
- Qanun obyektiv araşdırmanı təmin edir - heç kim təqsiri sübut olunmadan təqsirli sayıla bilməz.

**TAPŞIRIQ**

***86.1. Cinayət araşdırmalarında uşaqların hansı hüququ var?***

A) Heç bir hüququ yoxdur.
B) Yalnız valideynlərin hüququ var
C) Müdafiə hüququ, yəni özünü qorumaq və müdafiə etmək hüququ.
D) Yalnız müəllimlərin hüququ var.

***86.2. 16 yaşınadək uşaqların iştirakı ilə istintaq hərəkətləri aparılarkən kimlərin iştirakı təmin olunmalıdır?***

A) Yalnız polis əməkdaşının.
B) Yalnız valideynlərin.
C) Vəkil, müəllim, zəruri hallarda isə həkim və qanuni nümayəndənin.
D) Dostlarının.

**DÜŞÜNDÜRÜCÜ SUALLAR**

1. Bəzi uşaqlar hesab edirdilər ki, pulqabını guya Elnur götürüb. Elnur qorxurdu ki, heç kim ona inanmayacaq. Onu bu vəziyyətdə hansı hüququ qorudu?
2. Uşağın dindirilməsində vəkilin, psixoloqun və valideynin iştirakı niyə vacibdir?
3. Əgər bu hadisədə Elnurun yanında heç kim olmasaydı, nəticə fərqli ola bilərdimi? Niyə?
4. Polis əməkdaşı və vəkil bu hadisədə Elnurun hüquqlarını necə təmin etdi?
5. Bu hekayə bizə hüquq və ədalət haqqında hansı vacib dərsi öyrədir?

**SİTUATİV SUAL**

Tutaq ki, səni də kiminsə əşyasını oğurlamaqda haqsız yerə günahlandırırlar. Bu halda nə edərsən: qorxub susarsan, yoxsa özünü müdafiə edib böyüklərə və hüquq-mühafizə orqanlarına məlumat verərsən? Nə üçün belə davranarsan?

## 87-ci dərs

# Xalidin səs-küyü

Xalid və dostları yay axşamı parkda topla oynayırdılar. Onlar səsgücləndiricidə yüksək səslə musiqi qoyaraq oyunun həyəcanı ilə qışqırır, ucadan gülürdülər. Gecə vaxtı olduğuna görə yaxınlıqdakı binalarda yaşayan insanlar narahat oldular. Qonşulardan biri pəncərədən səsləndi:

- Xahiş edirəm, bir az sakit olun, uşaqlar yatır!

Amma Xalid və dostları əvvəlcə buna fikir vermədilər. Bir az sonra polis əməkdaşı yaxınlaşdı. O, mehriban, amma ciddi tonda dedi:



- Uşaqlar, ictimai yerlərdə sakitliyi qorumaq hamının borcudur. Belə hərəkətlər ictimai qaydanın pozulması sayılır. Qanuna görə bu, inzibati məsuliyyət yaradır, yəni siz cərimələnə bilərsiniz.

Xalid utanıb başını aşağı saldı:

- Bağışlayın, biz oyuna aludə olmuşduq, həm də belə səs-küylə oynamağımızın bu qədər ciddi qayda pozuntusu olduğunu bilmirdik.

Polis əməkdaşı izah etdi ki, belə hal bir daha təkrarlansa, yol verdikləri qanun pozuntusuna, yəni inzibati xətaya görə barələrində qanunauyğun tədbir görüləcək.

Xalid və dostları dərhal musiqini söndürüb sakitləşdilər. Onlar başa düşdülər ki, qaydalara əməl etmək təkcə evdə yox, cəmiyyətdə də vacibdir.

***87-ci dərsdən nələri öyrəndik?***

- İctimai yerlərdə sakitliyi qorumaq hər bir vətəndaşın borcudur.
- İctimai asayişi pozmaq inzibati məsuliyyət doğurur.
- İctimai yerdə səs-küy salmaq başqalarının hüquqlarına hörmətsizlikdir.

TAPŞIRIQ

***87.1. İctimai yerlərdə sakitliyi qorumaq kimlərin borcudur?***

A) Yalnız böyüklərin.
B) Yalnız polis əməkdaşlarının.
C) Heç kimin.
D) Hamının, o cümlədən uşaqların.

***87.2. Gecə vaxtı parkda ictimai qaydanı pozmaq, məsələn, yüksək səslə musiqi qoyub səs-küy salmaq hansı məsuliyyət yaradır?***

A) İnzibati məsuliyyət yaradır.
B) Yalnız mənəvi məsuliyyətə səbəb olur.
C) Heç bir məsuliyyət yaratmır.
D) Yalnız ətrafdakıların qınağına səbəb olur.

### DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Xalid və dostlarının davranışı niyə ictimai qaydanın pozulması hesab olunur?
2. Niyə ictimai yerlərdə sakitliyi qorumaq hər bir vətəndaşın borcu sayılır?
3. Əgər hər kəs Xalid və dostları kimi davransaydı, cəmiyyətdə hansı problemlər yarana bilərdi?
4. Bu hadisədən sonra Xalid və dostları hansı vacib ictimai qaydanı öyrəndilər?

### SİTUATİV SUAL

Tutaq ki, dostlarınla parkda oynayarkən kimsə sizə “xahiş edirəm, bir az sakit olun” deyir. Dostların gülüb onu ciddiyə almırlar. Sən bu vəziyyətdə nə edərsən və niyə?

## 88-ci dərs

## Anarın yol dərsi

Anar 11-ci sinifdə oxuyurdu. Məktəbdən qayıdarkən tələsdiyi üçün yolu ən yaxın yerdən keçmək istədi. Piyadalar üçün nəzərdə tutulmayan yerdən qaçaraq yolun o biri tərəfinə adladı.

Bu an yol polisi onu saxladı:

- Oğlum, sən niyə yolu buradan keçirsən? Yaxınlıqda piyada keçidi var, oradan keçməlisən. Bu davranışın yol hərəkəti qaydalarının pozulmasıdır və qanunda buna görə cərimə nəzərdə tutulur.

Anar çaşqınlıqla cavab verdi:

- Mən bunun qayda pozuntusu olduğunu bilmirdim…

Yol polisi sakit şəkildə izah etdi:

- Qanunu bilməmək məsuliyyətdən azad etmir. Sən bilməlisən ki, piyadalar üçün nəzərdə tutulmayan yerdən yolu keçmək olmaz. Sən yol hərəkəti qaydasını pozmusan və bu, həm sənin üçün, həm də sürücülər üçün təhlükəlidir.

Anar utanaraq başını aşağı saldı:



- Bağışlayın, mən səhv etdim. İndi başa düşdüm ki, hər zaman piyada keçidindən istifadə etməliyəm.

Yol polisi gülümsəyərək əlavə etdi:

- Əsas odur ki, səhvini başa düşürsən. Qaydalara əməl etməklə həm özünü, həm də başqalarını qoruya bilərsən.

Anar anladı ki, qanunları öyrənmək və onlara əməl etmək hər kəsin borcudur.

***88-ci dərsdən nələri öyrəndik?***

• Qanunu bilməmək insanı məsuliyyətdən azad etmir.

• Qanunları öyrənmək və qaydalara əməl etmək həm uşaqların, həm də böyüklərin təhlükəsizliyini təmin edir.

TAPŞIRIQ

***88.1. Anarın hansı hərəkəti qayda pozuntusu idi?***

A) Dərsə tələsməsi.
B) Yolu qaçaraq keçməsi.
C) Yolu piyadalar üçün nəzərdə tutulmayan yerdən keçməsi.
D) Anarın heç bir hərəkətində qayda pozuntusu yox idi.

***88.2. Qanunu bilməmək insanı məsuliyyətdən azad edirmi?***

A) Bəli, qanunu bilməyən məsuliyyət daşımır.
B) Yalnız uşaqları məsuliyyətdən azad edir.
C) Yalnız məktəb qaydalarını bilməmək məsuliyyətdən azad edir.
D) Xeyr, qanunu bilməmək məsuliyyətdən azad etmir.

DÜŞÜNDÜRÜCÜ SUALLAR

1. Anarın hərəkəti niyə həm onun, həm də başqalarının təhlükəsizliyini riskə atdı?
2. "Qanunu bilməmək məsuliyyətdən azad etmir" ifadəsi nə deməkdir və bu, hekayədə necə izah olunur?
3. Yol polisinin cərimə yazmaq yerinə qaydanı izah etməsi nəyə xidmət edirdi?
4. Səncə, yol hərəkəti qaydalarına əməl etməyi vərdişə çevirmək üçün məktəblərdə və ailədə hansı tədbirlər görülməlidir?

SİTUATİV SUAL

Təsəvvür et ki, sən də tələsirsən və dostların kimi piyada keçidi olmayan yerdən yolu keçmək istəyirsən. Amma yaxınlıqda keçid var. Bu halda nə edərsən və niyə?

# TAPŞIRIQLARIN CAVABLARI

1.1-B
1.2 - 1(✓), 2(✓), 3(✗), 4(✓)
2.1-B
2.2-A
3.1-D
3.2-A
4.1-C
4.2-A
5.1-C
5.2-D
6.1-C
6.2-B
6.3-D
7.1-A
7.2-B
8.1-B
8.2-1(✓), 2(X), 3(✓), 4(✗), 5(✓)
9.1-B
9.2-D
10.1-B
10.2-D
11.1-B
11.2-C
11.3-C
12.1-B
12.2-A
13.1-D
13.2-B
14.1-D
14.2-C
15.1-B
15.2-C
15.3-C
16.1-C
16.2-A
16.3-1(✗), 2(✓), 3(✗), 4(✓)
17.1-A
17.2-C
18.1-B
18.2-D
19.1-C
19.2-A
20.1-A
20.2-C
21.1-C
21.2-B
21.3-B
22.1-C
22.2-B
23.1-B
23.2-D
24.1-B
24.2-B
24.3-C
25.1-C
25.2-A
25.3-B
26.1-D
26.2-B
27.1-1(✗), 2(✓), 3(✗), 4(✗)
27.2-B
28.1-D
28.2-1(✓), 2(✗), 3(✓), 4(✗)
29.1-B
29.2-A
29.3-D
30.1-B
30.2-1(✗), 2(✓), 3(✓), 4(✓)
31.1-C
31.2-1(✗), 2(✓), 3(✓), 4(✗)
32.1-B
32.2-D
33.1-A
33.2-B
34.1-B
34.2-C
34.3-C
35.1-B
35.2- A
36.1-D
36.2-C
37.1-D
37.2-A
38.1-C
38.2-B
39.1-D
39.2-B
40.1-C
40.2-C
41.1-D
41.2-C
42.1-B
42.2-B
43.1-D
43.2-A
44.1-B
44.2-A
45.1-A
45.2-C
46.1-B

46.2-A
47.1-C
47.2-B
48.1-D
48.2-C
49.1-B
49.2-C
50.1-B
50.2-D
51.1-B
51.2-C
52.1-D
52.2-A
53.1-C
53.2-B
54.1-C
54.2-1(✗), 2(✗), 3(✓), 4(✗)
55.1-B
55.2-C
56.1-C
56.2-B
57.1-D
57.2-D
58.1-C
58.2-A
59.1-B
59.2-D
60.1-D
60.2-C
60.3-1(✗), 2(✓), 3(✗), 4(✗)
61.1-C
61.2-C
62.1-D
62.2-A
63.1-B
63.2-A
64.1-C
64.2-B
64.3-B
65.1-A
65.2-C
66.1-C
66.2-D
67.1-A
67.2-1(B), 2(D), 3(A), 4(C)
68.1-B
68.2-1(✓), 2(✗), 3(✗), 4(✓)
69.1-B
69.2-C
70.1-A
70.2-C
71.1-A
71.2-D
72.1-D
72.2-C
73.1-D
73.2-B
73.3-C
74.1-B
74.2-A
75.1-A
75.2-D
76.1-C
76.2-B
77.1-C
77.2-1(✓), 2(✓), 3(✓), 4(✗)
78.1-B
78.2-A
78.3-A
79.1-D
79.2-C
80.1-A
80.2-B
81.1-B
81.2- 1(✓), 2(✓), 3(✗), 4(✓)
82.1-A
82.2- C
83.1-B
83.2-C
83.3-C
84.1-B
84.2-A
85.1-B
85.2-A
85.3-D
86.1-C
86.2-C
87.1-D
87.2-A
88.1-C
88.2-D

Dizayner:
Könül Qasımova

Çapa imzalandı: 22.12.2025. Fiziki çap vərəqi 25.
Formatı 60x90 1/8. Ofset çapı. Tiraj 300.
Sifariş 93. Bakı–2025.

“Təhsil Nəşriyyat-Poliqrafiya” müəssisəsinin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
+994 12 567 81 28 / +994 50 210 02 04
info@tahsilnp.az / www.tahsilnp.az / @tahsilnp.az
AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli Xan Xoyski küç. 149

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
**Telefon:** (+994 12) 498 00 92
**Faks:** (+994 12) 493 58 72
**E-poçt:** office@family.gov.az